RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 137 (8453) CÜMƏ AXŞAMI, 16 iyul 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





## Azərbaycan Ordusu Ali Baş Komandan tərəfindən verilən bütün tapşırıqları şərəflə yerinə yetirir

### İlham ƏLİYEV: “Son günlər ərzində baş vermiş toqquşmalar və qanlı döyüşlər Azərbaycan dövlətinin, ordusunun gücünü, xalqla iqtidar arasındakı birliyi bir daha göstərdi”

**İyulun 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib. AZƏRTAC xəbər verir ki, dövlət başçısı iclasda nitq söyləyib.**

### Prezident İlham Əliyevin nitqi

- Hər il olduğu kimi, biz bu il də plan üzrə altı ayın sosial-iqtisadi yekunlarını müzakirə edəcəyik. Bu ənənə öz bəhrəsini verir. Çünki bu toplantılarda həm görülmüş işlər, buraxılan nöqsanlar təhlil olunur, eyni zamanda gələcək fəaliyyətimiz üçün praktiki addımların atılması müəyyən edilir. Təbii ki, hər ilin əvvəlində il ərzində görüləcək işlər haqqında qərar verilir, tədbirlər planı təsdiq olunur. Ancaq həyat yerində durmur. Həyat dəyişir və yeni çağırışlar üzə çıxır. Belə olan halda, əlbəttə ki, biz öz planlarımıza da düzəlişlər etməliyik və edirik. Bu düzəlişlərin əsas məqsədi ölkəmizin uğurlu inkişafını sürətləndirmək, bunu təmin etməkdir. Ona görə biz bu gün də ənənəvi olaraq bu məsələləri müzakirə edəcəyik.

> Mən Azərbaycan xalqı ilə bütün vacib məsələləri həm bölüşürəm, həm məsləhətləşirəm, həm öz fikirlərimi, öz siyasətimi deyirəm və eyni zamanda xalqı narahat edən problemləri dərindən təhlil edirəm.

*Ardı 2-ci səh.*

### İlham ƏLİYEV: “Vətən uğrunda həlak olmuş hərbi qulluqçularımızın qəhrəmanlığı heç vaxt unudulmayacaq, onların qisası alınıb və alınacaq”

İyulun 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev döyüş zamanı müdafiənin ön xəttində olarkən qəhrəmancasına şəhid olmuş general-mayor Polad Həşimovun anası Səmayə xanım və polkovnik İlqar Mirzəyevin oğlu Elvinlə telefonla danışıb.

Dövlətimizin başçısı şəhidlərin ailə üzvlərinə dərin hüznlə başsağlığı verib, onlara Allahdan rəhmət və səbir diləyib. Prezident İlham Əliyev qeyd edib ki, Vətən uğrunda həlak olmuş hərbi qulluqçularımızın qəhrəmanlığı heç vaxt unudulmayacaq, onların qisası alınıb və alınacaq, qanları yerdə qalmayacaq.

Səmayə Həşimova və Elvin Mirzəyev Prezident İlham Əliyevə telefon zənginə və başsağlığına görə minnətdarlıqlarını bildiriblər.

***Prezidentin Mətbuat Xidməti***

### Azərbaycanı anarxiyaya sürükləmək mümkün deyil

Güclü dövlətimiz, milli həmrəyliyimiz və xalqımızın öz rəhbəri ətrafında sıx səfərbər olması antimilli qrupların pozuculuq planlarını iflasa uğradır

Bu günlərdə Tovuz rayonu istiqamətində ordumuzun mövqelərini ələ keçirmək istəyən Ermənistan bu hərəkəti ilə işğalçılıq siyasəti yürütdüyünü və təcavüzkar dövlət olduğunu bir daha təsdiq etdi. Azərbaycan Ordusu düşmənin bu niyyətinin qarşısını qəhrəmanlıqla aldı. Əks-həmlə və zərbələrlə geri qaçmağa məcbur olan ermənilər xeyli canlı itki verdilər, hərbi texnika sarıdan tələfata məruz qaldılar.

#### Yüksək döyüş əzminin və vətənpərvərliyin təsdiqi

Bu hadisə, ilk növbədə, məlum həqiqətləri yenidən bütün dünyaya nümayiş etdirdi. Belə ki, beynəlxalq ictimaiyyət Azərbaycanın istənilən an Ermənistanı sarsıdıcı məğlubiyyətə uğratmağa qadir olduğunu gördü.

*Ardı 10-cu səh.*

### Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzü və dövlət sərhədinin Tovuz istiqamətində törətdiyi son təxribatları ilə əlaqədar siyasi partiyaların milli həmrəyliyə dair BƏYANATI

İyul ayının 12-də Ermənistan hərbi qüvvələri dövlət sərhədinin Tovuz rayonu istiqamətində Azərbaycanın Silahlı Qüvvələrinin mövqelərinə qəfildən və xaincəsinə hücum edərək növbəti hərbi təxribat törətmişdir. Azərbaycan Ordusunun təxirəsalınmaz və adekvat tədbirləri nəticəsində erməni tərəfinin hücumunun qarşısı qətiyyətlə alınmış, düşmənə layiqli cavab verilmişdir. Erməni tərəfi ciddi itkilər verərək geri oturmağa məcbur edilmişdir. Erməni hərbçiləri iyul ayının 13-də və 14-də də döyüşləri davam etdirmiş, habelə Ermənistan-Azərbaycan sərhədlərinin digər istiqamətlərində təxribatlar törətməyə cəhdlər göstərmişlər. Azərbaycan Silahlı Qüvvələrinin qətiyyətli zərbələri nəticəsində düşmənin döyüş imkanları sarsıdılmış, böyük sayda hərbi texnikası və canlı qüvvəsi məhv edilmişdir. Düşmənə layiqli cavab verən Silahlı Qüvvələrimiz də təəssüf ki, itkilərə məruz qalmışdır. Lakin onların qisası yerdə qalmayıb. Şanlı hərbçilərimizin ölümünə bais olanlar həmişə olduğu kimi, ən ağır şəkildə cəzalarını alıblar.

*Ardı 9-cu səh.*

## İLHAM ƏLİYEVİN XƏBƏRDARLIQLARI

### Ermənistan və onun havadarları deyilənlərdən nəticə çıxarmalıdırlar

Lap qədimlərdə belə bir qayda da varmış:

Müharibə etməyə hazırlaşan dövlətlərin qoşunları qarşı-qarşıya düzülər, döyüşdən qabaq meydana orduların sərkərdələri, hər tərəfin ən güclüləri çıxar, qüvvələrini sınayardılar. Bəzən sərkərdəsi biabırçı şəkildə məğlub olan dövlətin ordusu döyüşdən imtina edərək təslim olardı.

Ağıllı yol sayılırdı: ordunu niyə qırdırsınlar?!

Bu gün Ermənistan-Azərbaycan hərbi qarşılaşması qədim dövlətin adətini yada salır.

Aprel müharibəsi və son dövrdə baş verənlər əyani şəkildə göstərdi ki, erməninin nə gücü gücümüzə çatır, nə də “sərkərdəsi” bir şeydir...

❖❖❖



*Azərbaycan Prezidenti İlham Əliyevin dünyada hörmət və nüfuzu ilbəil deyil, aybaay, günbəgün artır!*

*Buna səbəb onun gördüyü əməli işlər, dünya dövlətlərinə və xalqlarına etdiyi yaxşılıqlar, həyata keçirdiyi layihələr, beynəlxalq gündəmə çıxardığı həlli vacib problemlər, dalbadal irəli sürdüyü təşəbbüslər, verdiyi faydalı təkliflərdir.*

**Bəli, İlham Əliyev Azərbaycanı dünya üçün maraqlı və əməkdaşlığa layiq ölkəyə çevirə bilib!**

**Bəli, İlham Əliyev dünya dövlətlərinin maraqlarını Azərbaycanın maraqları ilə uzlaşdıra bilib!**

**Bəli, İlham Əliyev uzaqgörən və düşünülmüş siyasəti, hər dəfə atdığı hesablanmış addımları ilə qısa müddətdə dünyanın müasir liderləri ilə bir səviyyəyə yüksəlməyi bacarıb!**

Odur ki, dünyada keçirilən ən nüfuzlu tədbirlərin sevilən və arzuolunan dəvətlisi, ən ağıllı və maraqlı çıxışçısı, gərəkli və səmərəli təkliflərin müəllifi statusunu da qazanıb!

Əlbəttə, buna sevinməyənlər də, paxıllıq edənlər də, qısqanclıqla yanaşanlar da var və bütün bunlar təbii sayılır...

*İndi dünya yeni, bənzərsiz, həm də xoş olmayan dövrünü yaşayır - COVİD-19 pandemiyası hər şeyi tərsinə çevirib.*

*Qapılar bağlanıb, dövlətlər öz qınına çəkilib, dərin iqtisadi böhran öz nəfəsini hiss etdirir.*

**Yenə görünən İlham Əliyevdir!**

**Yenə yaranmış ağır vəziyyətdən çıxış yolunu görən və göstərən İlham Əliyevdir!**

**Yenə koronavirus bəlasına və iqtisadi böhrana qarşı ölkələri birliyə çağıran, bu birliyin yollarını və üsullarını, mübarizə vasitələrini göstərən İlham Əliyevdir:**

- Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının videokonfrans formatında onlayn iclasını keçirdi;
- dünya Qoşulmama Hərəkatının möhtəşəm videokonfransının təşəbbüsçüsü və təşkilatçısı oldu;
- BMT-nin Baş Assambleyasının xüsusi sessiyasının çağırılmasının müəllifinə çevrildi!

*Bütün bunlar sülhə, əməkdaşlığa, xeyirxahlığa və insanlığa xidmət edir!*

❖❖❖

Azərbaycanın həll edə bilmədiyi yeganə problem Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsidir!

İlham Əliyev bu çoxillik münaqişəni də çözmək əzmindədir!

Son illərdə bu yolda bir-birindən qətiyyətli və inamlı addımlar atıb.

**Əslində, işğal altındakı torpaqların azad edilməsi üçün zəruri işlərin hamısı görülüb:**

- Azərbaycanın güclü iqtisadiyyatı, hətta müdafiə sənaye kompleksi yaradılıb;
- ölkəmizin dünyada nüfuzu və çəkisi artıb, səsi və sözü daha ucadan və aydın eşidilməyə başlayıb;
- mühüm beynəlxalq təşkilatlarda aparılan səmərəli fəaliyyət sayəsində Qarabağ həqiqətləri olduğu kimi qəbul edilməkdə və dəstəklənməkdədir;
- ən müasir texnologiyalara əsaslanan silahlarla silahlanmış, mükəmməl təlim görmüş modern ordu yaradılıb;
- Ermənistanın faşist xislətli, yalançı və işğalçı dövlət olduğu dünya ictimaiyyətinə çatdırılıb!

**Bütün bunlara nail olan Prezident İlham Əliyev son dövrlərdə mənfur düşmənə dalbadal və bir-birindən güclü zərbələr də endirib:**

- 2016-cı ilin dördgünlük Aprel müharibəsində min hektarlarla ərazini Lələtəpə yüksəkliyi timsalında Azərbaycanın nəzarətinə qaytararaq, Cocuq Mərcanlı qəsəbəsini salıb məskunlaşdırmaqla, əslində, geriyə qayıdışın bünövrəsi qoyuldu!
- Naxçıvanda Günnüt əməliyyatı sayəsində nəinki böyük bir ərazi ələ keçirildi, üstəlik, Ermənistandan Gorusa və Laçına gedən yol nəzarətə alındı!

Əlbəttə, ağlı olan dövlət başçısı yaranmış yeni situasiyanı anlamalı və xalqının gələcək taleyini (hələ indiki dilənçi vəziyyətini demirik) nəzərə almalı idi. Siyasi dərsini türmədə alıb hakimiyyətə meydandan gələn Ermənistanın baş naziri Paşinyan isə problemlər burulğanında başını itirib.

*Ardı 10-cu səh.*

# Azərbaycan Ordusu Ali Baş Komandan tərəfindən

## İlham ƏLİYEV: "Son günlər ərzində baş vermiş toqquşmalar və qanlı döyüşlər Azərbaycan dövlətinin, ordusunun gücünü, xalqla iqtidar arasındakı birliyi bir daha göstərdi"

*Əvvəli 1-ci səh.*

Ancaq bundan əvvəl son günlər ərzində Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində baş vermiş hadisələr haqqında ictimaiyyətə məlumat vermək istərdim. Bildiyiniz kimi, iyulun 12-də erməni silahlı qüvvələri Azərbaycan mövqelərinə artilleriya atəşi ilə zərbə endirmişlər və bu gözlənilməz zərbə nəticəsində bizim hərbçilərimiz həlak olub, yaralanıb. Ondan sonra hər dəfə olduğu kimi, Ermənistan bu təxribatın səbəbkarı kimi Azərbaycanı göstərməyə cəhd etmişdir, halbuki bu, heç bir məntiqə sığmır. Bizim Ermənistanla Azərbaycanın dövlət sərhədində hər hansı bir hərbi məqsədimiz yoxdur. Bildiyiniz kimi, bir neçə il bundan əvvəl mənim tapşırığımla sərhədin bir hissəsinin qorunması Sərhəd Qoşunlarına həvalə olunubdur. Bu da onu göstərir ki, bizim bu istiqamətdə hər hansı bir hərbi planımız yoxdur və prinsip etibarilə hərbi məqsədlər nöqteyi-nəzərdən bunun heç bir əhəmiyyəti yoxdur. Üstəgəl, Ermənistan dırnaqarası "Azərbaycan diversiyasını" əsaslandırmaq üçün çox ağılsız və hesab edirəm ki, onların səviyyəsinə uyğun səbəb göstərməyə cəhd etdi. Guya ki, Azərbaycanın hərbi qulluqçuları - iki nəfər UAZ maşını ilə Ermənistan sərhədini pozaraq hərbi diversiya törətməyə cəhd etmişlər. Sual olunur, hansı ölkənin ordusu hücumu iki zabit və əsgərlə UAZ maşını ilə təşkil edir? Bəlkə Ermənistan ordusu belə "müdrik" hərbi əməliyyatlar hazırlamaqla məşğuldur? Ancaq Azərbaycan Ordusu və dünyanın heç bir ordusu belə ağılsız addım atmaz. Yəni bu cəfəng versiyanın Ermənistan tərəfindən təqdim edilməsinin əsas səbəbi günahı bizim üzərimizə yıxmaqdır, hər dəfə olduğu kimi. Ancaq bu dəfə buna heç kim inanmayıb. Hərbi mütəxəssis olmaq lazım deyil ki, bu cəfəng versiyaya insanlar inansın. Əsl vəziyyət ondan ibarət idi ki, bir daha demək istəyirəm, bizim hərbi postumuz artilleriya atəşi ilə vurulub və bu qəfil çirkin addım nəticəsində hərbçilərimiz həlak olublar. Dərhal mən bütün müvafiq göstərişlər verdim. Azərbaycan Silahlı Qüvvələrinə göstəriş verdim ki, hərbçilərimizin intiqamı alınmalıdır, onların qanı yerdə qalmamalıdır və düşmənə elə bir zərbə endirilmələdir ki, onu uzun illər bundan sonra yaddan çıxarmasın. Eyni zamanda Prezident Administrasiyasına, Nazirlər Kabinetinə, aidiyyəti qurumlara göstəriş verilib ki, bütün beynəlxalq təşkilatlar Ermənistanın bu diversiyası ilə əlaqədar məlumatlandırılsın, bu hadisə haqqında dolğun məlumat verilsin. Mən dərhal Təhlükəsizlik Şurasının toplantısını çağırdım və orada qeyd etdim ki, operativ vəziyyət imkan verən kimi, biz Azərbaycanda fəaliyyət göstərən xarici ölkələrin nümayəndəliklərində işləyən hərbi attaşeləri, jurnalistləri, əgər belə istək olarsa, səfirliklərin digər nümayəndələrini həmin bölgəyə dəvət edəcəyik, onları bu vəziyyətlə tanış edəcəyik və onlar yerində görəcəklər ki, bu təxribatı törədən kimdir və bu təxribat nəticəsində həlak olanlar hansı ordunun əsgərləridir.

Bir daha demək istəyirəm ki, görülmüş operativ tədbirlər nəticəsində Ermənistan ordusu layiqli cavabını aldı. Mən Təhlükəsizlik Şurasının toplantısında artıq demişdim ki, Azərbaycan əsgər və zabitlərinin qanı yerdə qalmamalıdır. Onlara sarsıdıcı zərbələr endirildi və bu zərbələr əminəm ki, onlara yaxşı dərs oldu. Ancaq buna baxmayaraq, dünən və srağagün onlar tərəfindən yenidən çirkin addımlar atılmışdır, növbəti dəfə hərbi təxribat törədilmişdir və bu təxribat nəticəsində yenə də bir neçə hərbçimiz, o cümlədən general Polad Həşimov, polkovnik İlqar Mirzəyev həlak olmuşlar.

Bu gün səhər saatlarında general Polad Həşimovun anası Səmayə xanımla telefonla danışdım, ona başsağlığı verdim, Allahdan səbir dilədim. Onu əmin etdim ki, oğlunun, bizim qəhrəmanımızın qanı yerdə qalmayıb, onun qisası alındı və bundan sonra da alınacaqdır. Belə analara eşq olsun ki, xalqımız, dövlətimiz üçün bu cür övladlar, igidlər yetişdirib.

Bildirməliyəm ki, general Polad Həşimov orduda çox böyük hörmətə malik olan bir insan idi. Aprel döyüşlərində öz rəşadətini göstərmişdir. Mənim tərəfimdən iki dəfə yüksək dövlət ordeni ilə təltif edilmişdir. Mənim tərəfimdən ona general rütbəsi verilmişdir. Polkovnik İlqar Mirzəyevin oğlu Elvinlə bu gün söhbət zamanı atasının qəhrəmanlığı haqqında danışdım. Dedim ki, o, atasına oxşamalıdır, bizim bütün gənclərimiz qəhrəmanlarımıza oxşamalıdırlar. Onların həyatı, torpaq, Vətən uğrunda göstərdikləri şücaət, qəhrəmanlıq hər bir gənc üçün nümunə olmalıdır. Biz fəxr edirik ki, Azərbaycan xalqı, Azərbaycan torpağı belə övladlar yetişdirib. Onların ailə üzvlərinə, yaxınlarına bir daha başsağlığı verirəm. Eyni zamanda son günlər ərzində həlak olmuş bütün insanların yaxınlarına, qohumlarına başsağlığı verirəm. Allah şəhidlərimizə rəhmət eləsin, Allah yaralı hərbçilərimizə şəfa versin.

Təklif edirəm ki, bu günlər ərzində torpaq uğrunda qəhrəmancasına həlak olmuş hərbçilərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilsin.

Allah rəhmət eləsin!

Bildirməliyəm ki, bu çirkin əməldən sonra mənim göstərişimlə qisas əməliyyatının ikinci fazası başlamışdır. Son iki gün ərzində düşmənə növbəti dəfə sarsıdıcı zərbələr endirildi. Bizdə olan məlumata görə, onlarca erməni hərbçi məhv edildi, onların sərhədboyu yerləşən dayaq məntəqələrinin böyük hissəsi darmadağın edildi. O cümlədən onların bəhanə kimi gətirdiyi məlum postun da bütün infrastrukturu darmadağın edildi, bu post artıq mövcud deyil. Düşmənin texnikası, silah-sursat anbarları, dayaq məntəqələri, avtomaşınlar, sisternlər, canlı qüvvənin yerləşdiyi yerlər Azərbaycan Ordusu tərəfindən dəqiq və sərrast atəşlə məhv edilmişdir. Əməliyyat haqqında bundan artıq demək istəməzdim. Çünki bu, hərbi sirdir, məxfi xarakter daşıyır. Ancaq biz bəzi videogörüntüləri paylaşdıq. Bu videogörüntülər Azərbaycan Ordusu tərəfindən keçirilmiş əməliyyatların cüzi bir hissəsidir. Nə mümkün olubsa, onu göstərmişik, hesab edirəm ki, indiki mərhələdə bundan artıq informasiya vermək düzgün olmazdı. Ancaq bu videosüjetlər açıq-aydın göstərir ki, düşmənin infrastrukturu, canlı qüvvəsi, səngərləri, postları, dayaq məntəqələri nə qədər dəqiqliklə məhv edilir.

Deməliyəm ki, son günlər ərzində Azərbaycan Ordusu bir daha öz üstünlüyünü göstərdi. Mən hesab edirəm ki, bu əməliyyatın Azərbaycan Ordusunun şanlı tarixində öz yeri olacaq. Necə ki, 2016-cı ildə Aprel döyüşlərində düşmənə dərs verdik və Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini düşməndən azad etdik. İki il bundan əvvəl - 2018-ci ildə uğurlu Naxçıvan əməliyyatı nəticəsində on min hektardan çox torpaq sahəsi Azərbaycan Ordusu tərəfindən götürüldü və işğalçılar o bölgələrdən qovuldu. Azərbaycan Ordusu tərəfindən götürülmüş strateji yüksəkliklər imkan verir ki, biz Ermənistanın bir neçə yaşayış məntəqəsinə nəzarət edək. Ermənistandan Dağlıq Qarabağa gedən avtomobil yolu bizim nəzarətimizdədir. Vaxtilə - 1990-cı illərin əvvəllərində Naxçıvan ərazisinin bir hissəsini işğal etmiş Ermənistan qüvvələri həmin ərazilərdən qovuldu, çıxarıldı, o torpaqlarda Azərbaycan bayrağı ucaldıldı.

Bu əməliyyat - son günlər ərzində baş vermiş hərbi toqquşma bizim növbəti şanlı qələbəmizdir. Bunu Azərbaycan xalqı bilir. Mən bu günlərdə minlərlə vətəndaşdan məktub alıram və bu məktubların hamısı dəstək xarakterlidir. Beynəlxalq hərbi ekspertlər eyni fikirdədirlər və bunu

> Bu gün xalq-iqtidar birliyi Azərbaycanda sabitliyin inkişafının əsas şərtidir.

o bölgədə real vəziyyət göstərir. Ermənistan qüvvələri bir santimetr belə Azərbaycan torpağına girə bilməmişlər və heç vaxt buna nail olmayacaqlar. Əksinə, əgər biz istəsəydik, bu gün Ermənistanın o ərazisində torpaqların böyük hissəsi nəzarətimizə keçə bilərdi. Ancaq bizim qarşımızda belə məqsəd dayanmır.

Ermənistan-Azərbaycan dövlət sərhədində vəziyyətlə bağlı məlumat artıq verildi və bu gün operativ vəziyyət bizi tamamilə qane edir. Biz istənilən vaxtda, lazım olan vaxtda bu günlərdə yaradılmış əlavə imkanlardan, o cümlədən döyüş məntəqələrinin yeni yerləşməsindən istifadə edib öz sözümüzü deyəcəyik. Aprel döyüşlərində olduğu kimi, mənfur qonşu bu dəfə də ən çirkin əməllərə əl atdı. O da nədən ibarətdir? Bizim kəndlərimizi atəşə tutdu və bunun nəticəsində 76 yaşında ağsaqqal Əziz Əzizov həlak olmuşdur. Bu, bir daha onu göstərir ki, Ermənistan faşist dövlətdir.

Ermənistan heç vaxt açıq döyüşdə qələbə qazana bilməyib və bilməz. Torpaqların itirilməsi, bir daha demək istəyirəm ki, o vaxt hakimiyyətə göz dikmiş Azərbaycan Xalq Cəbhəsinin və onun başında dayananların xəyanətidir. O vaxt Azərbaycanda vəziyyəti qarışdırmaq, hərc-mərclik salmaq, hakimiyyəti yıxmaq üçün onlar Qarabağ bölgəsində xəyanət etmişlər. O vaxt o bölgədə fəaliyyət göstərən Azərbaycan Xalq Cəbhəsinin batalyonları və onların komandirlərinin bir neçəsi xəyanət etmişlər. Baxmayaraq ki, onların tərkibində cəsur və Vətənə bağlı insanlar döyüşürdülər, öz canlarını qurban vermişlər. Ancaq o vaxt Azərbaycan Xalq Cəbhəsinin başında dayananlar nəyin bahasına olursa-olsun hakimiyyətə gəlmək üçün torpaqları satdılar və beləliklə, ovaxtkı hakimiyyəti yıxa bildilər. O vaxt bizim torpaqlarımızın itirilməsi bilavasitə Azərbaycan Xalq Cəbhəsinin xəyanətkar fəaliyyəti ilə bağlıdır. Ona görə



Ermənistan hər zaman bu imkanlardan faydalanıb. İndi də özləri gizlətmirlər ki, o vaxt Azərbaycanda xaos, anarxiya idi, onlar bundan istifadə edib torpaqlarımızı zəbt etdilər. O vaxt Azərbaycan Xalq Cəbhəsi Gəncəni bombalayırdı, Azərbaycan əsgərlərini əsir götürmüşdü. Orada torpaq əldən gedirdi, burada isə onlar hakimiyyət uğrunda mübarizə aparırdılar və əfsuslar olsun ki, öz çirkin əməllərinə nail oldular. Hakimiyyətə gəldilər, daha çox torpaq verdilər, sonra da biabırcasına qaçıb gizləndilər, fərarilik etdilər. Bütün bunlar bizim tariximizdir.

Amma Ermənistan ancaq əliyalın insanlara qarşı vuruşub, qocalara, uşaqlara qarşı soyqırımı törədib. Xocalı soyqırımını törədənlər Ermənistanın siyasi rəhbərliyidir, keçmiş hakimiyyətidir, keçmiş iki prezidentidir hərbi cinayətkarlar. Xocalı soyqırımı zamanı bu cəlladlar tərəfindən 106 qadın, 63 uşaq öldürüldü. Əziz Əzizov da həmin erməni faşistlərin əməlləri nəticəsində həlak olmuşdur. Bildirməliyəm ki, ağsaqqal Əziz Əzizovun da qanı yerdə qalmayıb, qarşı tərəfə adekvat cavab verilib və veriləcəkdir, heç kimdə bu haqda şübhə olmasın.

Mən hesab edirəm ki, son günlər ərzində baş vermiş toqquşmalar və qanlı döyüşlər Azərbaycan dövlətinin, ordusunun gücünü, xalqla iqtidar arasındakı birliyi bir daha göstərdi.

O ki qaldı, bu erməni hərbi təxribatının səbəblərinə, əlbəttə ki, bu səbəbləri biz tam dəqiqliklə bilə bilmərik, bunu həyat göstərər. Ancaq bir çox məntiqli ehtimallar mövcuddur və bu haqda mən Azərbaycan vətəndaşları ilə öz fikirlərimi

> Azərbaycan vətəndaşı öz torpağında ləyaqətlə yaşayır. Azərbaycan dövləti və Azərbaycan Ordusu onu qoruyur və qoruyacaqdır.

bölüşmək istərdim. Hesab edirəm ki, birinci səbəb Ermənistanda hazırda mövcud olan siyasi və iqtisadi böhrandır. Bu, heç kimə sirr deyil. Xaricdən maliyyələşən, xarici fondlardan maaş alan, onlardan təlimat alan və onların çevriliş texnologiyalarından bəhrələnən dəstə iki il bundan əvvəl hakimiyyəti qanunsuz yollarla zəbt edəndən sonra bir çox vədlər vermişdi. Ermənistanda çiçəklənmə, cənnət olacağını vəd vermişdi. Bəyan etmişdi ki, qısa müddət ərzində Ermənistana on milyardlarla dollar sərmayə qoyulacaq, qısa müddət ərzində Ermənistan əhalisi 5 milyona çatacaq - halbuki indi Ermənistan əhalisi 2 milyondan azdır, - Ermənistanda bütün həyat yenidən qurulacaq, ədalət olacaq, demokratiya inkişaf edəcək, insan haqları qorunacaq və digər vədlər vermişdi. Erməni xalqı Sarkisyan rejimindən o qədər bezmişdir ki, o, kimə istəsən inanardı. O çevrilişi təşkil edənlərin başında başqa adam olsaydı, ona da gedib səs verəcəkdi. Çünki Sarkisyan rejiminə nifrət həddindən artıq böyük idi və bundan istifadə edib hakimiyyəti zor gücü ilə zəbt etmiş bu qruplaşma bu vədləri sonra yerinə yetirməli idi. Ancaq necə yerinə yetirsin ki, təcrübə yox, səriştə yox, daxili resurslar yox, xarici investisiyalar qoyulmayıb. Əksinə, xarici investorları indi çürüdürlər, məhkəmə çəkişmələrinə cəlb edirlər. Bu gün Ermənistanın ayaqda dayanmasını şərtləndirən strateji investorları məhkəməyə çəkirlər, onları korrupsiyada ittiham edirlər, hətta necə deyərlər, bel bağladığı ölkənin şirkətlərinə qarşı çirkin əməllər törədirlər. Əlbəttə ki, bütün bunlar istənilən potensial investoru qorxudacaq. Əgər sənin ölkənə pul qoyan, orada infrastruktur yaradan, insanları işlə təmin edən ən yaxın şirkətlərə belə münasibət bəsləyirsənsə, onda başqa ölkələrin investorları nə fikirləşsin?!

Ona görə bu vədlərin iflasa uğraması təbii ki, Ermənistanda artıq böhranlı vəziyyətin yaranmasına gətirib çıxarıb. Hakimiyyət buna necə reaksiya verib? Cəmiyyəti birləşdirmək əvəzinə, əksinə, indi siyasi məhbuslar yaradır, siyasi opponentlər həbs edilir, təqib olunur, onların toxunulmazlığı götürülür, konstitusiya kobudcasına pozulur, konstitusiyaya qanunsuz düzəlişlər edilir, hansı ki bu düzəlişlər ancaq referendumla oluna bilərdi. Bilirlər ki, referendumda bu düzəlişlər keçməyəcək. Hakimiyyət zəbt olunub və hakimiyyət bölgüsü yoxdur. Hakimiyyət bir adamın əlində cəmləşib və demokratiyadan əsər-əlamət yoxdur və heç vaxt olmayıb. Faşist dövlətində hansı demokratiya, insan haqlarından söhbət gedə bilər. Amma indiki vəziyyət daha da acınacaqlıdır. Ona görə ki, iqtisadi sahədə vədlər yerinə yetirilmədi, siyasi cəhətdən Ermənistan özünü təcrid vəziyyətə qoydu. Azərbaycanın təşəbbüsü ilə BMT Baş Assambleyasının xüsusi sessiyasının çağırılması ilə bağlı onların ağılsız addımları bir daha bunu göstərir. Bütün dünya bizi dəstəklədi, əleyhinə çıxan yeganə ölkə Ermənistandır.

Demokratik prinsiplər tamamilə pozulub, Venesiya Komissiyasının tövsiyələri rədd edilib, siyasi opponentlər təqib olunur və diktatura hökm sürür. Ona görə indi Ermənistan rəhbərliyinə hansısa bir böhranlı vəziyyət lazımdır ki, fikri bu əsas məsələlərdən yayındırsın və şüurlu şəkildə bu təxribata əl atdı. Nə üçün məhz iyulun 12-də? Bu da təsadüfi deyil. İndi Ermənistanda bunu başqa hadisələrlə əlaqələndirirlər. Mən bu məsələyə toxunmaq istəmirəm. Çünki mən heç vaxt ailə məsələlərinə toxunmamışam və heç kimə məsləhət görmürəm. Amma mən hesab edirəm ki, iyulun 10-da artıq rəsmən açıq elan edilmiş BMT Baş Assambleyasının xüsusi sessiyası bunun əsas səbəbi olub. Çünki bu, ölkəmizin növbəti böyük uğurudur, növbəti böyük qələbəsidir, 130 ölkə bizi dəstəklədi. Azərbaycan o ölkədir ki, gündəliyi zəbt etmiş COVID-19 məsələsi diqqətə gətirildi, iki böyük zirvə görüşü keçirildi və ondan sonra BMT-nin Baş Assambleyasının xüsusi sessiyası. Budur səbəb. Səbəblər çox ola bilər. Sadəcə olaraq, mən öz fikirlərimizi bölüşmək istəyirəm, fakt odur ki, Ermənistanın hərbi təxribatı məhz bu vaxtlarda təsadüfən törədilməyib. Amma layiqli cavab verildi. Bir daha demək istəyirəm ki, Azərbaycan Ordusu vəziyyətə tam nəzarət edir. Onu da bil-

> Bizim hakimiyyət xalq hakimiyyətidir, xalqın iradəsinə əsaslanan hakimiyyətdir.

dirməliyəm ki, baxmayaraq, kəndlərimiz atəşə tutuldu, ağsaqqal həlak oldu, bizim kəndlərimizdə yaşayan insanlardan bir nəfər də yerindən tərpənmədi, bir nəfər də heç yerə getmədi. Amma bizdə olan operativ məlumata görə, Ermənistanda bəzi kəndlər, bəzi şəhərlər boşaldılır. İndi panika yaranıbdır. Bax, fərq budur. Azərbaycan vətəndaşı öz torpağında ləyaqətlə yaşayır. Azərbaycan dövləti və Azərbaycan Ordusu onu qoruyur və qoruyacaqdır.

Azərbaycan ictimaiyyətinin diqqətini bir məsələyə də çəkmək istərdim. O da ondan ibarətdir ki, bildiyiniz kimi, bu çirkin əməlləri törədəndən və Azərbaycan Ordusu tərəfindən layiqli cavab alandan sonra Ermənistan dərhal Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) müraciət etdi, dərhal onlardan yardım istədi, dərhal hay-haray qaldırdı ki, qoymayın bizi burada indi boğacaqlar, məhv edəcəklər. KTMT-nin buna nə dəxli var? Birincisi, Azərbaycan, bir daha demək istəyirəm ki, Ermənistanın dövlət sərhədini pozmayıb, təxribat törətməyib, Ermənistan ərazisinə keçməyib. Belə olan halda KTMT-nin bu işə nə dəxli ola bilər? Bu bir. İkincisi, bu addım onların acizliyini, qorxaqlığını göstərir. Onu göstərir ki, Azərbaycan qarşısında təkbaşına duruş gətirə bilməyəcəklər və onu bilirlər. Biz də bunu bilirik. KTMT-yə müraciət etmək onların qorxaqlığının növbəti təzahürüdür. Onlar öz qorxaqlığını, rəhbərliyin qorxaqlığını bir daha göstərdilər. Yaxşı, qələt eləmisən, təxribat törətmisən, cinayət törətmisən, - cavab ver buna. Cavab ver və veribdir artıqlaması ilə. İndi onlar ölənlərin sayını gizlədirlər. Amma bizdə operativ məlumat var. Bəzi ölən erməni hərbçilər haqqında məlumatı biz vermişik, onlar gizlədirdilər. Biz məlumatı verəndən sonra onlar onu etiraf etdilər. Necə ki, Aprel döyüşlərində gizlətmişdilər. Bu, bir daha onların acizliyini göstərir, digər tərəfdən, nəyi göstərir? Onların riyakar siyasətini göstərir. Yaxşı, necə ola bilər ki, bu yaxınlarda heç bir üzv ölkədən soruşmadan KTMT-nin baş katibini həbs etmisən. Belə şeymi olar? Bu, tamamilə bütün beynəlxalq davranış qaydalarını pozan bir addım idi. KTMT-nin rəhbəri vəzifəsində olan insanı həbs etdilər. Onlara təzyiq olunandan sonra onu buraxdılar, amma cinayət işi hələ bağlanmayıb, davam edir. Beynəlxalq təşkilatın ali nümayəndəsini həbs edir. Ondan sonra bir il ərzində KTMT-yə rəhbər nəzərdə tutulmuş şəxsin namizədliyini bloklayıb, veto qoyub. Çünki əlifba sırası ilə olmalı idi. Ermənistandan sonra Belarusun nümayəndəsi olmalı idi, onun namizədliyi verildi. Amma bir il imkan vermədi ki, o öz fəaliyyətinə başlasın. Budurmu KTMT-yə münasibət? Yaxşı, təxribat törətmisən, başından da zərbə almısan, indi nə olub qaçıb KTMT-dən yardım istəyirsən? KTMT-nin Ermənistandan başqa bütün üzvləri bizim dostlarımızdır.

İndi xarici fondlardan maliyyələşən, hakimiyyət nümayəndələrinin demək olar ki, hamısının SOROS fondunun və buna oxşar fondların tör-töküntüləri olan bir dövlətə KTMT ölkələrinin münasibəti necə olmalıdır? Mən sual verirəm və bu sual hesab edirəm ki, ritorikdir. İndi nə oldu qaçıb KTMT-nin ətəyindən yapışırsan. Cavab ver öz çirkin əməllərinə görə. Cavab vermisən və verəcəksən.

Onu da bildirməliyəm ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mən bu yaxınlarda Azərbaycan telekanallarına müsahibədə öz mövqeyimi, bizim prinsipial mövqeyimizi bir daha ifadə etdim. Azərbaycan xalqının bu mənasız danışıqlardan bezdiyini ifadə etdim. Ona görə bu məsələ ilə məşğul olanlar və bu günlər ərzində öz vasitəçilik təkliflərini irəli sürənlər bu haqda düşünsünlər, Azərbaycan xalqının səbri tükənməz deyil. Bu gün biz güclü ordu yaratmışıq. Bu gün xalq-iqtidar birliyi Azərbaycanda sabitliyin inkişafının əsas şərtidir. Ona görə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bir addım geri atmayacağıq. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir və bizim bu məsələ ilə bağlı fikrimiz qətidir.

O ki qaldı, bizim addımlarımıza, lazım olan vaxtda lazım olan addımları atırıq və atacağıq. Mən hələlik bundan artıq heç nə demək istəmirəm, hadisələri qabaqlamaq istəmirəm. Azərbaycanda hadisələri qabaqlamağı heç kimə məsləhət görmürəm. Buna ehtiyac yoxdur. Bu, zərərli ola bilər. Nə vaxt, nəyi, necə etmək lazımdır, bunu biz bilirik. Hesab edirəm ki, yaxın tarix dəfələrlə bunu göstərib, həm siyasi müstəvidə, diplomatik müstəvidə, eyni zamanda döyüş meydanında. Nəyi ediriksə, dəqiqliklə edirik. Son dörd il ərzində üç əməliyyat keçirilmişdir, üç toqquşma olmuşdur. Üçündə də qalib gəldik. Üçündə də bayrağımızı istədiyimiz yerə sancdıq. Üçündə də düşmənə sarsıdıcı zərbələr endirdik. Bundan artıq hələ ki, nəsə demək düzgün olmaz.

Mən bir məsələyə də toxunmaq istərdim. Bu da beynəlxalq aləmin bu hadisələrə reaksiyasıdır. Azərbaycan ictimaiyyəti bunu izləyir. Təxribat törədiləndən dərhal sonra - ayın 12-də günorta saatlarında mən Prezident Administrasiyasına müvafiq göstərişlər verdim və bizim beynəlxalq təşkilatlardakı nümayəndələrin, o cümlədən parlamentlərarası təşkilatlardakı nümayəndələrin hər biri təlimat aldı və təmsil olunduqları təşkilatların rəhbərlərinə məsələ ilə bağlı dolğun məlumat verdi.

Ancaq mən hesab edirəm ki, bizim diplomatik fəaliyyətimiz daha səmərəli ola bilərdi. Mən dəfələrlə demişəm ki, bizim diplomatiyamız hücum diplomatiyası olmalıdır, passiv, özünümüdafiə edən diplomatiya olmamalıdır. Kiminsə xoşuna gəlmək naminə öz sözünü deməkdən çəkinən diplomatiya olmamalıdır. Mən bunu dəfələrlə demişəm, həm müxtəlif tədbirlərdə, həm Xarici İşlər Nazirliyində, Azərbaycanın xarici ölkələrdəki səfirləri ilə görüşlərdə yol göstərmişəm ki, nə etməlisiniz. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı hansı addımları atmalısınız. Xarici ölkələrdə fəaliyyət göstərən mətbuatla necə işləməlisiniz. Azərbaycanın iqtisadi maraqlarını necə müdafiə etməlisiniz, Azərbaycan vətəndaşlarının hüquqlarını necə qorumalısınız. Diaspor təşkilatları ilə əlaqədar səmərəli işləri necə aparmalısınız. Beynəlxalq təşkilatlarda Azərbaycana bəzi hallarda ünvanlanan əsassız ittihamlara necə cavab verməlisiniz. Düşməni necə susdurmalısınız. Demişəm, hər bir məsələ ilə bağlı yol göstərmişəm. Amma biz bu göstərişlərin həyatda öz əksini tapmasını görürükmü? Bir çox hallarda görmürük. Əfsuslar olsun ki, son vaxtlar bizim diplomatiyamız ölkəmizin uğurlu inkişafı ilə uzlaşmır, bəzi hallarda mənasız işlərlə, mənasız danışıqlarla məşğuldur. Düşmən ölkə ilə, bizimlə münaqişədə olan ölkə ilə COVID-lə bağlı hansı danışıqlar aparıla bilər?! Bu, cəfəngiyyatdır. Yəni nədir, biz Ermənistanla əməkdaşlığamı başladıq?!

# verilən bütün tapşırıqları şərəflə yerinə yetirir

## İlham ƏLİYEV: “Son günlər ərzində baş vermiş toqquşmalar və qanlı döyüşlər Azərbaycan dövlətinin, ordusunun gücünü, xalqla iqtidar arasındakı birliyi bir daha göstərdi”



Mən demişəm və bütün beynəlxalq təşkilatlar, o cümlədən Minsk qrupunun həmsədrləri bunu bilirlər. Baxmayaraq təxminən son 17 il ərzində dəfələrlə mənə təkliflər edilib ki, Ermənistanla hansısa formada əməkdaşlığa başlayın, - humanitar, etimad tədbirlərinin gücləndirilməsi və digər. Mən demişəm, biz buna hazır ola bilərik, ancaq biz danışıqlar prosesində tərəqqi görməliyik. Görməliyik ki, biz artıq addım-addım sülh razılaşmasına yaxınlaşırıq. Əgər bu yoxdursa, onda bu əməkdaşlığın nə mənası var? Bu əməkdaşlıq ancaq bizim ziyanımıza ola bilər. Bu gün də bu mövqedəyəm. Gedin, işğalçı dövlətə təzyiq edin, başına ağıl qoyun, nəhayət, sözünüzü deyin ki, onlar bizim torpağımızdan çıxmalıdırlar. Əgər bu baş tutacaqsa və belə bir perspektiv real görünəcəksə, bəli, biz ondan sonra hansısa addımların atılmasını təmin edə bilərik. Ancaq indiki şəraitdə Ermənistanın baş naziri deyir ki, “Qarabağ Ermənistandır və nöqtə”. Mən buna cavab verirəm. Xarici İşlər Nazirliyi hansısa səviyyədə buna cavab verib, yoxsa yox? Mən eşitməmişəm, Azərbaycan xalqı da eşitməyib. Bunu, ilk növbədə, kim etməlidir? Xarici İşlər Nazirliyi susur. Mən demişəm ki, danışıqlar prosesində tərəqqi olmayana qədər Ermənistan ilə hər hansı bir əməkdaşlıqdan söhbət gedə bilməz. Sən demə, COVID müzakirə olunur. Yəni biz COVID-lə bağlı erməni işğalçılara köməklikmi göstərməliyik?!

Mən Azərbaycan xalqı ilə bütün vacib məsələləri həm bölüşürəm, həm məsləhətləşirəm, həm öz fikirlərimi, öz siyasətimi deyirəm və eyni zamanda xalqı narahat edən problemləri dərindən təhlil edirəm. Təsadüfən deyilmir ki, xalqın gözü tərəzidir. Ona görə bizim hakimiyyət xalq hakimiyyətidir, xalqın iradəsinə əsaslanan hakimiyyətdir. Ona görə mən bütün bu sualları çılpaqlığı ilə ictimaiyyətə təqdim edirəm. Bu son bir neçə gün ərzində ancaq mənim göstərişlərim əsasında addımlar atılıb. Mənim köməkçim Hikmət Hacıyevlə gündə bəlkə də on dəfə təmasdayam, - onu belə elə, bunu belə elə, onu buna de, o təlimatı buraya de.

Xarici İşlər Nazirliyi nə ilə məşğul idi? Harada idi? Ayın 12-də hadisələr baş verəndən sonra biz iş yerindəydik. Baş Nazir iş yerində, mən iş yerində səhərə qədər. Müdafiə naziri, Baş Qərargah rəisi, həmçinin Dövlət Təhlükəsizlik Xidmətinin rəisi, Daxili İşlər naziri, Xarici Kəşfiyyat Xidmətinin rəisi, Təhlükəsizlik Şurasının katibi gecə səhərə qədər iş yerində. Mən Xarici İşlər nazirini tapa bilmədim. Mən Əli Əsədovdan soruşdum, haradadır. Sənə nə dedi? De.

Baş Nazir **Əli ƏSƏDOV:** Cənab Prezident, soruşdum, dedi ki, mən evdən işləyirəm.

**Prezident İlham ƏLİYEV:** Necə, evdən işləyirəm?

Baş Nazir **Əli ƏSƏDOV:** Bəli, dedi ki, evdən işləyirəm. Mən Elmar Məmmədyarova zəng etdim. Sizin dediklərinizi ona dedim, soruşdum ki, bu hadisəni sən nə vaxt eşitmisən və harada olmusan? Dedi, evdən işləmişəm. Dedim, saatbasaat mənə de, harada olmusan? Yenə dedi ki, evdən işləmişəm. Günorta saat 3-də eşitmişəm. Daha sonra dedi ki, təqribən saat 6-da, 7-də Hikmət Hacıyevlə telefonla danışıb. İndi Siz dediniz, Hikmət Hacıyev Sizin təlimatları ona çatdırandan sonra deyib ki, bizim BMT-dəki nümayəndəmiz Yaşar Əliyevlə danışıb. Bax bu qədər. Mən Sizin verdiyiniz tapşırıqları ona çatdırdım, dedim ki, belə olmaz. Biz hamımız iş yerindəyik. Prosesləri cənab Prezident idarə edir. Xarici İşlər naziri olaraq sən bunu, bunu, bunu et - Sizin dediyiniz tapşırıqları. Soruşdum ki, evdə niyə işləyirsiniz? Sən gəl iş yerinə, kabinetinə və s. Tapşırıq belə oldu. Ondan sonra hadisələr məlumdur.

**Prezident İlham ƏLİYEV:** Aydındır. Daha dərinə getmək istəmirəm. Bir çox şey deyə bilərəm. Hesab edirəm bu, kifayətdir. Ancaq biz hamımız - həm rəhbər vəzifələrdə olanlar və ictimaiyyət bilməliyik real mənzərə nədən ibarətdir ki, düzgün addımlar ataq. Biz hər gün, hər dəqiqə ölkəmizin maraqlarını qorumalıyıq.

Bir məsələni də demək istərdim, bu, beynəlxalq təşkilatların reaksiyası ilə əlaqədardır. İlk növbədə, qardaş Türkiyəyə və onun Prezidenti, mənim qardaşım Rəcəb Tayyib Ərdoğana dərin təşəkkürümü bildirirəm. Biz bu günlərdə Türkiyədən yenidən qardaşlıq, dostluq münasibəti gördük. İlk saatlardan Türkiyənin rəsmi qurumları bu məsələ ilə bağlı Azərbaycanın haqlı mövqeyini müdafiə etdilər, açıqlamalar verdilər. Dünən Prezident tərəfindən çox önəmli açıqlama verildi. Ondan əvvəl Müdafiə naziri, Xarici İşlər naziri, Prezident Administrasiyasının nümayəndələri, deputatlar, ictimai fəallar. Bir daha bütün dünya, Türkiyə və Azərbaycan xalqları gördü ki, biz əsl qardaşıq. Yaxşı günlərdə və ağır günlərdə bir-birimizin yanındayıq. Yəqin ki həm Türkiyə vətəndaşları, həm Azərbaycan vətəndaşları mənim dəfələrlə dediyim sözləri xatırlayırlar və görürlər ki, mən nə qədər haqlı idim deyəndə ki, dünya miqyasında Türkiyə ilə Azərbaycan qədər bir-birinə yaxın olan ikinci ölkələr yoxdur. Bu yaşanan vəziyyət bir daha onu göstərir. Ona görə bir daha qardaş Türkiyə xalqına, onun Prezidentinə Azərbaycan xalqı adından və öz adımdan dərin təşəkkürümü bildirmək istəyirəm.

Bizim digər dost, qardaş ölkəmiz Pakistan birmənalı mövqe bildirib, Azərbaycanın haqq işinə öz dəstəyini verib. Eyni zamanda digər ölkələrin rəsmi nümayəndələri də Azərbaycanı dəstəklədilər. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası açıqlama verib. Fürsətdən istifadə edərək Pakistan İslam Respublikasının rəhbərliyinə, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası ölkələrinin rəhbərlərinə - Qazaxıstan, Qırğızıstan, Türkiyə təbii ki, Özbəkistan rəhbərliyinə təşəkkürümü bildirmək istəyirəm. Eyni zamanda yəqin ki, Azərbaycan ictimaiyyəti bunu bilir, İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanı dəstəkləyən bəyanatla çıxış edib. Bu təşkilatda 57 dövlət birləşir. Budur bizə göstərilən beynəlxalq dəstək. Qeyd etdiyim kimi, digər ölkələr, bəzi Avropa ölkələri öz rəsmi nümayəndələri vasitəsilə Azərbaycana dəstək ifadə etdilər. İndi baxın, görün Ermənistana kim dəstək göstərdi? Görməmişəm. Burada da təcrid vəziyyətindədir. Çünki hamı bilir ki, Azərbaycan haqlıdır. Bir çoxları bizim fəaliyyətimiz nəticəsində biliblər ki, bu çirkin təxribatı Ermənistan törətmişdir.

> Biz bu günlərdə Türkiyədən yenidən qardaşlıq, dostluq münasibəti gördük.

Bir məsələyə də toxunmaq istəyirəm. Bizim ordumuzun uğurlu əməliyyatı və əldə edilmiş nəticələr, hərbi qələbə, əlbəttə, təbii olaraq Azərbaycan ictimaiyyətində ruh yüksəkliyi yaratdı, xalqımızı coşdurdu. Bayaq dediyim kimi, mənə ünvanlanan məktublarda gördüyümüz işlərə tam dəstək ifadə olunur. Dünən bir qrup vətənpərvər insan bu işlərə öz münasibətini bildirmək, Azərbaycan Ordusuna və Ali Baş Komandan kimi mənə öz dəstəyini ifadə etmək üçün Şəhidlər xiyabanına üz tutdu. Mən bu vətənpərvər addımı alqışlayıram. Mənə verilən məlumata görə, bu insanlar uzun məsafəni piyada qət edib və Şəhidlər xiyabanına gedən müddət ərzində vətənpərvər şüarlar səsləndiriblər - mənim haqqımda, ordumuz haqqında, xalqımız haqqında, Qarabağ haqqında. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı ağır günlərdə bir nöqtəyə vura bilir. Bu, xalq-iqtidar birliyini göstərən daha bir mənzərə idi. Ancaq əfsuslar olsun ki, bu insanlar Şəhidlər xiyabanına gələndən sonra oraya, görünür, bu məsələ ilə bağlı haradansa xəbər tutmuş bəzi təxribatçı qruplar da daxil olub. İndi onların şəxsiyyəti araşdırılır. Bu təxribatçı qruplar orada xuliqanlıq törətdilər, ictimai asayişi pozmağa cəhd etdilər və polisə müqavimət göstərdilər. Mən daxili işlər orqanlarına göstəriş vermişdim ki, insanların Şəhidlər xiyabanına gəlişini, onların təhlükəsizliyini təmin etsin, yol hərəkətini tənzimləsin. Çünki insanlar bir çox hallarda avtomobil yolu ilə gedirdilər. Bütün bu göstərişləri dünən axşam mən Daxili İşlər naziri Vilayət Eyvazova verdim. Eyni zamanda dedim ki, siz ayıq olun, çünki istisna edilmir, hansısa təxribatçı qüvvələr və bizi istəməyənlər, “beşinci kolon”un nümayəndələri, satqınlar orada hansısa təxribat törədə bilərlər. Çünki belə kütləvi tədbirlərdə, o cümlədən əvvəlcədən təşkil olunmamış kütləvi tədbirlərdə bəzən xoşagəlməz hallar da baş verir. Ona görə Şəhidlər xiyabanına qədər bütün yol boyunca polis əməkdaşları öz vəzifə borclarını ləyaqətlə icra ediblər. Şəhidlər xiyabanında da insanlar yığışanda asayiş tam təmin edilirdi. Ancaq bir daha demək istəyirəm ki, bir qrup təxribatçı bu gözəl və nəcib addıma kölgə salmağa, qanunsuz əməllər törətməyə çalışdı. Təbii ki, daxili işlər orqanları tərəfindən onların bu əməllərinə qısa müddət ərzində son qoyuldu. Artıq onların şəxsiyyəti müəyyənləşdirilir. Onların hamısı məsuliyyətə cəlb ediləcək, bir nəfər də, - mən bu gün səhər dedim, - məsuliyyətdən boyun qaçıra bilməyəcək. Əlbəttə ki, ancaq qanun çərçivəsində onlara layiqli cəza veriləcəkdir, əgər onlar məhkəmə tərəfindən bu cəzaya layiq görüləcəklərsə. Onların şəxsiyyətlərinin müəyyənləşdirilməsi üçün biz ictimaiyyətdən də yardım istəyirik. O təxribatçıları tam müəyyən etmək üçün dünən oraya toplaşan vətənpərvər insanlardan da mən xahiş edirəm, əgər o videokadrlarda kimisə, iğtişaş törətmək istəyənləri tanıyırlarsa, məlumat versinlər, biz hamısını tapaq və cəzasını verək.

Azərbaycan xalqını bu təxribata çəkən Ermənistan başından zərbə aldı. Bizim şanlı ordumuz, bizim əsgərlərimiz, zabitlərimiz, hərbi komandirlərimiz bu günlər ərzində gecə-gündüz yatmadan iş başındadırlar. Mən Müdafiə nazirinə, Baş Qərargah rəisinə nə vaxt zəng edirəmsə, iş başındadırlar - gecə, səhər saat 7-də, axşam saat 10-da, gecə saat 2-də. Biz böyük qələbə qazanmışıq, xalq da bunu dəstəklədi. Xalq qələbəni qeyd etmək, şəhidlərimizin ruhunu yad etmək üçün Şəhidlər xiyabanına gəldi. Hansısa yaramaz ünsürlər burada iğtişaş törədəcək? Bu olmayacaq. Onların fikri 1990-cı illərin əvvəllərinə getməsin. Azərbaycanın ovaxtkı hakimiyyətinin bədbəxtliyi də ondan ibarət idi ki, Xalq Cəbhəsi kimi çirkin, mənfur, qorxaq, satqın fərarilərdən qaçdı. O fərarilər ki, ondan bir il sonra hakimiyyəti qoyub qaçdılar. Bax bu binada otururdular. Bu binanı da zibilləmişdilər. Prezidentin kabinetində hər gün kolbasa, araq yeyib-içirdilər, hər gün, gecə səhərə qədər. Sonra da o, vaxtkı prezident saat 12-də yuxudan oyanırdı. Saat 5-də də yenidən kolbasa, araq. Keçmiş müdafiə naziri, keçmiş daxili işlər naziri, keçmiş dövlət katibi, keçmiş prezident bu binanı murdarlamışdılar. Belə bir çirkin dəstə gəlib o vaxt hakimiyyəti hay-küylə yıxdı. Onların fikri ora getməsin. Bunların dərsini vermişik, verəcəyik. Heç kim məsuliyyətdən boyun qaçıra bilməyəcək.

> İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanı dəstəkləyən bəyanatla çıxış edib. Bu təşkilatda 57 dövlət birləşir. Budur bizə göstərilən beynəlxalq dəstək.

Mənə verilən məlumata görə, dünən bəzi müxalif qurumlar, o cümlədən Azərbaycan Xalq Cəbhəsinin nümayəndələri o kütlənin içinə girərək orada insanları qanunsuz əməllərə sövq etməyə çalışıblar. Qanunu pozanların arasında onlar da var, onlar indi müəyyən olunublar. Mən bir daha xəbərdarlıq edirəm, odla oynamasınlar. Bu məsələ milli məsələdir. Heç nəyə baxmayacağıq, kim nə dedi, hansı şura, hansı Avropa Şurası, hansı təşkilat. Bizim son günlərdə sərgilədiyimiz mövqe - beynəlxalq təşkilatlarda bizim əleyhimizə çirkin kampaniya aparanlara qarşı tutduğumuz mövqe artıq nəticə verir. Anti-Azərbaycan qüvvələri harada mümkünsə, onları bloklayacağıq. Onların namizədlərinin meydan oxumasına, Azərbaycana çirkab yaxmasına imkan verməyəcəyik. Heç kim bizə göstəriş verə bilməz. Dünənki hadisə hamımız üçün bir siqnal olmalıdır. Yadınıza salın, o vaxt torpaqlar əldən gedirdi, burada parlamentin qarşısında mitinqlər təşkil edilirdi. Minlərlə insan yığışırdı, öz hiddətini ifadə edirdi. Ancaq nəticə etibarilə nə oldu? Torpaqlar əldən getdi. İndi mitinq vaxtıdırmı? Biz şəhidlər veririk, igidlər itiririk, generallar itiririk. Bu çirkin ünsürlər indi burada vəziyyəti gərginləşdirmək istəyir. Bütün aidiyyəti qurumlara deyirəm. Əgər dünənki hadisələrdə onların əli varsa, bizim qətiyyətimizi görəcəklər. Onlar ermənilərdən də pisdirlər. Erməni açıq düşməndir. Oturub orada, bunlara görə torpaqlarımızı işğal edib. Bu Xalq Cəbhəsinin fərarilərinə görə bu gün o torpaqlardadır. Amma bu, oturub bizim içimizdə. Xaricdən pul alır, təlimat alır, mühiti zəhərləyir, bizim təmiz havamızı üfunət iyi ilə çirkləndirir və belə məqamlarda dövlətin yanında yox, düşmənin yanındadır.

Mən demişəm, hüquq-mühafizə orqanları onların bu günlər ərzində sosial şəbəkələrdə çıxışlarını təhlil etsinlər. Əgər orada cinayət tərkibi varsa, onların hamısı cinayət məsuliyyətinə cəlb edilməlidir. Döyüşlər getdiyi vaxtda onlar ordumuza şər atırlar, yalanlar uydururlar. Deyirlər ki, biz o yeri vermişik, biz oraya getməməliydik, biz buraya getməməliydik. Sən kimsən? Sən bizim ordumuza göstəriş, məsləhət verirsən. Ay başı boş, ay satqın. Bunlardır, bunlar idi Azərbaycan dövlətçiliyini yıxmaq istəyənlər. Biz bunların nazı iləmi oynayacağıq? Onlara elə dərs veriləcək ki, bu, son dərs olacaqdır.

Ona görə, bir daha demək istəyirəm, hüquq-mühafizə orqanları bu işlərlə məşğul olacaq. Onların bütün antidövlət çıxışları, çağırışları təhlil ediləcək. Əgər orada cinayət tərkibi varsa, onlar dərhal cinayət məsuliyyətinə cəlb edilməlidir. Biz “beşinci kolon”la bu işi bitirməliyik, belə davam edə bilməz. Yəni burada dözümlülük qətiyyən yolverilməzdir. Adi günlərdə biz bəzi hallarda gözümüzü yumuruq, deyirik ki, əhəmiyyətsiz şeydir. Amma belə vəziyyətdə bu, düşmənçilikdir. Bu gün bu düşmənçiliyin başında dayanan Azərbaycan Xalq Cəbhəsidir, onun çirkin, satqın rəhbərləridir, özünü lider sayan qorxaqlar, fərarilərdir. Onlar artıq Azərbaycan xalqı tərəfindən dəfələrlə öz yerini görüblər və görəcəklər.

Bir məsələyə də mən toxunmaq istəyirəm. Dünən həmin təxribatçıların bir çox şüarları olubdur. İnsanları bəzi işlərə təhrik edirdilər. Mən demək istəyirəm, bu gün Azərbaycan Ordusu tam komplektləşdirilib, müasir silahlarla təchiz edilib. Azərbaycan Ordusu Ali Baş Komandan tərəfindən verilən bütün tapşırıqları şərəflə yerinə yetirir. Mənim dövrümdə bir dəfə də olmayıb ki, tapşırıq verilsin, yerinə yetirilməsin. Yerinə yetirilib. Hətta 2016-cı ilin Aprel döyüşlərində Ermənistanın təxribatına elə cavab verib, elə əlverişsiz mövqedən gedib o torpaqları boşaldıb, azad edib ki, bu günə qədər bəzi hərbi ekspertlər buna məəttəl qalırlar. Son günlərin hadisələri onu bir daha göstərir. Ona görə ordumuz üçün nə lazımsa, biz edirik və edəcəyik. Əgər kimsə, hansısa vətənpərvər insan orduda xidmət etmək istəyirsə, mən bunu ancaq alqışlayıram. Çünki bizdə müddətdən artıq xidmət edənlərin sayı artır, bu da mənim göstərişim idi. Onlar yaxşı maaş alırlar. Onlar artıq təlim keçmiş, orduda xidmət etmiş insanlardır. Biz onları cəlb edirik və əgər belə təşəbbüs olacaqsa, bunu ancaq alqışlayacağıq. Amma bu gün meydanda səslənən və ola bilər yaxşı niyyətlə “mən gedim Qarabağda vuruşum” sözlərinə son qoymaq lazımdır. Populizmin vaxtı deyil. Sən gedib necə vuruşacaqsan? Gedib nə ilə vuruşacaqsan? Sən vuruşmaq üçün gərək təlim keçəsən. Gərək sən nizamlı orduda xidmət edəsən. Səni gərək hazırlasınlar, səni gərək öyrətsinlər.

> Bizim digər dost, qardaş ölkəmiz Pakistan birmənalı mövqe bildirib, Azərbaycanın haqq işinə öz dəstəyini verib.

Mən bu gün səhər Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəhbəri ilə danışmışam və maraqlanmışam. Dedim, mənə de, bu günlər ərzində sizin rayon şöbələrinə nə qədər adam müraciət edib ki, gedib vuruşmaq istəyir. Mən bu rəqəmi deyəcəyəm, hər kəs onu eşitsin və özü təhlil aparsın. Dedi təqribən 150 nəfər. Dünən Şəhidlər xiyabanının qabağında nə qədər adam var idi? Minlərlə. Müraciət edənlərin sayı 150. Soruşdum daha çox haradan? Dedi ki, 60-ı Tovuzdandır ki, indi orada döyüşlər gedir. Qalanları da Azərbaycanın müxtəlif yerlərindən. Ona görə mən deyirəm, dünən “Qarabağda vuruşmaq istəyirəm” deyənlər hamısı getsin öz anket məlumatını Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə versin. Öz ünvanını versin, orduda xidmət etmə haqqında öz arzusunu ifadə etsin və biz lazım olan vaxtda onları cəlb edəcəyik. Yoxsa kimsə gedib qışqıracaq, insanları qanunsuz əməllərə sövq edəcək, müqəddəs Qarabağ şüarı altında özünə siyasi kapital qazanacaq və sonra nə olacaq. Necə ki, vaxtilə olub, onumu istəyirlər? Bax real vəziyyət bundan ibarətdir. Bir daha demək istəyirəm ki, bu gün buna ehtiyac yoxdur, bu gün səfərbərliyə ehtiyac yoxdur. Lazım olarsa, bizim qurumumuz var, dövlət xidməti var, ondan sonra Müdafiə Nazirliyi var. Biz bilirik nə etmək lazımdır, nə vaxt lazımdır, hansı məsələlərin həlli üçün bizə nə qədər canlı qüvvə lazımdır. Yoxsa kimsə özündən burada küçə qəhrəmanı düzəltmək istəyirsə, bu, pis yoldur. Mən yenə də deyirəm, dünən Şəhidlər xiyabanına yığışanların mütləq əksəriyyəti vətənpərvər insanlardır. Amma onların arasına bu ünsürlər - Azərbaycan Xalq Cəbhəsinin tör-töküntüləri girib. Onların məqsədi nə idi? Yenəmi Azərbaycanı qaranlığa qərq etmək, yenəmi vəziyyəti gərginləşdirmək? Yenə də ermənilər bundan istifadə etsinlər? Onların məqsədi budur. Xalq Cəbhəsinin, o çirkin antimilli şuranın məqsədi budur. Görmürdünüz ki, neftin qiyməti 14 dollara düşəndə necə sevinirdilər. Buna kim sevinir - ermənilər, bir də bunlar. Bir-birinə muştuluq verirdilər, bayram edirdilər, təbrik edirdilər. O Amerikada oturan deyir ki, hələ gözləyin sürüşə-sürüşə gələcək sıfıra. Heç olmasa, ağlın olsun, neftin qiyməti sıfır ola bilər? Hələ deyir tələsməyin sevinməyə, hələ gələcəkdə sevinəcəyik ki, neft 14 dollardan da düşsün, ondan sonra nə olacaq. Sual verin, 2 ildir Amerikada oturub. Birincisi hansı pulla sən orada oturursan, kim səni orada saxlayır, kim sənə pul verir, kim sənə təlimat verir. De ki, Azərbaycan xalqı bunu bilsin. İndi oturub orada, xarici pullarla vəziyyəti qarışdırmaq istəyir. Ona görə bunlara son qoyulacaq. Heç kimdə bu haqda şübhə olmasın. Biz dövlətimizi qoruyuruq, qoruyacağıq. Azərbaycan xalqı dəfələrlə vətənpərvərlik göstəribdir. Bu, bizim növbəti şanlı qələbəmizdir. Bu mövzunu yekunlaşdırmaq üçün bir daha demək istəyirəm ki, biz bilirik nə etmək lazımdır, nə vaxt etmək lazımdır və necə etmək lazımdır. Bu günə qədər bizim bütün addımlarımız uğurlu olub - istər döyüş meydanında, istər siyasi müstəvidə, istər daxili vəziyyətlə bağlı, iqtisadi və digər sahələrdə.

İndi isə keçək bizim gündəlikdə duran məsələlərə. İndi iqtisadi vəziyyətlə bağlı müşavirə iştirakçıları məlumat verəcək. İlk növbədə, deməliyəm, heç kəs unutmamalıdır ki, biz hələ də pandemiya dövründə yaşayırıq və karantin rejimi ləğv edilməyib. Baxın statistikaya, görün biz nə vaxt yumşalmaya getdik - mayın əvvəlində. Nə üçün? Çünki dinamika müsbət idi. Sağalanlar xəstələnənlərdən çox idi. Sonra nə gördük? Bəzi insanlar məsuliyyətsizlik göstərdi və yoluxma halları geniş vüsət aldı, dinamika pozuldu. Nə etdik? Yenidən sərtləşdirdik. Unutmamalıyıq ki, bu, ölümcül virusdur, ölümcül! Yaşa baxmır, insanların sağlamlığına baxmır. Birinci mərhələdə hesab olunurdu ki, buna daha çox yaşlı insanlar məruz qalır və daha təhlükəlidir. Amma görün, indi nə qədər gənclərimiz əziyyət çəkir. İndi bizim gözümüzün qabağındadır. Deyirdilər ki, virus ancaq xəstə adamlar üçün təhlükəlidir. Bəs yoluxan sağlam adamlar, idmançılar? Bu, ölümcül virusdur, bunu heç kim yaddan çıxarmasın. Ona görə son vaxtlar əlavə tədbirlər görüldü. İstərdim ki, Operativ Qərargahın sədri Baş Nazir bu məsələ ilə bağlı məlumat versin, ümumi vəziyyət necədir. Mənim göstərişimlə təcili tibbi yardım maşınlarının alınması, modul tipli yeni hospitalların gətirilməsi nəzərdə tutulurdu. Bu və digər məsələlər haqqında məlumat verin.

Ardı 4-cü səh.

# Azərbaycan Ordusu Ali Baş Komandan tərəfindən

## İlham ƏLİYEV: "Son günlər ərzində baş vermiş toqquşmalar və qanlı döyüşlər Azərbaycan dövlətinin, ordusunun gücünü, xalqla iqtidar arasındakı birliyi bir daha göstərdi"

*Əvvəli 3-cü səh.*

Baş Nazir **Əli ƏSƏDOV** çıxış edərək dedi:

- Təşəkkür edirəm.

Möhtərəm cənab Prezident, bildiyiniz kimi, dünyanı bürümüş koronavirus epidemiyası ilə bağlı ilk olaraq bir qrup Azərbaycan vətəndaşı fevral ayından başlayaraq Çindən təxliyə edilərək xüsusi ayrılmış Qobustan xəstəxanasına karantinə gətirildi. Həmin dövrdən başlayaraq Azərbaycanın sərhəd-keçid məntəqələri gücləndirilmiş iş rejiminə keçdi, xaricdən, xüsusən də epidemiyanın yayıldığı ölkələrdən gələn bütün şəxslərin mütləq şəkildə ciddi tibbi müayinədən keçirilməsinə qərar verildi. Xəstəliyin Azərbaycan ərazisində yarada biləcəyi təhlükələrin qarşısının alınması, profilaktik və təxirəsalınmaz tədbirlərin operativ həyata keçirilməsi məqsədilə, cənab Prezident, Sizin sərəncamınızla 27 fevral tarixində Nazirlər Kabineti yanında Operativ Qərargah yaradılıb. Sizin Operativ Qərargaha verdiyiniz ilk tapşırığınıza əsasən, xəstəliklə mübarizə aparmaq üçün təxirəsalınmaz qaydada xəstəxanaların virusla mübarizə üçün hazır vəziyyətə gətirilməsi, çarpayı fondunun artırılması və zəruri olan bütün tibbi avadanlıq və preparatların təchiz olunması istiqamətində vacib işlər aparılıb.

Cənab Prezident, bu gün koronavirus xəstələri ölkənin 35 şəhər və rayonunda yerləşən 50 xəstəxanasında müalicə alırlar. Bu xəstəxanaların 36-sı Sizin sərəncamınızla son müddət ərzində inşa edilib. Qısa müddətdə modul tipli xəstəxanalar istifadəyə verilib. Əlavə olaraq, cənab Prezident, son günlər koronavirusla mübarizəyə ambulator tipli müəssisələr də cəlb olunub. Onların 40-ı Bakıda simptomsuz yoluxmuş şəxslərə evdə xidmət göstərmək üçün ayrılıb. Hazırda xəstəliyin müalicəsi üçün ayrılmış çarpayıların ümumi sayı 10 mindən artıqdır və bu istiqamətdə işlər aparılır. Qısa müddətdə 300-dən artıq süni tənəffüs aparatı ölkəyə gətirilib, xəstəxanalara verilib. Ən müasir ECMO cihazlarının sayı artırılıb. Cənab Prezident, son dövrdə təcili tibbi yardımın xidmətlərinə əhali tərəfindən müraciətlərin sayının artması səbəbindən əlavə avtomobillərə tələbat artıb. Tapşırığınızla xaricdən sifariş olunmuş 84 avtomobil ölkəyə gətirilərək tibb müəssisələrinə paylanılıb. İyul-avqust aylarında əlavə olaraq 100 təcili yardım avtomobili gətiriləcək. Fevral ayında koronavirus infeksiyasının müəyyən olunması üçün ölkədə cəmi 6 xüsusiləşdirilmiş laboratoriya mövcud idi və onların gün ərzində minə yaxın test aparmağa imkanı var idi. Hazırda laboratoriyaların sayı 30-a çatdırılıb və gündəlik test imkanları 10 mindən çoxdur. Yaxın zamanlarda əlavə olaraq laboratoriyaların sayı çoxaldılacaq və testlərin sayı 12-13 mini keçəcək.

Məlum olduğu kimi, Ümumdünya Səhiyyə Təşkilatı və epidemioloqların ümumi rəyinə görə, bu xəstəlikdən qorunmaq üçün tibbi maskalar vacibdir. Qısa müddət ərzində 50 milyondan artıq maska Azərbaycana idxal olunub. Sizin tapşırığınızla operativ görülmüş işlər nəticəsində yerli istehsal təşkil olunub və nəticədə 10 milyona qədər maska istehsal edilib. Bu gün Azərbaycanda 14 milyondan artıq maska var və yerli istehsal davam edir.

Cənab Prezident, Siz də qeyd etdiniz, karantin rejimi ilə əlaqədar mart ayının 14-dən etibarən Operativ Qərargah tərəfindən bəzi izolyasiya tədbirləri həyata keçirilməyə başlanılıb. Martın 24-dən isə "Sanitar-epidemioloji salamatlıq haqqında" qanuna əsasən xüsusi karantin rejimi tətbiq edildi və mərhələli şəkildə gücləndirilməyə başlandı. Karantin rejimi ilə əlaqədar görülmüş işlər və tətbiq olunmuş məhdudiyyətlər ölkə iqtisadiyyatına təbii olaraq mənfi təsirini göstərdi.

Sizin Operativ Qərargah qarşısında qoyduğunuz vəzifələr dövlətin bütün imkan və resurslarını xəstəliklə mübarizəyə yönəltməsinə, vətəndaşlarımızın sağlamlığının qorunması üçün bütün tədbirlərin görülməsinə səfərbər olunmaqdan ibarət idi. Bunun təsdiqi olaraq 19 mart tarixli sərəncamınızla pandemiyadan əziyyət çəkən işsiz adamlara, aztəminatlı təbəqələrə, fəaliyyəti məhdudlaşdırılmış sahibkarlıq subyektlərinə kömək, ictimai iş yerlərinin yaradılması, özünüməşğulluq proqramının genişləndirilməsi, səhiyyə sisteminin gücləndirilməsi məqsədilə 1,5 milyard manatlıq tədbirlər planı hazırlanıb. Ümumiyyətlə, bütün mənbələr hesabına iqtisadiyyata bu dövr ərzində bütövlükdə 3,5 milyard manat həcmində sosial-iqtisadi yardım paketi müəyyən edilib. Xüsusi karantin rejimi dövründə məhdudlaşdırıcı tədbirlər müsbət nəticə verdi və bu səbəbdən, Siz də qeyd etdiyiniz kimi, may ayının ortalarından Operativ Qərargah tərəfindən yumşalma prosesinin həyata keçirilməsinə başlanıldı. Lakin, əfsuslar olsun ki, bundan bir müddət sonra sanitar-epidemioloji qaydalara riayət olunmaması səbəbindən xəstəliyin sayı artdı. Bu cür halların qarşısını almaq məqsədilə qərargah təkrar olaraq məhdudlaşdırıcı tədbirlərə əl atmağa başladı və 16 şəhər və rayonda xüsusi karantin rejimi tətbiq olundu. Son günlərdə xəstəliklə əlaqədar rəqəmlərdə müsbət tendensiya müşahidə olunur və bu da pandemiya ilə mübarizədə həyata keçirilən tədbirlərin düzgün istiqamətdə aparılmasını təsdiqləyir.

Cənab Prezident, Sizin və hörmətli Mehriban xanımın göstərişi ilə Türkiyə, Rusiya və Kubadan olan böyük təcrübəyə malik tibb mütəxəssislərindən ibarət heyətin Azərbaycana gətirilməsi və xəstəxanalarda bizim həkimlərlə birgə işləməsi təşkil olunub. Həmçinin Çin Xalq Respublikası Hökuməti ilə aparılmış danışıqlara və müraciətimizə müvafiq olaraq Çinin bu sahədə ixtisaslaşmış həkimləri və ekspertlərindən ibarət tibbi heyət ölkəmizdə pandemiya ilə mübarizəyə və bizim həkimlərlə təcrübə mübadiləsinə cəlb ediləcək.

Sizin həkimlərin əməyinə və fədakarlığına daim yüksək qiymət verməyinizin ifadəsi olaraq imzaladığınız sərəncama əsasən koronavirusla əlaqəli əmək şəraitinə görə dövlət tibb müəssisələrində çalışan işçilərin sosial rifahının yaxşılaşdırılması məqsədilə onların əməkhaqlarına aylıq vəzifə maaşının 3-5 mislinədək müddətli əlavə müəyyən edilib. Mart-iyun ayları ərzində bu tədbirlərdə iştirak edən işçilərin əməkhaqları dövlət büdcəsində bu məqsədlər üçün nəzərdə tutulmuş vəsait hesabına təmin olunub. Ümumiyyətlə, koronavirus pandemiyasının qarşısının alınması və onunla mübarizə üçün səhiyyə sahəsinə 250 milyon manatdan artıq vəsait ayrılıb.

> Biz hər gün, hər dəqiqə ölkəmizin maraqlarını qorumalıyıq.

Möhtərəm cənab Prezident, Operativ Qərargahın bütün üzvləri adından Sizin qarşımızda qoyduğunuz tapşırığın mühümlüyünü və məsuliyyətini tam dərk etdiyimizi bildiririk, onların icrası istiqamətində bundan sonra da çalışacağımıza söz veririk.

Koronavirus məsələsi ilə əlaqədar bunu da deməyə bilmərəm. Dünya ölkələrinin - 130 ölkənin, bir ölkəni çıxmaq şərti ilə, Sizin təşəbbüsünüzü dəstəkləməsi Sizin humanizminizi, liderliyinizi, ölkəmizə və Sizin şəxsiyyətinizə olan böyük hörməti bir daha nümayiş etdirdi. Bu, birinci dəfə deyil ki, dünya rəhbərləri, dünya ölkələri Sizi dəstəkləyir.

Diqqətinizə görə təşəkkür edirəm.

**Prezident İlham ƏLİYEV:** Sağ olun. İndi COVID-lə bağlı bizim qarşımızda duran əsas məsələlərdən biri həkimlərin sayı ilə bağlıdır. Çünki mən bir dəfə bu haqda dedim. Biz indi yeni klinikalar açırıq, modul tipli xəstəxanalar açılır, o cümlədən indi Fövqəladə Hallar Nazirliyinin xətti ilə 2100-dən çox çarpayılıq iki xəstəxananın açılışı nəzərdə tutulur, biri artıq açılıbdır. Ancaq həkimlərin sayı bizdə təbii ki, arta bilməz və belə olan halda xarici həkimlərə ehtiyacımız olacaq. Dediyiniz kimi, artıq üç ölkədən - Türkiyədən, Rusiyadan və Kubadan həkimlər gəlib. Əlbəttə ki, onlar üçün burada şərait yaradılıb. Bundan sonra bu istiqamətdə hansı addımlar nəzərdə tutulur və bu həkimlərin bir hissəsi gəlib gedib, onların yerinə başqa həkimlər gəlibmi, yoxsa yox? Bu haqda da qısa bir məlumat verin.

Baş Nazir **Əli ƏSƏDOV:** Cənab Prezident, Siz qeyd etdiyiniz kimi, Azərbaycanda indiyə qədər 10 modul tipli xəstəxana operativ şəkildə, çox qısa müddətdə təşkil olunub - 5-i Bakıda, digərləri regionlarda. Əlavə olaraq 6 modul xəstəxana da sifariş olunub, biri Naxçıvan Muxtar Respublikası, digərləri Bakı və bölgələr üçün. Bununla yanaşı, Siz və Mehriban xanım Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin 800 yerlik xəstəxanasının açılışında iştirak etdiniz. Ondan savayı, 1200-dən artıq yerlik orada əlavə...

**Prezident İlham ƏLİYEV:** Bunu mən bilirəm. Mənim sualım həkimlərlə bağlıdır.

Baş Nazir **Əli ƏSƏDOV:** 200-ə qədər həkim bu gün xarici ölkələrdən burada iştirak edirlər. Ən çox kontrakt Kubadan gələn şəxslərlə üçaylıq müddətinə imzalanıb. Türkiyədən gələn heyət - 47 nəfər "Yeni klinika"da çalışır. Onlar iki ay müddətinə çalışacaqlar. Bundan əlavə, Rusiyanın 20-dən artıq həkim və mütəxəssisi Bakıda və Sumqayıtda çalışırlar. Cənab Prezident, Çin hökuməti ilə aparılan danışıqlar üzrə kontrakt səviyyəsində müəyyənləşdiririk ki, Sizin tapşırığınızla gəlmiş qruplar gedəndən sonra Çindən həkimlər gəlib onları əvəz edəcək, bu, ardıcıllıqla olacaq. O cümlədən cənab Prezident, öz həkimlərimiz - xaricdə təhsil alan tələbələrimiz, Tibb Universitetində olan həkimlər ilk günlərdən Sizin tapşırığınızla və Heydər Əliyev Fondunun təşəbbüsü ilə bu proseslərə cəlb olunub. Bu proseslər davam etdiriləcək.

**Prezident İlham ƏLİYEV:** Aydındır, sağ olun.

İndi digər önəmli məsələ bu il və keçən il bizə böyük problem yaradan quraqlıqdır. Bilirsiniz ki, keçən ilin quraqlığı bizə böyük ziyan vurdu. Bu il də baxmayaraq ki, kənd təsərrüfatı 6 ayda 2,2 faiz artıb, amma daha çox arta bilərdi. Çünki bu quraqlıq nəticəsində suyun az olması səbəbindən biz istədiyimiz qədər torpaqlardan istifadə edə bilməmişik. Mən bir müddət bundan öncə bütün bu işləri nəzərə alaraq və bu sahədə vahid idarəetmə mexanizmi qurmaq üçün xüsusi komissiya yaratdım. Baş Nazirin müavini Şahin Mustafayev komissiyanın rəhbəridir. Komissiyada aidiyyəti qurumların rəhbərləri təmsil olunur və artıq mənə verilən ilkin məlumata görə, konkret tədbirlər planının hazırlanması son mərhələdədir. Bu planın bir hissəsi artıq mənə məruzə edilibdir. Yaxın zamanlarda biz çox geniş tədbirlər planını təsdiqləyib icra etməyə başlayacağıq. İstisna edilmir ki, gələcək illərdə də buna oxşar iqlim mənzərəsi davam etsin. Çünki dünyada iqlim dəyişikliyi bildiyiniz kimi, ciddi problemdir. Bəzi ekspertlərin rəyinə görə, Azərbaycanda əgər bu gün lazımi addımlar atılmasa, 2030-cu ilə qədər bəzi ərazilərdə səhralaşma prosesi gedə bilər. Buna qətiyyən yol verməк olmaz. Ona görə vahid idarəetmə mexanizminin yaradılması ilk məsələ idi. Çünki bu günə qədər bu, yox idi. Bizdə, əgər belə demək mümkündürsə, su məsələləri ilə məşğul olan bir neçə dövlət qurumu var və onların arasında koordinasiya lazımi səviyyədə deyil. Buna görə bəzi təsərrüfat obyektləri, infrastruktur obyektləri nəzarətsiz qalıb. Mənə, məsələn, Şahin Mustafayev məlumat verir ki, bəzi su anbarlarından çıxan boru xətlərində, yaxud da su anbarlarına digər su anbarlarından daxil olan boru xətləri boyunca qanunsuz qoşmalar var. Yəni bu indi aşkar olunubdur. Çünki heç kimin vecinə deyildi, heç kimin məsuliyyətinə aid deyildi. Ona görə bu qanunsuz qoşmalar, əlbəttə, suyun ədalətli bölgüsünə də ziyan vurur. Aydın məsələdir ki, təsərrüfat sahibləri bu sudan istifadə edir. Amma o birilərinə çatmır, bir də ki, israfçılığa yol verilir. Bəzi əkin sahələrində o qədər su verilir ki, buna ehtiyac yoxdur. Ona görə burada vahid idarəetmə mexanizmi işlənməlidir, mənə təkliflər veriləcək. Eyni zamanda koordinasiya məsələləri, itkilərin azaldılması, sudan səmərəli şəkildə istifadə edilməsi - əgər biz buna nail olarıqsa, hətta mövcud su ehtiyatlarımızla məsələni həll edə bilərik.

Şahin Mustafayev mənə məruzə edib ki, bu günə qədər heç vaxt Azərbaycanda

> Koronavirus pandemiyasının qarşısının alınması və onunla mübarizə üçün səhiyyə sahəsinə 250 milyon manatdan artıq vəsait ayrılıb.

su balansı tutulmamışdır. Bu da dözülməz haldır. Biz əgər bu su balansını müəyyən etməsək, onda bu sudan necə istifadə edəcəyik? Biz necə ki, hər il enerji balansımızı təsdiq edirik, eyni qaydada burada da vəziyyət ona oxşar olmalıdır. Biz son illər ərzində ölkəmizin enerji təhlükəsizliyini təmin etdik və bu gün Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, neft, qaz, deməli, yanacaq və elektrik enerjisini ixrac edir. Yəni bu, son illər ərzində əldə edilmiş nailiyyətlərdir. Biz əvvəlki illərdə ancaq neft yanacağı ixrac edirdik. Neft, qaz ixrac etmirdik, elektrik enerjisini ixrac etmirdik.

2006-cı ildə Bakı-Tbilisi-Ceyhan və ondan bir qədər əvvəl Bakı-Supsa, Bakı-Novorossiysk kəmərlərinin işə düşməsi nəticəsində nefti ixrac etməyə başladıq, ondan sonra qazı, daha sonra da elektrik enerjisini. Ona görə bu sahədə istədiyimizə tam nail olduq və bu yaxınlarda Mingəçevir İstilik Elektrik Stansiyasının yenidənqurmadan sonra açılışı bizim gücümüzü daha da artırdı. 2400 meqavat gücündə stansiyadır və biz son illər ərzində 800 meqavat həcmində itirilmiş gücləri bərpa etdik və bu proses davam etdiriləcək.

Nəqliyyat təhlükəsizliyi təmin edilib. Azərbaycan Avrasiyanın önəmli nəqliyyat-logistika mərkəzlərinin birinə çevrilibdir və bizim fəal iştirakımızla "Şərq-Qərb", "Şimal-Cənub" nəqliyyat dəhlizləri fəaliyyətdədir və deyə bilərəm ki, "Şərq-Qərb" nəqliyyat dəhlizi üzərində artıq iki qol mövcuddur. Biri Çin-Qazaxıstan-Azərbaycan-Gürcüstan-Türkiyə-Avropa, digəri isə Pakistan-Əfqanıstan-Türkmənistan-Azərbaycan-Gürcüstan-Türkiyə-Avropa. Hər ikisi Azərbaycan üzərindən keçir və təbii ki, bizim imkanlarımız daha da genişlənir. Əgər biz "Şimal-Cənub" nəqliyyat dəhlizini nəzərə alsaq, bu da Şimali Avropa-Rusiya-Azərbaycan-İran-Hindistan ölkələrini əhatə edir. Deməli, təsəvvür etmək çətin deyil ki, bu sahədə də nəqliyyat təhlükəsizliyimizi təmin etmişik.

Ərzaq təhlükəsizliyinin təmin edilməsində önəmli addımlar atılır və bu məsələ ilə bağlı göstəriş verilib. Ərzaq təhlükəsizliyi o demək deyil ki, biz bütün ərzaq məhsullarını, yaxud da kənd təsərrüfatı məhsullarını Azərbaycanda tam həcmdə istehsal etməliyik. Biz gərək ərzaq təhlükəsizliyinə, necə deyərlər, düşünülmüş şəkildə yanaşaq. Bu ərzaq təhlükəsizliyinin böyük hissəsi, təbii ki, Azərbaycanda formalaşmalıdır və əgər indi buğda istehsalını istisna etsək, bütün digər əsas ərzaq qida məhsulları ilə özümüzü böyük dərəcədə təmin edirik. Ancaq eyni zamanda bu, bizim ixrac imkanlarımıza da maneçilik törətməməlidir. İxrac bazarlarına çıxara biləcək məhsullara da diqqət yetirilməlidir. Ona görə həm Kənd Təsərrüfatı Nazirliyi və eyni zamanda İqtisadiyyat Nazirliyi, digər qurumlar bu məsələ ilə məşğuldurlar. Yəni demək istəyirəm ki, biz bu üç istiqamət üzrə önəmli nailiyyətlərə çatdıq. Bizdə su təhlükəsizliyi məsələsi həll olunmayıb. Sirr deyil ki, su ehtiyatlarının böyük hissəsi sərhədlərimizin kənarında formalaşır. Ona görə burada qonşu ölkələrlə yeni əməkdaşlıq formatı, itkilərin azaldılması və aidiyyəti qurumların birgə işləməsi təşkil edilməlidir.

Ona görə indi Şahin Mustafayev görülmüş işlərlə bağlı məlumat versin. İşlər nə yerdədir və əlavə hansı addımların görülməsi nəzərdə tutulur.

Baş Nazirin müavini **Şahin MUSTAFAYEV** çıxış edərək dedi:

- Təşəkkür edirəm cənab Prezident.

Möhtərəm cənab Prezident, su ehtiyatlarının az olması, iqlim dəyişməsi və orta temperaturun yüksəlməsi, qonşu ölkələrdən daxil olan yerüstü su ehtiyatlarının, çaylarda sululuğun və yağıntıların əhəmiyyətli dərəcədə azalması, digər tərəfdən ölkə iqtisadiyyatının, o cümlədən kənd təsərrüfatının inkişafı, əkin sahələrinin, suvarma və içməli su təchizatı üzrə şəbəkələrin genişləndirilməsi nəticəsində suya tələbatın artması son illərdə ölkədə su çatışmazlığını şərtləndirmişdir. Bu baxımdan xüsusilə cari ildə ölkənin su ehtiyatları sahəsində gərgin vəziyyət yaranmışdır. Hazırda əsas su anbarlarında 20,5 milyard kubmetr tutuma qarşı əvvəlki illərdən kəskin aşağı səviyyədə - cəmi 11,3 milyard kubmetr su mövcuddur ki, bunun 8,6 milyard kubmetri ölü həcmdir. Sizin rəhbərliyinizlə əvvəlki illərdə böyük həcmdə işlərin həyata keçirilməsinə, ehtiyat tədbirlərinin görülməsinə, məsələn, Taxtakörpü, Şəmkirçay, Naxçıvanda Heydər Əliyev (Vayxır) su anbarlarının, Oğuz-Qəbələ-Bakı su kəmərinin və sair layihələrin inşa edilməsinə baxmayaraq, hazırda kəskin su çatışmazlığı müşahidə edilir.

Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi, su təsərrüfatının idarə olunmasının təkmilləşdirilməsi və bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə müvafiq sərəncamınızla komissiya yaradılmışdır. Komissiyaya su təsərrüfatı üzrə idarəetmədə sahələrarası koordinasiyanın zəif olması, sudan istifadədə itkilərin yüksək olması, sudan qənaətlə istifadə edilməməsi, suvarmada suya qənaət edən müasir texnologiyalardan istifadənin aşağı səviyyədə olması, nəzarətdənkənar qoşulmalar, uçot və nəzarət sisteminin zəif olması kimi problemlərin həlli istiqamətində tədbirlərin görülməsi tapşırılmışdır.

Möhtərəm cənab Prezident, komissiya intensiv fəaliyyətə başlamış, bütün aidiyyəti qurumların koordinasiyası təmin edilmiş, su ehtiyatları barədə operativ məlumat sistemi qurulmuş, alınan məlumatların gündəlik təhlili və nəzarət təmin olunmuşdur. Vəziyyətin ciddiliyi nəzərə alınaraq, xüsusi əhəmiyyətə malik Mingəçevir və Ceyranbatan su anbarları üzrə suvarma, içməli su təchizatı və energetika məqsədləri üçün sudan istifadə rejimi təsdiq olunmuşdur və komissiyada mütəmadi baxılır. Məhdud su ehtiyatlarının ədalətli, optimal və proporsional bölgüsü prinsipi əsasında 570 mindən artıq əkin sahəsi üzrə suvarma qrafikləri tərtib olunmuşdur. Yaradılmış proqram təminatı sayəsində qrafiklər "Elektron kənd təsərrüfatı" informasiya sisteminə inteqrasiya olunur. Suvarmaya dair problemlərin operativ qaydada həlli məqsədilə Kənd Təsərrüfatı Nazirliyi ilə "Azmelsutəsərrüfat" ASC-nin fəaliyyəti əlaqələndirilmiş, "Çağrı mərkəzi" (8770) yaradılmışdır. Çoxsaylı müraciətlərə fərdi qaydada baxılması üçün iş aparılır.

Operativ tədbirlərlə yanaşı, ölkə üzrə ilk dəfə su təsərrüfatı balansı tərtib edilmişdir. Su ehtiyatlarının formalaşması və istifadəsi üzrə ümumi dəyərləndirmələrin aparılmasına imkan verən su təsərrüfatı balansı əvvəlki üç ilin faktiki, cari ilin gözlənilən və növbəti ilin proqnoz göstəricilərini əks etdirir.

Su təsərrüfatı balansının formalaşması üçün su təsərrüfatı subyektlərinin məlumatlarının elektronlaşdırılması və hesabatın alınması ilə bağlı "Elektron su təsərrüfatı" informasiya sistemi yaradılmışdır. Hazırda su təsərrüfatı balansı sistemə ayrıca modul şəklində daxil edilmişdir. Eyni zamanda su obyektlərində müasir ölçmə cihazlarının quraşdırılması həyata keçirilir. Növbəti mərhələlərdə aidiyyəti qurumların informasiya sistemlərinin inteqrasiyası və su obyektləri üzrə məlumatların real vaxt rejimində sistemə ötürülməsi təmin ediləcəkdir. Ölkədə su ehtiyatlarının artırılması və bu istiqamətdə dağ çaylarının sularının yığılması üçün relyefə uyğun yaradılması nəzərdə tutulan sututarlar üzrə prioritet layihələrə, habelə içməli su təchizatı üçün yeni mənbələrin müəyyən edilməsinə dair təkliflər hazırlanır.

Bununla yanaşı, itkilərin azaldılması həlli vacib istiqamətlərdəndir. Suvarma sahəsində itkilərin əsas səbəblərindən biri suvarma kanallarının əksəriyyətinin torpaq məcralardan olmasıdır. İtkilərin azaldılması və su ehtiyatlarının səmərəli istifadəsi məqsədilə də prioritet layihələrlə bağlı təkliflər hazırlanır.

Möhtərəm cənab Prezident, tapşırıqlarınıza uyğun olaraq, su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı kompleks tədbirlərin həyata keçirilməsi üzrə təkliflər yaxın müddətdə Sizə təqdim olunacaqdır.

Diqqətinizə görə sağ olun.

**Prezident İlham ƏLİYEV:** Sağ olun. İndi təqdim olunandan sonra, əlbəttə, mən bir daha bu məsələlərə baxacağam. Hesab edirəm ki, yaxın zamanlarda biz çox geniş və müfəssəl proqram təsdiq

> İndi neftin qiymətindən asılı olmayaraq təbii ki, büdcə tam icra edilməlidir. Hesab edirəm ki, buna bizim imkanımız çatacaq.

edəcəyik. Ümid edirəm ki, gələn ilin əkin mövsümünə qədər işlərin bir hissəsi görülə bilər. Burada əsas qısamüddətli tədbirlər görülməlidir. Bildiyiniz kimi, mənə yerlərdən indi çoxlu müraciətlər daxil olur. Mən də bu müraciətləri həm Şahin Mustafayevə, həm də Prezident Administrasiyasına göndərirəm və həlli bu gün operativ qaydada mümkün olan məsələlər, su təchizatı ilə bağlı məsələlər öz həllini tapır. Amma elə məsələlər var ki, onlar daha çox vaxt, daha böyük həcmdə vəsait tələb edir. Ona görə biz bu proqramı üç yerə bölməliyik: operativ həlli mümkün olan məsələlər, ortamüddətli və strateji uzunmüddətli məsələlər. Hesab edirəm ki, biz bu sahədə də çox ciddi dönüş yaradacağıq. Artıq bunun ilkin təzahürləri görünməkdədir.

İndi sözü Maliyyə nazirinə verirəm. Büdcənin icrası ilə bağlı məlumat verin. Ondan sonra gələn ilin büdcəsi ilə əlaqədar hansı işlər görülüb. Mən sizə göstəriş vermişdim ki, gələn ilin büdcəsində də sosial sahəyə xüsusi diqqət göstərilməlidir. Biz hər il buna böyük vəsait ayırırıq və ildən-ilə sosial ödəmələr artır. Ancaq indi pandemiya nəzərə alınmalıdır. Pandemiya nə vaxt başa çatacaq, bunu heç kim deyə bilməz. Ona görə həm pandemiyadan zərərçəkmiş sahələrə maliyyə dəstəyi, eyni zamanda insanların sosial müdafiəsi, işini itirənlərin sosial müdafiəsi, bütün bu məsələlər öz həllini təbii ki, tapmalıdır. Mən göstəriş vermişdim ki, xarici dövlət borcu ilə əlaqədar biz öz mühafizəkar siyasətimizi bundan sonra da aparacağıq. Ancaq biz strateji əhəmiyyət daşıyan sahələrə xarici kreditləri cəlb edə bilərik. Ona görə bu bizə imkan verəcək ki, xarici dövlət borcu lazımi səviyyədə saxlanılsın. Buyurun, məruzə edin.

Maliyyə naziri **Samir ŞƏRİFOV** çıxış edərək dedi:

- Möhtərəm cənab Prezident, hörmətli müşavirə iştirakçıları.

Operativ məlumatlara əsasən, cari ilin birinci altı ayında dövlət büdcəsinin icrası gözlənildiyindən yaxşı olub. Koronavirus pandemiyası ilə bağlı üzləşdiyimiz digər xarici şokların, - mən, ilk növbədə, istehlak tələbinin azalması və onun nəticəsində neft və neft məhsullarının qiymətlərinin enməsini nəzərdə tuturam, - cari ildə ölkə iqtisadiyyatı üçün törətdiyi mənfi fəsadlara rəğmən büdcə gəlirləri üzrə proqnozlar artıqlaması ilə icra olunub. Dövlət büdcəsinin gəlirləri proqnoza qarşı 2,9 faiz və ya 338 milyon manat çox icra olunmaqla 12 milyard 23 milyon manat təşkil edib. Daxilolmalar üzrə proqnoz göstəricilərini İqtisadiyyat Nazirliyinin Dövlət Vergi Xidməti 327 milyon manat və yaxud 8,9 faiz, Dövlət Gömrük Komitəsi 98 milyon manat və ya 5,1 faiz artıqlaması ilə icra edib. Dövlət Neft Fondunun dövlət büdcəsinə transferti üzrə daxilolmalar 100 faiz, digər daxilolmalar üzrə proqnoz isə 15,2 milyon manat çox icra olunub. Büdcə təşkilatlarının büdcədənkənar daxilolmaları üzrə proqnozun 102 milyon manat az, dövlət büdcəsi xərclərinin isə 105 milyon manat artıq və ya 100,9 faiz icra olunmasına baxmayaraq, 2020-ci il 1 iyul tarixinə dövlət büdcəsində 292 milyon manat məbləğində və ya proqnozdan 233 milyon manat çox profisit yaranıb. Hesabat dövründə dövlət büdcəsindən maliyyələşdirilməsi nəzərdə tutulmuş bütün dövlət vəzifələrinin, sosial proqram və layihələrin icrası tam həcmdə təmin edilib. Altı ay ərzində maliyyələşdirilmiş 11 milyard 734,1 milyon manat büdcə xərclərinin tərkibində sosialyönümlü xərclərin xüsusi çəkisi 42,5 faiz olub və yaxud 4 milyard 984 milyon manat təşkil edib. 2019-cu ilin eyni dövrü ilə müqayisədə cari ilin altı ayında səhiyyə xərclərinə 75,8 faiz və yaxud 287 milyon manat, təhsil xərclərinə 53,5 faiz və yaxud 517 milyon manat, sosial müdafiə və sosial təminat xərclərinə 13,2 faiz və yaxud 196 milyon manat, kənd təsərrüfatı və ətraf mühitin mühafizəsi xərclərinə 85,3 faiz və yaxud 260 milyon manat çox vəsait yönəldilib.

Dövlət investisiya proqramı çərçivəsində investisiya layihələrinin həyata keçirilməsi üçün ayrılmış vəsaitin 44,3 faizinin və yaxud 1 milyard 835 milyon manatının maliyyələşdirilməsi təmin edilib. Dövlət borcuna xidmətlə bağlı xərclər isə 881 milyon manat təşkil edib.

Pandemiya ilə mübarizə tədbirləri, onun ölkə iqtisadiyyatında yaratdığı mənfi təsirlərin azaldılması üçün Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə dövlət büdcəsindən ayrılmış 1 milyard 409 milyon manat vəsaitdən 6 ay ərzində 752 milyon manat vəsaitin maliyyələşdirilməsi təmin olunub. Bu mənbədən səhiyyə sahəsinə ayrılmış 250 milyon manat vəsaitdən 149 milyon manat, sosial-iqtisadi dəstək tədbirləri üzrə ayrılmış 570 milyon manat vəsaitdən 281 milyon manat, sosial təminat dəstək tədbirləri üzrə ayrılmış 309 milyon manat vəsaitdən 244 milyon manat, dövlət şirkətlərinə maliyyə dəstəyinin göstərilməsi ilə bağlı ayrılmış 280 milyon vəsaitdən isə 118 milyon manat artıq istifadə edilib.

Möhtərəm cənab Prezident, pandemiyanın hansı müddətə qədər davam edəcəyi ilə bağlı qeyri-müəyyənliyin, dünya iqtisadiyyatında resessiyanın nə vaxt başa çataraq iqtisadi artımla əvəz olunacağını tam təxmin etmək hələ də qeyri-mümkündür. Beynəlxalq Valyuta Fondu dünya iqtisadiyyatının 3 faiz azalmasına dair cari ilin aprel ayındakı proqnozunu iyun ayında 4,9 faizədək pisləşdirib. Bununla yanaşı, fond 2021-ci ildə dünya iqtisadiyyatının sürətli bərpa olunması proqnozunu yeniləyərək daha mülayim addımla əvəzləyib.

Cari ilin altı ayında xam neftin orta aylıq qiymətinin 38 ABŞ dolları təşkil etməsi, OPEC+ sazişi çərçivəsində satış üzrə neft xərclərinin azalması və koronavirus pandemiyası ilə mübarizə çərçivəsində tətbiq olunması qaçılmaz olan karantin və digər məhdudlaşdırıcı tədbirlərin iqtisadiyyata mənfi təsirləri ilin sonuna həm neft gəlirlərinin, həm də qeyri-neft sektoruna daxilolmaların azalmasını şərtləndirir.

Bu ilin altı ayında vergi, gömrük və məcburi dövlət sosial sığorta ödənişləri üzrə daxilolmalar proqnozlarının artırılması ilə yerinə yetirilməsi nəticəsində formalaşan ehtiyat ilin sonuna kimi xərclər və gəlirlər arasında gözlənilən natarazlığın aradan qaldırılması üçün kifayət etməyəcək. Qeyd olunmalıdır ki, dövlət büdcəsində mövcud ehtiyatlar da Sizin müvafiq sərəncamınıza uyğun olaraq pandemiya ilə mübarizə tədbirləri və iqtisadiyyata mənfi təzyiqin azaldılması tədbirlərinə xərclərin optimallaşdırılması yolu ilə yönəldilib. Bununla yanaşı, pandemiyanın yaratdığı keyfiyyətcə yeni sosial və iqtisadi davranış mühitinin xüsusiyyətləri, əhalinin həssas sosial qruplarına, dövlət şirkətlərinə, sahibkarlıq subyektlərinə, kiçik və orta biznesə dövlət dəstəyinin göstərilməsinin davam etdirilməsi, səhiyyə sahəsi və digər dövlət ehtiyacları dövlət büdcəsinin icrası ilə bağlı yeni çağırışları formalaşdırır, bununla bağlı əlavə maliyyə təminatının yaradılmasını gündəmə gətirir.

Maliyyə naziri cari ilin təsdiq olunmuş dövlət və icmal büdcələrinin xərclərinin prioritetliyinin və ünvanlılığının optimallaşdırılması, yaranmış vəziyyətə uyğun yeni ehtiyacların maliyyələşdirilməsi, dövlət büdcəsinin gəlir və xərcləri arasında tarazlığın təmin edilməsi məqsədilə 2020-ci ilin dövlət büdcəsinə yenidən baxılaraq düzəlişlər olunmasının məqsədəuyğunluğunu qeyd etdi.

**Prezident İlham ƏLİYEV:** İndi neftin qiymətindən asılı olmayaraq təbii ki, büdcə tam icra edilməlidir. Hesab edirəm ki, buna bizim imkanımız çatacaq. Dürüstləşməyə gəldikdə, prinsipcə, mən buna etiraz etmirəm. Əvvəlki illərdə də biz dürüstləşmə aparmışdıq, ancaq bu gərək əsaslandırılsın. Ona görə hökumət üzvləri ilə birlikdə Baş Nazirin rəhbərliyi ilə bu məsələləri təhlil edin və mənə konkret təkliflər verin. Biz hansı həcmdə büdcə xərclərimizi artırmalıyıq və bundan hansı məqsədlərə istifadə etməliyik.

# verilən bütün tapşırıqları şərəflə yerinə yetirir

## İlham ƏLİYEV: "Son günlər ərzində baş vermiş toqquşmalar və qanlı döyüşlər Azərbaycan dövlətinin, ordusunun gücünü, xalqla iqtidar arasındakı birliyi bir daha göstərdi"

Onu da bildirməliyəm ki, büdcə gəlirlərinin artırılması ilin ilk aylarında baş vermişdir. Çünki mən bunu demişəm, bir daha demək istəyirəm ki, biz ili çox yaxşı, böyük uğurlarla, böyük planlarla başlamışdıq. Həm vergi, həm gömrük sahəsində proqnozdan əlavə artım var idi. Amma bu ilk aylarda, haradasa aprel-may aylarından başlayaraq artım, belə demək mümkündürsə, yavaşladı. Yenə də biz profisitdəyik. Ancaq siz qeyd etdiyiniz kimi, ilin sonuna qədər bu profisit bizə çatmaya bilər. Əlavə xərclər oldu. Neftin qiyməti bizdə 55 dollar nəzərdə tutulmuşdu. İndi hazırda, altı ayda bu 40 dollardan aşağıdır. Ona görə bütün bu məsələlər təbii ki, nəzərə alınmalıdır. Əminəm ki, bu ilin büdcəsi ilə bağlı hər hansı bir problem olmayacaq.

O ki qaldı, gələn ilin büdcəsi, ilk növbədə, neftin qiyməti gərək düzgün müəyyən edilsin. Hələ ki, vaxt var. Biz neft bazarlarında vəziyyətə baxıb, bunu müəyyən edəcəyik. Elə etməliyik ki, əsas sosial məsələlərdən başqa digər strateji infrastruktur layihələrinin icrası təmin edilsin. Bir daha demək istəyirəm ki, onların arasında, ilk növbədə, su təchizatı ön plandadır - həm içməli su, eyni zamanda suvarma suyunun təmin edilməsi. Ona görə layihələr indi hazırlanır. Onların texniki iqtisadi əsaslandırılması, xərclər smetası hazırlanacaq. Bu məsələ də mütləq nəzərə alınmalıdır.

İndi isə söz verilir Mərkəzi Bankın sədri Elman Rüstəmova. Məlumat verin, bank sektorunda vəziyyət necədir? Bağlanmış banklarla bağlı vəziyyət və əmanətçilərin kompensasiyası ilə bağlı hansı işlər görülüb? Məndə olan məlumata görə, 10 mindən çox əmanətçiyə 200 milyon manatdan çox vəsait verilməli idi. Verilib, verilməyib? Bu məsələ nə dərəcədə öz həllini tapır ki, əmanətçilər onlara çatacaq bütün vəsaitlə tamamilə təmin olunsunlar?

Mərkəzi Bankın sədri **Elman RÜSTƏMOV** dedi:

- Möhtərəm cənab Prezident.

Cari ilin mart ayından başlayaraq iqtisadiyyatımız presedenti olmayan xarici şoklarla üzləşmişdir. Lakin son illərdə Sizin rəhbərliyinizlə ölkədə makroiqtisadi dayanıqlılığın yüksəldilməsi, həyata keçirilən islahatlar və pandemiyadan irəli gələn çağırışlara vaxtında və tam adekvat cavab verilməsi situasiyanı effektli idarəetməyə imkan yaratmışdır. Makroiqtisadi situasiya, maliyyə bazarları da bu çağırışlara məruz qalmışdır. Biz bilirik ki, neftin qiymətində, qeyd olunduğu kimi, əhəmiyyətli düşmə baş verdi. Lakin "OPEC+" razılaşmasından sonra neft bazarlarında əhvali-ruhiyyə bir qədər yaxşılaşdı, neftin qiyməti yüksəlməyə başladı. Altı ayın ilkin yekunlarına görə, ölkənin ticarət balansı profisitlidir.

Birinci rübdə strateji ehtiyatlarımız bir qədər azalsa da, ikinci rübdən bərpa prosesi sürətləndi. Hazırda bizim strateji valyuta ehtiyatlarımız, demək olar ki, ilin əvvəlinə olan səviyyədədir. Xarici şok şəraitində bizim valyuta bazarımız əhəmiyyətli spekulyativ hücuma məruz qaldı. Lakin vaxtında görülən tədbirlər nəticəsində valyuta bazarı tarazlaşmışdır. Bu gün bunun hər iki seqmenti - həm nağd, həm də qeyri-nağd hissəsi tam sabit və tarazlı səviyyədə fəaliyyət göstərir. İlin ilk 5 ayında 2,9 faizlik inflyasiya səviyyəsi var. Aparılan sorğular göstərir ki, həm əhalinin, həm də biznesin inflyasiya göstəriciləri sabitləşib, aşağı düşüb. 2020-ci ilin sonunda bizim inflyasiya proqnozumuz 3-3,5 faiz səviyyəsindədir ki, bu da bizim və hökumətin proqnozlarından aşağıdır. Pul-kredit siyasətinin, faiz siyasətinin yumşaldılması ardıcıl olaraq davam etdirilir. İlin əvvəlindən faiz dərəcəsi 7,5 faizdən 7 faizə endirilib.

İqtisadiyyat və bank sistemində əhəmiyyətli likvidlik var - təxminən 8 milyard manata qədər. Lakin bəzi hallarda iqtisadiyyatda müəyyən likvidlik problemləri yaranırsa, Mərkəzi Bank buna operativ reaksiya verir və likvidliyi təmin edilir. İlin əvvəlindən maliyyə sektorunda başlayan pozitiv dinamika saxlanılıb. Bank sektorunda da yaxşı start götürmüşdük. Biznes kreditləri 1,8 faiz, ipoteka kreditləri 3,2 faiz artmışdır. İstehlak kreditləri isə 4,8 faiz azalmışdır.

Bütövlükdə, banklarda situasiya bir qədər pisləşib, biz vəziyyəti nəzarətdə saxlayırıq. Mərkəzi Bank situasiyanı tam nəzarətdə saxlayır. Lakin bankların 23 faiz səviyyəsində, yəni müvafiq normadan iki dəfədən artıq kapital buferi bu gün gözlənilən itkiləri qarşılamağa imkan verir.

İkinci rübdə ölkədə maliyyə sağlamlığının gücləndirilməsi istiqamətində radikal addımlar atdıq. Dörd bankın, bir tibbi sığorta şirkətinin lisenziyaları geri çağırıldı. Bütövlükdə, bu addımlar operativ olaraq bir ayın içində - aprelin sonunda və may ayının ortalarında atılmışdı. Bütün bu problemləri operativ həll etdik. İyunun 1-dən artıq əmanətçilərin əmanətləri qaytarılmağa başlandı. Hazırda hər dörd bank üzrə əmanətlər "Kapital Bank" və Beynəlxalq Bank vasitəsilə qaytarılır. Bugünkü tarixə 13 min 500 nəfər əmanətçiyə 245 milyon manatdan çox vəsait qaytarılmışdır. Bu məsələ çox ciddi diqqətdədir, nəzarətdədir. Ortaya çıxan məsələləri, problemləri hökumətin də aktiv dəstəyi, köməyi ilə operativ həll edirik.

Sığorta sistemində də ilin əvvəlindən artım var, yığımlar 13,5 faiz artırılmışdır. Kapital bazarlarında canlanmanı təşviq edirik. Bu günlərdə "SOCAR Polymer Invesment" Məhdud Məsuliyyətli Cəmiyyəti daxili bazarın istiqraz emissiyası vasitəsilə 200 milyon dollar vəsait cəlb etmişdir, Azərbaycan banklarını öz ehtiyaclarına uyğun təmin etmişdir. Bu vəziyyətdə təbii ki, təmassız ödəniş sistemlərinin, elektron ödəniş sistemlərinin üzərinə olduqca böyük iş düşmüşdür. İlkin qiymətləndirməyə görə, ötən ilin müvafiq dövrü ilə müqayisədə ödəniş kartları ilə aparılan ölkədaxili nağdsız əməliyyata 37 faiz, təmassız kartların sayı 2 dəfə, təmassız ödənişlər 5 dəfə, elektron ticarət 53 faiz, bankçılıq 2,2 dəfə, internet bankçılıq isə 84 faiz artmışdır.

Pandemiyanın nəticələrini aradan qaldırmağa imkan verən antiböhran tədbirlərinə Mərkəzi Bank da qoşulmuşdur. Hazırda bizim verdiyimiz requlyativ güzəştlərə uyğun olaraq, banklara 1 milyard manat məbləğində kreditlərin restrukturizasiyası ilə əlaqədar 64 mindən çox müraciət olunmuşdur. Banklar tərəfindən bu müraciətlərə operativ baxılır. Artıq biznes kreditlər üzrə 58 faiz, ipoteka kreditləri üzrə 77 faiz, əhalinin istehlak kreditləri üzrə isə 84 faiz müraciətlər icra edilib, restrukturizasiya olunub. Əhaliyə, biznesə möhlətlər verilib və bu, onlara bir qədər yüngüllük gətirir. Çünki onlar pandemiya dövründə öz gəlirlərini itiriblər.

> Kənd təsərrüfatı 6 ayda 2,2 faiz artıb, amma daha çox arta bilərdi.

Bankların nağdsız ödənişlər üzrə xidmət haqlarını biz 50 faizə qədər aşağı salmışıq.

Cənab Prezident, insanların hərəkət imkanları məhdud olduğuna görə müddəti başa çatan təqaüd kartlarının müddətini onların müraciətlərinə əsasən sentyabrın sonuna qədər uzatmışıq. Lazım gəlsə, situasiyadan asılı olaraq bu tədbiri davam etdirəcəyik.

Sizin göstərişinizlə may-iyun aylarından ölkədə işsiz kimi qeydiyyata alınan 600 min nəfərə operativ qaydada bank hesabı açılması, onlara ödəniş kartlarının verilməsi təmin olunmuşdur. Artıq may-iyun aylarındakı ödənişlər tam şəkildə bank hesabları və bank kartları vasitəsilə təmin edilmişdir. Bankların özünüməşğulluq proqramında aktivliyi davam etdirilir. Aprel ayından başlayaraq 200-ə yaxın, 800 min manatdan çox belə kredit verilmişdir. Proqram qəbul olunubdur, ilin sonuna qədər bu proqram 1000 nəfərdən çox insanı əhatə edəcək. Bizim məqsədimiz təkcə o kreditləri ödəmək deyil. Biz istəyirik onlara iş yerləri, gəlirlər yarada bilən aktiv, dayanıqlı mikrobizneslərin yaradılmasını təmin edək ki, bu insanlar aktivlərdən uzun müddət istifadə etsinlər.

Real sektorun maliyyə imkanlarına çıxışını genişləndirmək üçün Avropa Yenidənqurma və İnkişaf Bankı ilə 200 milyon dollar həcmində çərçivə sazişi bağlanılıb. Bu, Sizin Avropa Yenidənqurma və İnkişaf Bankının rəhbərliyi ilə danışıqlarınızdan sonra baş verib. Birinci tranş 50 milyon dollardan artıq reallaşmasına başlanıb. Bu kreditlər real sektorda olan müəssisələrə yönəldilməyə başlanmışdır.

Cənab Prezident, cari ilin ikinci yarısında qarşımızda duran vəzifələrdən danışarkən qısaca deyim ki, burada əsas məsələ, ən böyük problem siyasətin, makroiqtisadi siyasətin, digər siyasətlərin böyük həcmdə qeyri-müəyyənliklər şəraitində aparılması olmuşdur. Hazırda həm sosial siyasət, həm də büdcə, pul-kredit siyasəti başlıca olaraq pandemiyadan zərər çəkmiş əhalinin, biznesin gəlirlərinin neytrallaşmasına yönəldilib. Artıq Beynəlxalq Valyuta Fondu öz bədbin proqnozlarını dərc etmişdir, Azərbaycan üzrə proqnozlar daha optimistikdir. Biz çalışmalıyıq ki, bu optimizmi reallaşdıraq. Bu ili nə qədər yaxşı nəticələrlə başa vursaq, növbəti illərdə bərpa və inkişaf proseslərinə daha tez və daha da sürətlə qayıda bilərik.

Mərkəzi Bankın qarşısında duran başlıca vəzifə yenə də hökumətlə sıx əlaqədə işləyərək ölkədə makroiqtisadi və maliyyə sabitliyini qoruyub saxlamaqdır. Bu istiqamətdə hökumət proqramı üzrə bizim adekvat tədbirlər planımız var. Ona görə hökumət qurumları ilə birlikdə gələn illər və ortamüddətli dövrdə yeni makroiqtisadi çərçivə üzrə işlərimizi tamamlayırıq ki, bu çərçivə hər hansı dövrdə gələn bütün çağırışlara adekvat cavab vermək imkanında, iqtidarında olsun.

Cənab Prezident, Sizi əmin etmək istəyirəm ki, Mərkəzi Bank və onun kollektivi ölkədə makroiqtisadi sabitliyi və maliyyə sabitliyini qorumağa çalışacaq.

Diqqətinizə görə təşəkkür edirəm.

**Prezident İlham ƏLİYEV:** Sağ olun. Hesab edirəm ki, görülmüş tədbirlər və məruzə etdiyiniz məsələlər bank sektorunda sağlamlaşma prosesinə müsbət təsir göstərəcək və artıq göstərir. Əlbəttə ki, bizim bank sektorumuz daha da rəqabətqabiliyyətli olmalıdır və iqtisadi inkişafda öz rolunu saxlamalıdır. Şadam ki, artıq özünüməşğulluq proqramına bizim banklar da qoşuldu. Bu, çox müsbət haldır. Bildiyiniz kimi, biz bu proqrama ancaq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin xətti ilə başlamışdıq. Amma indi həm Dünya Bankı qoşuldu - 100 milyon dollar həcmində, eyni zamanda bizim banklar qoşuldular. Əlbəttə bu, sadəcə olaraq, pulların, yaxud da biznes üçün vasitələrin paylanması deyil, burada çox ciddi biznes planlar olmalıdır. Ona görə banklar bunu kredit şəklində verəndə təbii ki, biznes plana da baxırlar.

Elektron ödənişlə bağlı rəqəmlər də çox sevindiricidir. Hesab edirəm ki, biz yaxın gələcəkdə bu sahədə vəziyyəti daha da yaxşılaşdıracağıq və inkişaf etmiş ölkələrin rəqəmlərinə yaxınlaşmalıyıq. Çünki burada da rezervlər hələ ki kifayət qədər çoxdur.

Biznes kreditləri ilə bağlı sizin verdiyiniz məlumat da çox sevindiricidir. Bilirsiniz ki, mən bu məsələyə həmişə diqqət yetirirəm. Məndə olan məlumata görə, kreditlərin 60 faizdən çox hissəsi artıq biznesə yönəlmiş kreditlərdir. Bu, təbii ki, indiki şəraitdə və müəyyən dərəcədə investisiyaların azaldılması dövründə bizim iqtisadi inkişafımıza, o cümlədən məşğulluğa daha yaxşı şəraitin yaradılmasına gətirib çıxaracaqdır.

İndi isə söz verilir İqtisadiyyat nazirinə. Deməliyəm ki, mənim təxmin etdiyim kimi, beşinci, altıncı aylardan sonra iqtisadiyyat bir qədər tənəzzülə uğradı. Ölkədə dörd ay ərzində iqtisadi artım müşahidə olunurdu. Ancaq may-iyun aylarında tənəzzül olub və ümumi daxili məhsul bu ilin 6 ayında 2,7 faiz azalıbdır. Bunun da səbəbləri bəllidir. Təkcə onu demək kifayətdir ki, bizim turizm sektorumuz 48 faiz, tikinti sektoru isə 14,5 faiz tənəzzülə uğrayıb. Bu sektorların ümumi daxili məhsulda payı son illər ərzində artırdı. Təbii ki, neftin qiymətinin aşağı düşməsi və "OPEC+" çərçivəsində əlavə öhdəliyin üzərimizə düşməsi və hasilatın azalması nəticəsində təbii ki, bizim ümumi daxili məhsulumuz da azalmalı idi. Biz buna hazır idik. Bu, böyük faciə deyil. Bu, müvəqqəti bir məsələdir. Əminəm ki, dünya iqtisadiyyatı pandemiyadan çıxmağa başlayan kimi bizdə də bu sahədə vəziyyət bərpa olunacaq. Yenə də demək istəyirəm və hesab edirəm ki, digər ölkələrlə müqayisədə bizdə vəziyyət məqbul sayıla bilər. Dediyim kimi, quraqlığa baxmayaraq kənd təsərrüfatımız 2,2 faiz artıb. İlin sonuna qədər baxacağıq ki, indi artım nə qədər olacaq. Qeyri-neft sektorunda sənaye istehsalı 11 faizdən çox artıb. Bu da sevindirici haldır və onu göstərir ki, sənayeləşmə siyasətimiz öz bəhrəsini verməkdədir.

> Cari ilin altı ayında səhiyyə xərclərinə 75,8 faiz və yaxud 287 milyon manat, təhsil xərclərinə 53,5 faiz və yaxud 517 milyon manat, sosial müdafiə və sosial təminat xərclərinə 13,2 faiz və yaxud 196 milyon manat, kənd təsərrüfatı və ətraf mühitin mühafizəsi xərclərinə 85,3 faiz və yaxud 260 milyon manat çox vəsait yönəldilib.

Ona görə İqtisadiyyat naziri ümumi iqtisadi vəziyyətlə bağlı məlumat versin. Eyni zamanda kölgə iqtisadiyyatına qarşı mübarizə və son müddət ərzində sahibkarlığın inkişafı ilə bağlı İqtisadiyyat naziri tərəfindən çox önəmli islahatlar irəli sürüldü. Bu məsələ və digər məsələlərlə bağlı məlumat verin.

İqtisadiyyat naziri **Mikayıl CABBAROV** çıxış edərək dedi:

- Təşəkkür edirəm möhtərəm cənab Prezident.

İcazənizlə, ilk növbədə, pandemiya və neftin qiymətinin aşağı düşməsinin ölkə iqtisadiyyatına mənfi təsirlərinin minimallaşdırılması məqsədilə Nazirlər Kabinetinin müvafiq sərəncamı ilə təsdiq edilmiş Tədbirlər Planı çərçivəsində İqtisadiyyat Nazirliyinə həvalə olunmuş tapşırıqların icrası istiqamətində məruzə edim. İqtisadi artıma və sahibkarlığa dəstək Tədbirlər Planının mühüm istiqamətlərindən biridir. Burada da pandemiyanın ölkə iqtisadiyyatına mənfi təsirinin azaldılması məqsədilə təxirəsalınmaz tədbirlər nəzərdə tutulur. Tədbirlər Planının icrası üzrə aidiyyəti dövlət qurumları və müəssisələrin məlumatlarını özündə cəmləşdirən elektron məlumat portalı yaradılmışdır. Məlumatlar əsasında iqtisadiyyatda baş verən proseslərin operativ monitorinqi aparılır. Nəticələr hökumətə mütəmadi şəkildə təqdim olunur.

Tədbirlər Planının növbəti istiqaməti pandemiyadan zərər çəkmiş sahələrdə çalışan muzdlu işçilərin əməkhaqqının müəyyən hissəsinin ödənilməsi və fərdi, o cümlədən mikrosahibkarlara maliyyə dəstəyinin göstərilməsidir. Cari ilin 1 iyul tarixinə muzdlu işçilərin əməkhaqlarının kompensasiyası çərçivəsində 24 min 300 vergiödəyicisi üzrə 210 min muzdlu işçiyə 95 milyon manat vəsait ödənilib. Bundan başqa, fərdi, o cümlədən mikrosahibkarlara maliyyə dəstəyi paketi çərçivəsində 105,6 min vergiödəyicisinə 63 milyon vəsait verilib.

İqtisadiyyat naziri Mikayıl Cabbarov pandemiyadan zərər çəkən sahibkarlıq subyektlərinə vergi güzəştlərinin və tətillərinin verilməsi ilə bağlı həyata keçirilən tədbirlər planı çərçivəsində görülən işlərdən də danışaraq dedi:

-Tədbirlər Planının mühüm istiqamətlərindən biri də pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə veriləcək 500 milyon manat yeni bank kreditləri üzrə dövlət zəmanətlərinin verilməsi, yeni və 1 milyard həcmində mövcud kreditlər üzrə faizlərin subsidiyalaşdırılmasıdır. Hazırda hər iki mexanizm İqtisadiyyat Nazirliyi tərəfindən yaradılan və ölkədə ilk dəfə tətbiq olunan rəqəmsal kredit platforması vasitəsilə həyata keçirilir. Sahibkarlar tərəfindən kredit təşkilatlarına 318 milyon manat kredit əldə olunması üçün artıq 820 müraciət olunub. Üç milyon manat məbləğində kreditlərin rəsmiləşdirilməsi prosesinə başlanıb. Yəni banklar tərəfindən də müvafiq qaydalara uyğun olaraq razılıq verilib. Avqust ayının 1-dək isə platformada sahibkarlara eyni vaxtda 3 bank seçmək imkanı yaradılacaq.

Mikayıl Cabbarov daha sonra kölgə iqtisadiyyatı ilə mübarizə sahəsində həyata keçirilən tədbirlərdən danışdı, əldə edilən uğurlu nəticələri diqqətə çatdıraraq bildirdi:

-İlk növbədə, biz kölgə iqtisadiyyatının həcmini ölçərkən dövriyyələrə fikir veririk - xüsusilə elektron qaimə ilə rəsmiləşən dövriyyələrə. Bunların həcmi ötən ilin 5 ayına nisbətən 6,8 faiz artmışdır. Halbuki dövr ərzində qeyri-neft ÜDM-i 2,1 azalıb. Resessiya şəraitində bu göstəricinin artması dövriyyələrin şəffaflaşmasının mühüm göstəricisidir. Qeyri-neft sektorunda elektron qaimə ilə rəsmiləşən dövriyyələrin həcminin artım templəri fəaliyyət sahələri üzrə aşağıdakı kimi olmuşdur: sənayedə 3,2 faiz, ticarətdə 6 faiz, o cümlədən pərakəndə ticarətdə 15,3 faiz. Halbuki biz pərakəndə ticarətin ümumi dövriyyəsinin 1,7 faiz azalmasını, hətta ictimai iaşədə 36,8 faiz azalma nəzərə alırıq, amma rəsmiləşən dövriyyədə 5,3 faiz artımı qeydiyyatdan keçiririk. Tikinti sektorunda 2,9 faiz artım dövriyyələri rəsmiləşməsində, halbuki 14,1 faiz azalma neft kontraktları nəzərə alınmadan və bir sıra digər sahələrdə. Digər bir amil, biz əlavə dəyər vergisi depoziti hesabına mədaxillərin dinamikasını izləyərək onu qeyd edirik ki, cari ilin 6 ayında özəl sektor üzrə ƏDV depoziti hesabına mədaxil 6,8 faiz artıb. Resessiya şəraitində özəl sektor üzrə mədaxilin artması şəffaflaşmanın mühüm göstəricilərindən biridir. Qeyd edək ki, Mərkəzi Bankın məlumatına əsasən, 1 iyun tarixə özəl sektorun banklardakı manatla cari hesablaşma hesabının qalığı ötən ilin 1 iyun tarixi ilə müqayisədə 39,2 faiz artmışdır ki, bu da bankdan keçən dövriyyələrin artımının ağarmasını təsdiq edən digər mühüm göstəricidir.

2019-cu ildə qeyri-neft sektorunun özəl bölməsində əməkhaqqı fondu 29,1 faiz artmışdırsa və əhalinin gəlirlərinin artım tempini 3,9 dəfə üstələyirdisə, 2020-ci ilin birinci rübündə ötən ilin eyni dövrü ilə müqayisədə artım davam edərək 23,6 faiz olmuş və əhalinin gəlirlərinin artım tempini 3,5 dəfə üstələmişdir.

Neft-qaz məhsulları istisna olmaqla, istehlakçılar tərəfindən ölkə ərazisində ticarət və ictimai iaşə fəaliyyəti göstərən nöqtələrdən alınmış mallara görə ödənilmiş ƏDV-nin geri qaytarılması layihəsi mayın 1-dən başlamışdır. Ötən dövr ərzində 10 milyon 400 min çek üzrə daxil olmuş müraciətlə bağlı artıq 2,7 milyon manat ƏDV istehlakçılara qaytarılıb, 2,4 milyon manat isə 30 gün tamamlananda qaytarılacaq.

Möhtərəm cənab Prezident, bizim qarşımızda 3 əsas hədəf var - makroiqtisadi sabitliyin qorunması, iş yerlərinin və məşğulluğun qorunması, məşğulluğun inkişafı və büdcə gəlirlərinin iqtisadi bazası olan daxili tələbin və investisiyaların dəstəklənməsi. Tapşırığınıza uyğun olaraq biz 7 sektor üzrə - tikinti, dağ-mədən, rəqəmsal iqtisadiyyat, telekommunikasiya, kənd təsərrüfatı, emal sənayesi, daxili turizm, nəqliyyat, turizm və logistika olmaqla, müvafiq araşdırmaları başa çatdırırıq və qısa müddət ərzində hər bir sektoral sahə üzrə hökumətə təqdim olunacaq.

Diqqətinizə görə təşəkkür edirəm.

**Prezident İlham ƏLİYEV:** Sağ olun. İndi söz verilir Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinə.

Nazir **Sahil BABAYEV** çıxış edərək dedi:

- Möhtərəm cənab Prezident.

Cari ilin ilk yarısında bütün sosial ödənişlər vaxtında, hətta pandemiya dövründə vaxtından əvvəl həyata keçirilmişdir. Bu sosial ödənişlər çərçivəsində ötən ilin analoji dövrü ilə müqayisədə 24 faiz artıq, yəni 436 milyon manat çox vəsait ödənilmişdir. Pensiyaların indeksasiyası ilə bağlı Sizin cari ilin əvvəlində qəbul etdiyiniz qərara uyğun olaraq 1,2 milyon pensiyaçının pensiyaları 16,6 faiz artırılmışdır. Bunun nəticəsində də orta pensiyamız ötən ilin müvafiq dövrü ilə müqayisədə 27 faiz artaraq 297 manata, yəni faktiki olaraq 300 manata yaxınlaşmışdır. Eyni zamanda pandemiya dövründə 750 min şəxsə müavinət və təqaüdlər yenə də vaxtından əvvəl ödənilmişdir. Bu məqsədlər üçün ötən ilin 6 ayı ilə müqayisədə 151 milyon manat və ya 45 faiz artıq vəsait ödənilmişdir. Habelə pensiya, müavinət, təqaüd ödənişlərinin elektronlaşdırılması xüsusi karantin rejimində əhalinin mobilliyinin azaldılması baxımından çox böyük önəm kəsb edirdi. Bu ilin altı ayı ərzində pensiya və təqaüdlərin 53 mini məhz tam elektron qaydada, məmur-vətəndaş təması olmadan həyata keçirilmişdir. Eyni zamanda 324 min insana elektron qaydada arayışlar təqdim edilmişdir.

> Ancaq biz strateji əhəmiyyət daşıyan sahələrə xarici kreditləri cəlb edə bilərik.

Hazırda Azərbaycan minimum pensiyanın məbləğinə görə, alıcılıq qabiliyyəti üzrə MDB-də birinci yeri, orta pensiyanın alıcılıq qabiliyyəti üzrə isə ikinci yeri tutur.

Sosial ödənişlərin digər vacib bir istiqaməti məhz sosial təminatla bağlı idi və burada da Sizin tapşırığınıza uyğun olaraq ünvanlı sosial yardım proqramının ödənişinin, prosedur qaydalarının sadələşdirilməsi üzrə iş aparıldı. Artıq bu gün 84 min ailənin 350 min üzvünə ünvanlı sosial yardım ödənişləri həyata keçirilir. Pandemiya dövründə artım 14 min ailənin 58 min üzvünü əhatə etdi. Eyni şəkildə orta məbləğ burada 225 manata bərabər olub və bütün prosesin tam elektron portal üzərindən həyata keçirilməsinə başlanılıb.

Sosial təminatın digər bir istiqaməti olaraq aztəminatlı ailələrimizə dəstək proqramları və Sizin tapşırığınıza uyğun olaraq şəhid ailələrinə, müharibə əlillərinə mənzil və avtomobillərin verilməsi proqramı davam etdirildi. Artıq bu günə 300 mənzil və 100 avtomobil bu kateqoriyadan olan insanlarımıza təqdim edilmişdir. Karantin rejimi bitdikdən sonra daha 200 mənzil və 100 avtomobil hazırdır, onlar da şəhid ailələrimizə və müharibə əlillərinə təqdim olunacaqdır. Ümumilikdə, ilin sonunadək 1500 mənzil və fərdi ev və 400 avtomobilin verilməsi planlaşdırılır. Eyni zamanda tənha yaşayan ahıl şəxslərimizin sosial müdafiəsinin təmin edilməsi üçün 65 yaşdan yuxarı tənha ahılların hər biri nazirlik tərəfindən tam şəkildə sosial xidmətə götürüldü və ölkə ərazisi üzrə bu qəbildən olan 15 min insana sosial xidmətçilər tərəfindən gündəlik xidmət göstərilir. Sizin çağırışınıza qoşulan bir çox dövlət və özəl şirkətlərimizin təşəbbüsü ilə pandemiya dövründə 100 mindən çox ailəyə ərzaq payları təqdim edildi. Burada həm dövlət qurumlarımız, həm də özəl şirkətlər çox aktiv rol oynadılar.

Sosial rifah və məşğulluğa dəstək Tədbirlər Planının ikinci əsas istiqaməti məşğulluq tədbirləri idi və bu çərçivədə işimiz iki istiqamətdə qurulmuşdu. Birinci istiqamət bu gün əmək müqaviləsi ilə işləyənlərin iş yerlərinin qorunması və işsizliyin artmasına imkan verilməməsi ilə bağlı işlərdir. Bu sahədə aparılan həm dəstək tədbirləri, həm də inzibati tədbirlər nəticəsində çox müsbət dinamika əldə edildi. Qeyd edim ki, dövlət sektoru üzrə 900 min iş yeri qorundu, onların hər birinin əməkhaqqısı ödənildi. Eyni zamanda özəl sektorda 110 min əmək müqaviləsi, 17 faizlik bir artım meydana çıxdı. Bu gün əmək müqaviləsi ilə özəl sektorda işləyən insanların sayı 751 minə çatıb. Əlbəttə ki, burada da qeyri-formal məşğulluqla mübarizə ilə bağlı Sizin verdiyiniz tapşırıqların icrası nəticəsində əldə edilən bu göstəricini vurğulamaq lazımdır. Eyni zamanda özəl sektorumuzun Sizin çağırışlarınıza səs verməsi və mövcud iş yerlərinin formallaşdırılması, leqallaşdırılması sahəsində də aparılan tədbirlər qeyd olunmalıdır. Bu əmək müqavilələrinin sayının artımı nəticəsində əməkhaqqı fondunda da 8 faizlik artım yaradıldı. Özəl sektorda artım 14 faizdən yuxarıdır.

Məşğulluqla bağlı tədbirlərin ikinci istiqaməti isə işsiz şəxslərlə bağlı görülən tədbirlər idi. İşsizlər və xüsusi karantin rejimi dövründə gəlirini itirən qeyri-formal işləyən şəxslərlə bağlı bir sıra tədbirlər təsdiq olundu. Sizin tapşırığınıza uyğun olaraq ilk mexanizm onlara ölkə üzrə yaşayış minimumu olan 190 manat məbləğində birdəfəlik ödəmənin həyata keçirilməsi idi. Bu tədbir aprel və may aylarında genişləndirilərək 600 min şəxsi əhatə etdi və onlara ödənişlər tam şəkildə və vaxtında həyata keçirildi. Ardınca 16 şəhər və rayonda sərtləşdirilmiş karantin rejiminin tətbiq edildiyini nəzərə alaraq üçüncü dəfə həmin rayonlar üzrə qeydiyyatdan keçmiş işsizlər və qeyri-formal işləyən şəxslərə - 283 min nəfərə ödəniş olundu. Ümumilikdə, bu üç ödəniş çərçivəsində vətəndaşlara 280 milyon manat vəsait ödənildi. Bu vəsaitin də 210 milyon manatının ödənilməsində məhz Dövlət Sosial Müdafiə Fondunun ehtiyat vəsaiti hesabına yaranan imkanlardan istifadə edilib. Eyni zamanda işsiz şəxslər üçün digər bir istiqamət olaraq haqqıödənilən ictimai işlərin əhatə dairəsinin genişləndirilməsi tapşırılmışdı. Belə iş yerlərinin sayı 90 minə çatdırıldı. Xatırladım ki, ilin əvvəlində Sizin tapşırığınıza əsasən, 38 min belə ictimai iş yaradılmışdı və əlavə olaraq da pandemiya dövründə işsizlər üçün 52 min ikiaylıq iş yerləri yaradıldı. Bu günə qədər artıq 38 min davamlı iş yerlərinin 95 faizi tam şəkildə işçilərlə təmin edilib, 52 min ikiaylıq iş yerinin isə 50 faizi təmin olunmuşdur. Biz burada monitorinq nəzarət tədbirlərini də gücləndirdik. Qeyd edim ki, ilin əvvəlindən bu günədək nəzarət tədbirləri nəticəsində 8600 işçi ilə müqaviləyə xitam verilmiş, onların tam konkretləşdirilməsi təmin edilmişdir. Şəffaflığın təmin edilməsi üçün həm 190 manatlıq ödəniş, həm də ictimai işçilərin hər birinin siyahısı elektron portal vasitəsilə ictimaiyyətə açıqlanmış və burada da tam şəffaflıq təmin edilmişdir.

İşsizlərə dəstək proqramının növbəti hissəsi özünüməşğulluq proqramı idi. Bu proqram da Sizin tapşırığınızla genişləndirilərək 12 min ailəni əhatə etdi. Ona həm Dünya Bankı qoşuldu, həm də BMT-nin İnkişaf Proqramı ilə birgə layihəmiz davam etdirildi. Heydər Əliyev Fondunun Regional İnkişaf Birliyi və yerli banklar aktiv şəkildə bizimlə əməkdaşlıq edir. Qeyd edim ki, artıq 3500 ailə bu proqrama cəlb edilib, ilin sonunadək onun sürətlə icrası üçün də müvafiq tədbirlər görülür. Çünki xüsusilə təlimlərin keçirilməsi ilə bağlı karantin rejimindən irəli gələn müəyyən məhdudiyyətlər var. Ona görə də onlayn təlimlərə üstünlük verərək, ilin sonunadək 12 min ailəyə çatdırmağa çalışacağıq. Xüsusi elektron portalda həm müraciətçilər, həm aktiv alanlarla bağlı bütün məlumatlar ictimaiyyətə tam şəkildə açıqlanır.

Cənab Prezident, əlavə olaraq bildirim ki, Birinci vitse-prezidentin təşəbbüsü olan DOST mərkəzləri ilə bağlı işlər davam etdirilir. Siz may ayında 3 saylı DOST mərkəzinin açılışında iştirak etdiniz. İlk altı ay ərzində bu mərkəzlərdə 61 min vətəndaşımız qəbul edilib, onlara xüsusi xidmətlər göstərilib. Vətəndaşlarımızın məmnunluq səviyyəsi 96 faiz təşkil etmişdir. Hazırda 7 mərkəzin yaradılması üzərində də iş aparılır. Bunlar Binəqədi, Abşeron, Sumqayıt, Bərdə, Quba, Şəki və Sabirabad rayonlarında olacaq regional mərkəzlərdir və növbəti ilin birinci rübünün sonlarınadək bu mərkəzlərin əksəriyyətinin istifadəyə verilməsi planlaşdırılır.

Eyni zamanda Siz dəfələrlə bəyan etmisiniz ki, heç bir sosial layihə dayandırılmayacaq, sosial layihələrimiz tam icra olunacaqdır. Bu istiqamətdə də məruzə edim ki, dörd regionumuzda sosial infrastrukturumuz və regional bərpa mərkəzlərimiz artıq tam şəkildə təmir olunub və istifadəyə hazırdır. Bunlar Sumqayıt, Lənkəran, Xaçmaz və Şəki reabilitasiya mərkəzləridir. İlin sonuna qədər Şağan, Şirvan, Qəbələ və Şəmkirdə də reabilitasiya mərkəzləri vətəndaşların istifadəsi üçün tam hazır vəziyyətə gətiriləcəkdir.

**Prezident İlham ƏLİYEV:** Əlbəttə, sosial layihələrin icrası bundan sonra da davam etdiriləcək. Bizim siyasətimizin əsas məsələsi elə budur. Pandemiya dövrü bir daha göstərdi ki, biz bu çətin dövrdə də bu siyasətdən kənara çıxmırıq və gəlirlərimizin azalmasına baxmayaraq, bütün sosial layihələr artıqlaması ilə icra ediləcək və bütünlükdə deyə bilərəm ki, bu il bu baxımdan rekord göstəricidir. Siz də qeyd etdiniz, biz insanları özünüməşğulluq proqramı ilə rekord sayda əhatə edəcəyik - 12 min, heç vaxt bu qədər olmayıb. Həmişə 7 min, 8 min olubdur, bu, rekord saydadır. Rekord sayda ödənişli ictimai iş yerlərinin yaradılmasıdır. Biz bir neçə il bundan əvvəl təqribən 30 mindən başlamışdıq, bu il 40 minə yaxın idi və siz də qeyd etdiyiniz kimi 90 minə çatıbdır. Eyni zamanda şəhid ailələri üçün rekord sayda evlərin verilməsi nəzərdə tutulur - 1500.

Ardı 6-cı səh.

# Azərbaycan Ordusu Ali Baş Komandan tərəfindən verilən bütün tapşırıqları şərəflə yerinə yetirir

## İlham ƏLİYEV: "Son günlər ərzində baş vermiş toqquşmalar və qanlı döyüşlər Azərbaycan dövlətinin, ordusunun gücünü, xalqla iqtidar arasındakı birliyi bir daha göstərdi"

Əvvəli 5-ci səh.

Əgər biz bu templə davam eləsək, yəqin ki, bir-iki il ərzində, maksimum üç il ərzində bu gün növbədə duran bütün şəhid ailələrini, hansılar ki, hələ mənzillər almayıb, mənzillərlə təmin edəcəyik. Siz qeyd etdiniz ki, 300 mənzil bu günə qədər verilib. Bu, ümumi rəqəmin 20 faizini təşkil edir. Ancaq ilin yarısı arxada qalıb. Ona görə yəqin ki, sizin planlarınızda bu 1500-ü tam təmin etmək məsələsi dayanır və nə üçün onda ilin ilk yarısında bu, cəmi 20 faiz təşkil edibdir? Bunun səbəbi var?

**Sahil BABAYEV:** Möhtərəm cənab Prezident, əslində, 200-ə qədər mənzil hazırdır, əlavə 100-ə qədər fərdi ev də hazırdır. Sadəcə, bunlar sərtləşdirilmiş karantin rejimi olan ərazilərə düşdüyünə görə biz kütləvi tədbir keçirməmək üçün təqdim etmirik. İnşallah, karantin dövrü bitən kimi biz bunları təqdim etməyə başlayacağıq.

**Prezident İlham ƏLİYEV:** Yaxşı, əlbəttə ki, artan orta əməkhaqqı, orta pensiya, yenə də bizim uğurlu sosial siyasətimizi göstərir. Siz orta pensiyanı qeyd etdiniz. Əlavə etməliyəm ki, yaşa görə də pensiya əhəmiyyətli dərəcədə artıb - 25 faiz və hazırda təqribən 330 manat səviyyəsindədir. Orta əməkhaqqı isə ilin 6 ayında təxminən 25 faiz artıb. Yəni, bu, kifayət qədər böyük artımlardır və əminəm ki, giriş sözümdə dediyim kimi, bütün bu məsələlər gələn ilin büdcəsində də öz həllini tapacaqdır.

İndi isə söz verilir Kənd Təsərrüfatı nazirinə. Buyurun, görülmüş işlərlə bağlı məlumat verin.

Nazir **İnam KƏRİMOV** çıxış edərək dedi:

- Möhtərəm cənab Prezident, verdiyiniz tapşırıqlara uyğun olaraq aqrar sahənin inkişafı istiqamətində davamlı tədbirlər həyata keçirilir. Pandemiya dövründə aqrar sektorun fəaliyyəti mövcud çağırışlara uyğun qurulur, kənd təsərrüfatı məhsullarının fasiləsiz istehsalı təmin edilir. Xüsusi karantin rejimi dövründə bölgələrdə mineral gübrə, pestisid, toxum təchizatı və satışı, kənd təsərrüfatı texnikalarının məhdudiyyətsiz hərəkəti təmin edilib. Bu günədək əhalinin kənd təsərrüfatı məhsulları ilə təminatında xüsusi bir problem qeydə alınmayıb. Hazırda əsas diqqət taxıl biçininin yekunlaşmasına yönəlib, ölkə üzrə bir milyon hektardan artıq taxıl sahəsində məhsul yığımı aparılmaqdadır. Taxıl biçinində bu günlərdə ümumiyyətlə 1700-dən artıq kombayn iştirak edib və nazirlik tərəfindən biçinə 700-ə yaxın kombayn cəlb olunub. Hazırkı dövrə qədər 860 min hektardan çox sahədə taxıl biçini aparılıb, sahələrdən bu günədək ilkin olaraq 2,7 milyon tondan artıq məhsul toplanılıb. Bugünkü günə taxıl üzrə orta məhsuldarlıq hər hektarda 31,5 sentner təşkil edir. Müvafiq olaraq buğda üzrə orta məhsuldarlıq 32,3 sentner, arpa üzrə isə 30,1 sentnerdir. Bu il havaların quraq keçməsi, yağıntı miqdarının azalması və su çatışmazlığı xüsusilə bir sıra Aran rayonlarında yüz min hektar ərazidə taxılın becərilməsində problemlər yaradıb. Ancaq buna baxmayaraq, suvarma problemi yaşamayan əksər rayonlarda taxıl üzrə məhsuldarlıq göstəricisi əvvəlki illə müqayisədə xeyli yüksəkdir. Bəzi rayonlarda, məsələn Bərdədə 44,1 sentner, Saatlıda 40,8 sentner, Samuxda 40,3, Tərtər və Ağdamda 40,1 sentner orta məhsuldarlıq əldə edilib. Bir sıra özəl təsərrüfatlarda, o cümlədən nazirliyin pilot təsərrüfatlarında məhsuldarlıq 60 sentnerədək olmuşdur.

Hesabat dövründə bitkiçilik məhsullarının istehsalında artım dinamikası davam etmişdir. 2020-ci ilin 6 ayı ərzində ötən ilin müvafiq dövrü ilə müqayisədə 6,2 faiz çox tərəvəz, 5,3 faiz çox meyvə və giləmeyvə, 9,7 faiz çox kartof istehsal edilib.

Cari ildə 100 min hektardan çox sahədə pambıq əkini həyata keçirilib, pambıq sahələrində 100 faiz bitiş alınıb. Pambıq əkinlərinin gübrə, dərman preparatları və texnika təminatı ilə bağlı tədbirlər həyata keçirilib. Burada da məhsuldarlığa təsir edə biləcək əsas risklərdən biri quraqlıqla bağlıdır.

Möhtərəm cənab Prezident, ümumiyyətlə, bu il məhsuldarlığa təsir edə biləcək ən böyük risk quraqlıq və su çatışmazlığıdır. Bu kontekstdə heyvandarlığın yem bazasının yaxşılaşdırılması məqsədilə təkrar qarğıdalı əkinlərinin aparılmasına başlanılıb. İlkin olaraq 35 rayon üzrə 50 min hektar sahədə qarğıdalı əkini nəzərdə tutulub. Artıq 32,6 min hektar sahədə şum və digər səpinqabağı işlər aparılıb, 27,5 min hektar sahədə səpin işləri həyata keçirilib. Digər yazlıq əkinlər üzrə, o cümlədən çəltik, tütün, şəkər çuğunduru, bostan, tərəvəz əkinləri üzrə tədbirlər davam etdirilir. 2020-ci ilin yanvar ayından fermerlərə subsidiyaların ödənilməsi elektron kənd təsərrüfatı informasiya sistemi üzərindən həyata keçirilir. Bu günədək 506 mindən çox fermer qeydiyyatdan keçib, 415 mindən artıq fermer payızlıq, yazlıq və çoxillik əkinlərini bəyan edib. Cari tarixə 418 mindən artıq "fermer kartı" hazırlanıb, 404 min fermer öz kartlarından istifadə etməyə başlayıb. Müraciətləri təsdiqlənmiş 388 mindən çox fermerin kart hesabına 213,8 milyon manat əkin subsidiyası üçün vəsait köçürülüb.

Eyni zamanda qeyd etmək istərdim ki, seriya kartlarından təyinatına uyğun istifadə etməyən fermerlərə və şirkətlərə qarşı ciddi tədbirlər görülür. Fermerlərin kənd təsərrüfatı texnikasına olan tələbatını öyrənmək məqsədilə Aqrar Kredit və İnkişaf Agentliyi tərəfindən cari ilin altı ayı ərzində 100-dən artıq şirkət vasitəsilə 2380 kənd təsərrüfatı texnikasının 128 hüquqi və 910 fiziki şəxsə satışı maliyyələşdirilmişdir. Həmçinin hesabat dövründə 4700 baş damazlıq heyvanın güzəştli satışı maliyyələşdirilib. Bu il suvarma avadanlığı, soyuducu anbar, traktor və digər texnikaların alınmasının subsidiyalaşdırılması üzrə fermerlərin adından çoxsaylı müraciətlər daxil olmaqdadır. Bu müraciətlərin icrası üçün əlavə vəsait ayrılması ilə bağlı bütün fermerlərimizin xahişlərini Sizin yüksək diqqətinizə çatdırmaq istərdim. Sizin aprel ayında imzaladığınız Sərəncama əsasən fermerlərimizin maliyyə vəsaitlərinə olan ehtiyaclarının qarşılanması məqsədilə aqrar sektora girovsuz mikrokreditlərin verilməsinə başlanılıb. Artıq aprel ayından bu günə qədər 1000-dən artıq fermerə ümumilikdə 9,5 milyon manat mikrokredit verilibdir. Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi üzrə komissiyanın koordinasiyası ilə regionlarda dövlət aqrar inkişaf mərkəzlərinin, Meliorasiya və Su Təsərrüfatı ASC-nin idarələri və yerli icra hakimiyyəti orqanlarının fəaliyyəti əlaqələndirilib, suvarma qrafikləri tərtib olunub və qrafiklərə əməl edilməsi ilə bağlı yerlərdə maarifləndirmə və nəzarət işləri aparılır.

Möhtərəm cənab Prezident, hazırkı günlər aqrar sektorda təsərrüfat fəaliyyətinin ən qızğın dövrüdür. Dövlətin fermerlərə göstərdiyi qayğı və davamlı dəstək onların daha da yüksək nəticələr əldə etməsini şərtləndirir. Bu sahəyə ayırdığınız daimi diqqət fermerlərin məsuliyyətini də artırır. Sizi əmin etmək istərdik ki, ölkənin ərzaq təhlükəsizliyinin təmin olunması üçün qarşımıza qoyduğunuz vəzifələri bu

> Elə etməliyik ki, əsas sosial məsələlərdən başqa digər strateji infrastruktur layihələrinin icrası təmin edilsin.

il də layiqincə yerinə yetirəcəyik və xüsusilə pandemiya və quraqlıq şəraitində kənd təsərrüfatının bütün istiqamətlərində yüksək məhsuldarlığı qorumaq üçün səylərimizi əsirgəməyəcəyik.

Diqqətinizə görə təşəkkür edirəm.

**Prezident İlham ƏLİYEV:** Mən qeyd etdim, bir daha demək istəyirəm ki, ərzaq təhlükəsizliyi məsələləri daim diqqət mərkəzində olmalıdır. Eyni zamanda bizim ixrac imkanlarımız da genişləndirilməlidir. Biz heç vaxt unutmamalıyıq ki, ölkəmizin əhalisi artır, ölkəmizə gələn xarici qonaqların sayı 2020-ci il istisna olmaq şərti ilə artır. Belə olan halda daxili tələbat da artacaq. Daxili tələbat nə qədər artacaqsa, əgər kənd təsərrüfatı istehsalı indiki yerində qalarsa, ixrac imkanlarımız bir o qədər azalacaq. Ona görə kənd təsərrüfatının intensiv yollarla inkişafı bizim üçün prioritet məsələ olmalıdır. Bütün digər tədbirlərlə yanaşı, əlbəttə ki, su mənbələrinin düzgün müəyyən edilməsi, su itkilərinin azaldılması və suyun əkin sahəsi başına çatdırılması ön planda olan məsələlərdir. Bilirəm ki, İqtisadiyyat Nazirliyi komissiyada Kənd Təsərrüfatı Nazirliyi, digər aidiyyəti qurumlarla birlikdə fəal işləyir ki, bu məsələlər kompleks şəkildə öz həllini tapsın və müasir suvarma sistemlərinin Azərbaycanda tətbiq edilməsi üçün əlavə tədbirlər görülsün. Lazım olarsa, bu, infrastruktur layihə olduğu üçün əlbəttə ki, dövlət dəstəyi göstərilə bilər. Eyni zamanda sahibkarlara bu məqsədlər üçün güzəştli şərtlərlə kreditlərin verilməsinə də baxılmalıdır.

Hesab edirəm ki, təkrar əkinlə bağlı ilkin təcrübə müsbətdir. Təkrar əkini stimullaşdırmaq, fermerləri maraqlandırmaq üçün dövlət əlavə maliyyə vəsaiti ayırıb. Əlbəttə ki, 50 min hektarda qarğıdalının əkilməsi bizim yem bazamızı böyük dərəcədə formalaşdıracaq və idxaldan asılılıq buna uyğun şəkildə azalacaqdır. Bu ilkin təcrübəni siz çox düzgün təhlil edin və əgər bu il, - əgər belə demək mümkündürsə, - son anda siz bu təklifi verdiniz. Biz gələn ilə artıq bəri başdan hazırlaşmalıyıq və yerlər düzgün müəyyən edilməlidir. Bunu pilot layihə də adlandırmaq olar və əminəm ki, 50 min hektarda əkilən qarğıdalı və bunun nəticələri digər fermerlər üçün də maraqlı ola bilər.

Eyni zamanda bizim bəzi iri fermer təsərrüfatlarında çox gözəl nəticələr əldə edilib - siz də qeyd etdiyiniz kimi, kənd



təsərrüfatının pilot sahələrində bəzi hallarda 60 sentner. Eyni zamanda, mən bu yaxınlarda bölgələrdə səfərdə olarkən mənə məlumat verildi ki, Tovuz, Samux rayonlarında fəaliyyət göstərən aqropark Samux ərazisində bir hektardan haradasa 60, Tovuz rayonu ərazisində 70 sentnerdən çox buğda məhsulu götürülür.

Ona görə hesab edirəm ki, bu qabaqcıl təsərrüfatların təcrübəsi öyrənilməlidir. Digər fermerləri bu təcrübə ilə tanış etmək lazımdır. Ola bilsin ki, təkcə bir aqropark deyil, bir neçə bizim böyük fermer təsərrüfatımız gözəl nəticələr əldə edir. Bu təsərrüfatların nümayəndələri regional mərkəzlərdə təlim kurslarında iştirak edə bilərlər. Eyni zamanda maraqlı olan fermerləri bu təsərrüfatlara dəvət etmək olar. Onların gəlişini təşkil etmək olar ki, təcrübə mübadiləsi mütləq olsun. Əlbəttə ki, kiçik fermer təsərrüfatlarında belə böyük nəticələr gözləmək bəlkə də düzgün olmaz. Ancaq biz əgər bütövlükdə məhsuldarlığı daha da yüksək səviyyəyə qaldırsaq, onda elə mövcud əkin sahələrini nəzərə alaraq biz özümüzü daha böyük məhsulla təmin edə bilərik.

Kənd təsərrüfatı üzrə peşə məktəblərinin yaradılması məsələsinə İqtisadiyyat Nazirliyi ilə birlikdə baxın. Ola bilər ki, Gəncə Dövlət Aqrar Universitetinin bazasında, bu yaxınlarda yeni korpus açılıbdır.

> 2015-ci ildə və bu ilin altı ayında idxalın həcmi eyni idi. Ancaq 2015-ci ildə gömrük orqanları 7 yüz milyon manat vəsait toplamışlar, bu il 2 milyard manatdan çox. Yəni təxminən 3 dəfə çox.

Belə peşə məktəbləri müxtəlif bölgələrdə, müxtəlif kənd təsərrüfatı məhsulları üzrə mütləq yaradılmalıdır. Lazım olarsa, qabaqcıl xarici mütəxəssisləri də bu işlərə cəlb edin.

Bir də soruşmaq istəyirəm ki, texnika ilə təminat nə yerdədir və əlavə texnikanın gətirilməsinə ehtiyac var, yoxsa yox?

**İnam KƏRİMOV** dedi:

- Möhtərəm cənab Prezident, artıq texnika təminatı ilə bağlı Sizin ötən il həyata keçirdiyiniz islahat nəticəsində bu sahədə bazarda tam liberallaşma baş vermişdir. Liberallaşma nəticəsində artıq istənilən şirkət kənd təsərrüfatı texnikasını gətirib fermerlərimizə təqdim edə bilər. Bu il 100-dən artıq şirkət vasitəsilə 2380 kənd təsərrüfatı texnikası fermerlərimizə satılmışdır. Müqayisə üçün demək istəyirəm ki, ötən ilin eyni dövrü ilə müqayisədə bu rəqəm 1151 təşkil edirdi. Artıq damazlıq heyvanlar sahəsində də bu rəqəm bir neçə dəfə artmışdır. Həmçinin bildirmək istəyirəm ki, "Aqrolizinq"in bazasında olan əvvəlki illərdə alınmış texnikalar da satışa çıxarılmışdır və 179 texnika "Aqrolizinq" vasitəsilə yəni, 100 şirkətdən biri qismində iştirak edərək fermerlərimizə öz texnikalarını satmışdır.

Bu il əsas fərqlərdən biri o idi ki, Sizin göstərişinizlə "Aqrolizinq"ə 28 milyon manat ayrılmışdır və 125 kombayn "Aqrolizinq" tərəfindən aqroservislər üçün alınmışdır. Bu kombaynlardan 25 ədədini Azərbaycanda, ümumiyyətlə, MDB məkanında ilk dəfə olaraq dağ kombaynları təşkil etmişdir. Əvvəllər fermerlərimiz məhsul itkisindən, o cümlədən təhlükəsizlik qaydalarına əməl etmək baxımından əziyyət çəkirdilər. Dağ kombaynları fermerlərimizə məhsulu itkisiz, tam yığmağa imkan vermişdir. Bu il, çıxışımda vurğuladığım kimi, fermerlərimiz, əsasən böyük fermerlərimizdə soyuducu anbarların, suvarma sistemlərinin qurulması və digər böyük kənd təsərrüfatı texnikası alınması üçün maraq var. Onlar həmçinin böyük aqroparklar bu istiqamətlərdə Kənd Təsərrüfatı Nazirliyinə əlavə müraciətlər etmişlər. Amma, ümumilikdə, tam əminliklə deyə bilərik ki, bu il hazırda fermerlərimizin texnika baxımından problemi yoxdur və builki taxıl biçini mövsümü də bir daha göstərdi ki, bu sahədə dövlətimiz tərəfindən bütün tədbirlər həyata keçirilib.

**Prezident İlham ƏLİYEV:** Aydındır. İndi söz verilir Gömrük Komitəsinin sədrinə.

Dövlət Gömrük Komitəsinin sədri **Səfər MEHDİYEV** çıxış edərək dedi:

- Möhtərəm cənab Prezident, məruzə edərək bildirmək istəyirəm ki, pandemiya dövründə gömrük xidməti olaraq bizim ön cəbhədə olduğumuza görə əsasən sanepidemioloji vəziyyət nəzərə alınaraq ölkəyə daxil olan malların və nəqliyyat vasitələrinin keçidi yüksək səviyyədə təşkil olunmuşdur. İlk günlərdən başlayaraq, əməkdaşların bu sahədə fəaliyyət göstərməsi üçün onların mütəmadi yoxlanılması işinin təşkili ilə bağlı Sizin müvafiq tapşırıqlarınıza uyğun olaraq, Dövlət Gömrük Komitəsinin hospitalında xüsusi laboratoriya təsis edilib. Əməkdaşların bu günə qədər 4700 testi aparılıb ki, onlardan 2000-ə yaxını mütəmadi birbaşa təmasda olanlardır. Bu baxımdan onların sağlamlığı, həm ticarətimizin, idxal-ixrac əməliyyatlarımızın, həm də tranzit potensialımızın qorunması məqsədilə mütəmadi nəzarətdə saxlanılıb. 170-ə yaxın gömrük əməkdaşı ilkin olaraq pozitiv testlərlə çıxsa da, hazırda onlar müalicə olunub və normal iş fəaliyyətinə qayıdıblar. Bu gün fəaliyyətimiz gücləndirilmiş iş rejimində davam etdirilir.

Cənab Prezident, pandemiya dövründə bizim xidmətin qarşısında duran əsas vəzifələrdən biri ticarətin, həm tranzit, həm idxal, həm ixrac əməliyyatlarımızın əvvəlki illərdə olduğu kimi problemsiz təşkilindən gedir. Bu sahədə görülmüş qabaqlayıcı tədbirlər nəticəsində tranzit potensialımız altı ayda keçən ilin müvafiq dövrünə nisbətən 8 mindən çox nəqliyyat vasitəsi artmışdır. İdxal əməliyyatlarımız üzrə də 5 min nəqliyyat vasitəsinin artımı müşahidə olunur. Həm ixrac və idxal, həm də tranzit əlaqələrimiz qorunub saxlanılmışdır. Ticarət həcmimiz idxal əməliyyatları üzrə 4,9 milyard dollar təşkil edir və keçən ilin müvafiq dövrü ilə müqayisədə 2 milyard 29 milyon dollar azdır. Əgər biz keçən il Dövlət Neft Fondunun gətirdiyi qızılı nəzərə almasaq, ümumi idxalımızda 5,2 faiz civarında azalma tendensiyası gedir. İxrac əməliyyatlarımız isə bu ilin altı ayında 7,686 milyard dollar olub. İxrac əməliyyatlarının azalma tendensiyası 23 faiz təşkil edir. Ümumilikdə, qeyri-neft sektoru üzrə ixrac əməliyyatları 911 milyon dollar olub ki, bu da keçən illə müqayisədə 67,5 milyon dollar azdır. Amma idxal və ixracın strukturuna baxdığımız zaman pandemiyadan asılı olaraq müəyyən dəyişikliklərin baş verdiyini görərik.

> Kreditlərin 60 faizdən çox hissəsi artıq biznesə yönəlmiş kreditlərdir.

Cənab Prezident, məruzə edərək bildirmək istəyirəm ki, idxalda əsasən 296 milyon dollarlıq mallar, 27-ci qrupa aid olan neft, neft məhsulları, sürtkü yağları və yanacaq vasitələri olmuşdur ki, bu da 67 faiz azalma təşkil edir. Keçən ilin müvafiq dövrü ilə müqayisədə büdcə daxilolmalarında 66 milyon manat azalma bu pozisiyada olmuşdur. İkinci yerdə 86-cı mal qrupunda lokomotivlər, xüsusilə dəmir yolu avadanlıqları 35 milyon manat azalmışdır və büdcə daxilolmalarında bu mövqe üzərində 89 faiz azalma baş vermişdir. Ümumilikdə nəqliyyat vasitələri, maşın və mexanizmlərin gətirilməsi sahəsində, tütün məmulatlarında da 50 milyon manat həcmində azalma olmuşdur. Lakin pandemiya dövründə ərzaq təhlükəsizliyi sahəsində qabaqlayıcı tədbirlər nəticəsində idxalın ərzaq məhsulları üzrə artımı hesabına 34 faizə qədər artım əldə edilmişdir.

Cənab Prezident, idxal əməliyyatlarının ümumi mənzərəsi deməyə əsas verir ki, idxalımızın həcmi 2015-ci illə müqayisədə eynilik təşkil edir. 2015-ci illə müqayisə apardığımız zaman sırf qabaqlayıcı tədbirlər üzrə həm gömrük orqanlarının, həm vergi xidmətində apardığınız islahatların nəticəsi olaraq idxalın həcminin eyni olduğunu görürük. Lakin buna baxmayaraq, əgər büdcə daxilolmaları 2015-ci ildə 700 milyon manat idisə, bu il 2 milyard 19 milyon manata çatır. Bu da Sizin kölgə iqtisadiyyatı və korrupsiya ilə mübarizə istiqamətində apardığınız uğurlu islahatların nəticəsidir. İqtisadiyyatımızda bugünkü çətin bir vəziyyətdə gömrük xidməti tərəfindən 2 milyard 19 milyon manat vəsait toplanaraq dövlət büdcəsinə köçürülmüşdür.

Cənab Prezident, Sizə məruzə edərək bildirmək istəyirəm ki, qaçaqmalçılıq sahəsində də əməliyyat tədbirləri əvvəlki illərdə olduğu kimi davam etdirilib. Başlanmış 249 cinayət işinin əsas hissəsini 67 halda narkotik vasitələr və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı əməllər təşkil etmişdir. Həm idxal əməliyyatları üzrə, həm də tranzit əməliyyatları üzrə çəkisi 942 kiloqram olan narkotik vasitələrin qaçaqmalçılıq yolu ilə keçirilməsinə cəhd edilmişdir ki, bunun qara bazarda dəyəri 60 milyon avrodan çoxdur.

Həmçinin bildirmək istəyirəm ki, dəyəri 10 milyon dollardan artıq olan tütün məmulatları, spirtli içkilər və digər malların qaçaq yolla gətirilməsinin qarşısı alınmışdır.

Sizin müvafiq tapşırıqlarınıza və tədbirlər planına uyğun olaraq pandemiya şəraitində idxalda və ixracda baş verən struktur dəyişikliklərinə baxmayaraq, növbəti yarım ildə də gömrük orqanlarının qarşısında duran əsas məqsədlərdən biri büdcə öhdəliklərinin artıqlaması ilə yerinə yetirilməsinə nail olmaqdır. Dövlətimizin və zati-alinizin rəhbərliyinizlə sahibkarlara verilən dəstək və xüsusilə idxal əməliyyatlarında stimullaşdırıcı tədbirlərin nəticəsində bu öhdəliyi yerinə yetirəcəyik.

Diqqətinizə görə sağ olun.

**Prezident İlham ƏLİYEV** iclasa yekun vuraraq dedi:

- Əminəm ki, ilin sonuna qədər görüləcək bütün tədbirlər sayəsində həm gömrük, həm vergi orqanlarında yaxşı nəticələr olacaq. Mən bir rəqəmi bir daha qeyd etmək istərdim. Siz bunu gətirdiniz. Hesab edirəm ki, ictimaiyyətin diqqətini də buna cəlb etməliyik. 2015-ci ildə və bu ilin altı ayında idxalın həcmi eyni idi. Ancaq 2015-ci ildə gömrük orqanları 7 yüz milyon manat vəsait toplamışlar, bu il 2 milyard manatdan çox. Yəni təxminən 3 dəfə çox. Nəyin hesabına? Şəffaflığın hesabına, qaçaqmalçılığa qarşı mübarizə hesabına, düzgün yanaşma nəticəsində. Əgər bu sahədə və vergilər sahəsində ciddi islahatlar aparılmasaydı, biz bu vəsaitdən məhrum olacaqdıq. Onda biz öz büdcəmizi nəyin hesabına təmin edə bilərdik? Ona görə bu sahədə aparılan islahatlar və real nəticələr bizim büdcə planlarımızın da tam şəkildə həyata keçirilməsinə imkan yaradır. Ona görə mən dəfələrlə demişəm ki, dövlət gəlirləri sahəsində də tam şəffaflıq təmin edilməlidir. Sahibkarlar üçün elə bir şərait yaradılmalıdır ki, onlar artıq ağ iqtisadiyyata tam keçid edə bilsinlər. Onlar üçün artıq güzəştli dövr də təmin edilmişdir. Onlarla həm gömrük, həm vergi orqanları məsləhətləşmələr aparıblar, görüşlər keçiriblər, onlara izah edilib ki, dövləti aldatmayın və rahat yaşayın, gecənizi rahat yatın. Ona görə mən bu sahələrdə görülmüş işləri qiymətləndirirəm. Hesab edirəm ki, bütövlükdə, ilin altı ayında görülmüş işlərə müsbət qiymət vermək olar. Bu il çox çətin ildir, təkcə bizim üçün yox, bütün dünya üçün. Təsadüfi deyil ki, aparıcı beynəlxalq maliyyə qurumlarının verdiyi açıqlamaya görə, dünyanın 150 ölkəsindən çoxu maliyyə yardımı üçün beynəlxalq maliyyə qurumlarına müraciət edib. Azərbaycanın adı bu siyahıda yoxdur. Azərbaycan öz inkişafını öz hesabına təmin edir.

Bir rəqəmi də gətirmək istərdim. Bu yaxınlarda BMT-nin "Dayanıqlı inkişaf indeksi" ilə bağlı yeni hesabatı işıq üzü görüb. Bu hesabatda Azərbaycan keçən ilə nisbətən irəliləyərək 54-cü yerdə qərarlaşıb. Hesab edirəm ki, bu, çox gözəl göstəricidir. Onu da bildirməliyəm ki, bu göstəriciyə görə Azərbaycan regionda liderdir. Baxmayaraq ki, ümumi daxili məhsul bir qədər aşağı düşüb, bu da təbii səbəblər üzündən baş verib. Bütövlükdə, ilin altı ayını müsbət qiymətləndirmək olar. İlin sonuna qədər qarşıda duran bütün vəzifələr icra edilməlidir. Hesab edirəm ki, investisiya proqramı tam icra ediləcəkdir. Məndə olan məlumata görə, altı ayda investisiya proqramı 40 faiz səviyyəsində icra edilib. Bunun əsas səbəbi odur ki, bu sahədə də şəffaflıq təmin edilir, satınalmalarla bağlı islahatlar aparılır, tender prosedurları gözlənilir. Buna mən göstəriş vermişəm. Amma eyni zamanda hamımız yaxşı başa düşürük ki, investisiya proqramı həm ölkə üçün lazımi infrastrukturun yaradılmasına xidmət göstərir, eyni zamanda, məşğulluq üçün də önəmli amildir. Ona görə çalışın, investisiya proqramı ilin sonunadək tam icra edilsin.

Bölgədə gedən prosesləri və son hadisələri nəzərə alaraq biz öz hərbi xərclərimizə də yenidən baxmalıyıq. İstisna edilmir ki, Ermənistan onlara vurulmuş böyük zərbədən və məruz qaldığı vəziyyətdən istifadə edərək, bundan bəhanə düzəldərək növbəti təxribata əl atsın. Onu da bildirməliyəm ki, mənə verilən operativ məlumata görə, Qarabağ bölgəsində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində Ermənistan tərəfindən fəallaşma müşahidə olunur. Azərbaycan Ordusu vəziyyətə tam nəzarət edir və bundan sonra da nəzarət edəcək. İstisna edilmir ki, yeni təxribatlar törədilə bilər. Ona görə biz həm hərbi xərclərimizə yenidən baxmalıyıq və xüsusilə, gələn ilin büdcəsində orduya nəzərdə tutulan xərclər ordumuzun təminatını tam görməlidir. Mən demişəm, ordumuzun inkişafı üçün nə qədər lazımdırsa, o qədər də vəsait ayrılacaq. Beləliklə, bugünkü iclas bağlı elan olunur. Verilən bütün tapşırıqlar yerinə yetirilməlidir. Əminəm ki, ilin sonuna qədər biz öz məqsədimizə çatıb bu ili də uğurla başa vuracağıq. Sağ olun.

# "Azərbaycan və Türkiyə "Bir millət, iki dövlət" şüarı əsasında həm sevincli, həm də kədərli günlərdə daim bir-birinə dayaqdırlar"

## Türkiyə Respublikasının Prezidenti zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana

Hörmətli cənab Prezident.

Əziz Qardaşım.

Sizi səmimiyyətlə salamlayıram.

Bu gün Türkiyədə 15 iyul dövlət çevrilişi cəhdinin növbəti ildönümüdür. Bu çevriliş cəhdi Türkiyə dövlətinə qarşı yönəlmiş xain plan idi. Sizin qəhrəmanlığınız və Türkiyə xalqının Sizə olan sevgisi sayəsində qardaş ölkəniz bu çətin sınaqdan daha da güclü çıxmışdır. "Demokratiya və Milli Birlik Günü" xalqınızın öz dövlətçiliyinə və demokratik ənənələrinə sadiqliyinin bariz nümunəsidir.

Mən dövlət çevrilişi cəhdinin qarşısının alınması yolunda canlarını verən şəhidlərimizin əziz xatirəsini dərin hörmət və ehtiramla yad edirəm.



Türkiyə dövlətinə və xalqına qarşı olan bu xəyanətkar dövlət çevrilişi cəhdini ilk dəqiqələrdən ən qəti şəkildə pisləyən ölkə Azərbaycan olmuşdur. Bununla Azərbaycan xalqı və dövləti qardaş Türkiyənin yanında olduğunu göstərmişdir.

Azərbaycan və Türkiyə "Bir millət, iki dövlət" şüarı əsasında həm sevincli, həm də kədərli günlərdə daim bir-birinə dayaqdırlar.

Biz də bütün məsələlərdə Türkiyənin güclü dəstəyini hiss edirik. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Türkiyə hər zaman Azərbaycanla həmrəy olmuş, bütün beynəlxalq təşkilatlarda ölkəmizin haqlı mövqeyini müdafiə etmişdir.

İyulun 12-də Ermənistan Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində hərbi təxribat törətmişdir. Bu, Ermənistanın Azərbaycana qarşı növbəti xəyanətkar aqressiya aktıdır və bütün məsuliyyəti Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərindədir. Bu qəfil və xain hücum nəticəsində Azərbaycan Ordusunun hərbçiləri, eyni zamanda mülki şəxslər həlak olmuş və yaralanmışdır.

Azərbaycan Ordusu bu təxribata layiqli cavab vermişdir. Şəhidlərimizin qisası alınmışdır. Onların qanı yerdə qalmamışdır, bundan sonra da qalmayacaqdır. Azərbaycan BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə, beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq öz ərazi bütövlüyünü təmin edəcəkdir.

Bu hadisə adi sərhəd toqquşması deyil, Ermənistanın işğalçı siyasətinin davamıdır. Hər zaman olduğu kimi, bu gün də Ermənistan rəhbərliyi öz ikiüzlü və riyakar siyasətinə sadiq qalaraq həm öz ictimaiyyətini, həm də dünya birliyini aldatmağa çalışır. Ölkələrində hökm sürən sosial-iqtisadi problemlərin fonunda Azərbaycanla münaqişəni alovlandırmaqla müəyyən məqsədlərə çatmaq istəyirlər.

Ermənistanın Azərbaycana qarşı hərbi hücumuna ilk reaksiyanı qardaş Türkiyə Respublikası vermişdir. Dünənki çıxışınızda Ermənistanın təxribatları ilə bağlı Türkiyənin qəti mövqeyini bir daha ifadə etdiniz. Azərbaycana göstərdiyiniz dəstəyi xalqımız yüksək qiymətləndirir.

Azərbaycan-Türkiyə strateji müttəfiqliyi regionda sülhün və təhlükəsizliyin təmin olunmasına xidmət edən, əməkdaşlığın inkişafına töhfə verən mühüm amildir. Əminəm ki, birliyimiz və həmrəyliyimiz bundan sonra da xalqlarımızın mənafelərinə uyğun olaraq möhkəmlənəcək və genişlənəcəkdir.

Hörmətli cənab Prezident, Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Türkiyə xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 iyul 2020-ci il*

# Pakistan İslam Respublikasının Prezidenti zati-aliləri cənab Arif Alviyə

Hörmətli cənab Prezident.

İlk öncə Sizə səmimi salamlarımı yetirir, Azərbaycan və Ermənistanın dövlət sərhədində baş vermiş hadisələrə verdiyiniz obyektiv qiymətə görə Sizə öz adımdan və Azərbaycan xalqı adından dərin minnətdarlığımı bildirirəm.

Məlum olduğu kimi, cari ilin 12 iyul tarixində Ermənistan silahlı qüvvələri cəbhənin Tovuz rayonu istiqamətində artilleriya qurğularından istifadə edərək atəşkəs rejimini kobud şəkildə pozmuş, hərbi təxribata əl atmışdır. Bu qəfil və xain hücum nəticəsində Azərbaycan Ordusunun hərbçiləri həlak olmuş və yaralanmışdır. Əks-həmlələr və cavab atəşi nəticəsində hücum dəf edilsə də, növbəti günlərdə Ermənistanın hərbi-siyasi rəhbərliyi avantürist və təcavüzkar siyasətindən əl çəkməmiş, ölkəmizin hərbi və mülki obyektlərinin bombalanması əmrini vermişdir.

Bu hadisələr adi sərhəd toqquşması kimi deyil, Ermənistanın işğalçı siyasətinin davamı olaraq qəbul edilməlidir. 30 ilə yaxın müddətdir ki, Azərbaycanın 20 faiz torpağı - Dağlıq Qarabağ bölgəsi və ətrafındakı yeddi rayon erməni işğalı altındadır, bir milyondan çox azərbaycanlı doğma torpaqlarından didərgin düşmüşdür. Münaqişə beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərinə, Helsinki Yekun Aktının müddəalarına əsasən, ölkəmizin ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı çərçivəsində həll olunmalıdır.

Təsadüfi deyil ki, 1992-ci ildə Xocalıda törətdikləri soyqırımına görə cəzasız qalan bu şəxslər bu gün yenə də mülki əhalini, uşaq, qadın və qocaları hədəfə alaraq qətlə yetirirlər. Son hadisələrdə hərbçilərimizdən başqa sıravi mülki vətəndaşlarımız arasında həlak olan və yaralananların olması bunun əyani sübutudur.

Hər zaman olduğu kimi, bu gün də Ermənistan rəhbərliyi öz ikiüzlü və riyakar siyasətinə sadiq qalaraq həm öz ictimaiyyətini, həm də dünya birliyini aldatmağa çalışır. Ölkələrində hökm sürən sosial-iqtisadi problemlərin fonunda Azərbaycanla münaqişəni alovlandırmaqla müəyyən məqsədlərə çatmaq istəyirlər. Azərbaycanın hərbi qüdrəti, qəhrəman övladlarımızın qətiyyəti və şücaəti sayəsində Ermənistanın məkrli və çirkin təxribatının qarşısı alınmış və bundan sonra da alınacaqdır.

Qardaş Pakistanın ölkəmizin haqq işində daim göstərdiyi həmrəyliyə görə Sizə bir daha təşəkkürümü bildirirəm. Əminəm ki, Azərbaycan və Pakistan arasında mövcud olan dostluq və strateji tərəfdaşlıq münasibətləri bundan sonra da uğurla davam edəcəkdir.

Sizə möhkəm cansağlığı, qardaş Pakistan İslam Respublikasına daim firavanlıq və əmin-amanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 iyul 2020-ci il*

# İslam Əməkdaşlıq Təşkilatının Baş katibi cənab Yusif bin Əhməd əl-Osayminə

Hörmətli cənab Baş katib.

İslam Əməkdaşlıq Təşkilatının 2020-ci il 14 iyul tarixli bəyanatında Azərbaycan və Ermənistanın dövlət sərhədində baş vermiş hadisələr nəticəsində həlak olan Azərbaycan vətəndaşları ilə bağlı göndərdiyiniz başsağlığına və Ermənistanın təcavüzkar siyasətinə verilən obyektiv qiymətə görə Sizə təşəkkür edirəm.

Məlum olduğu kimi, cari ilin 12 iyul tarixində Ermənistan silahlı qüvvələri artilleriya qurğularından istifadə edərək atəşkəs rejimini kobud şəkildə pozmuş, qəfil hücum həyata keçirərək hərbçilərimizi, Tovuz rayonunun dinc sakinlərini qətlə yetirmiş və yaralamışlar. Ermənistan növbəti günlərdə də atəşkəs rejimini kobud şəkildə pozmuşdur. Azərbaycan Ordusunun əks həmlələri və cavab atəşi nəticəsində təxribatın qarşısı qətiyyətlə alınmış və bundan sonra da alınacaqdır.

Bu hadisələr bir daha Ermənistanın hərbi-siyasi rəhbərliyinin ikiüzlü, ölkənin isə təcavüzkar olduğunu nümayiş etdirdi. Bu gün hərbçilərlə yanaşı uşaq, qadın və yaşlı insanların hədəf seçilərək öldürülməsi Xocalı soyqırımını həyata keçirənlərin hələ də hazırkı Ermənistan rəhbərliyində təmsil olunduğunu nümayiş etdirdi.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi başlayandan bu günədək İslam Əməkdaşlıq Təşkilatı ali və yüksək səviyyələrdə Ermənistanın işğalçı siyasətini, regional sülhə və sabitliyə törətdiyi təhlükəni pisləyən bir çox qətnamələr qəbul etmişdir. Azərbaycanın haqlı mövqeyi İƏT-ə üzv ölkələr tərəfindən hər zaman dəstəklənmişdir.

Münaqişənin beynəlxalq hüququn norma və prinsiplərinə, İslam Əməkdaşlıq Təşkilatının və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərinə uyğun olaraq, ölkəmizin ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı çərçivəsində həll olunması ilə bağlı İƏT-in daim ədalətli mövqeyini bir daha alqışlayırıq.

Sizə möhkəm cansağlığı və işlərinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 iyul 2020-ci il*

# Qazaxıstan Respublikasının Prezidenti zati-aliləri cənab Kasım-Jomart Tokayevə

Hörmətli cənab Prezident.

Cari ilin 12 iyul tarixində Azərbaycan və Ermənistanın dövlət sərhədinin Tovuz rayonu istiqamətində Ermənistan hərbi birləşmələri artilleriya qurğularından istifadə edərək atəşkəs rejimini kobud şəkildə pozmuş, təxribata əl atmışdır. Bu qəfil və xain hücum nəticəsində Azərbaycan Ordusunun hərbçiləri, mülki əhali həlak olmuş və yaralanmışdır. Əks-həmlələr və cavab atəşi nəticəsində hücum dəf edilsə də, növbəti günlərdə Ermənistanın hərbi-siyasi rəhbərliyi avantürist və təcavüzkar siyasətindən əl çəkməmiş, ölkəmizin hərbi və mülki obyektlərinə zərbələrin endirilməsi ilə bağlı göstərişlər vermişdir.

Bildiyiniz kimi, 30 ilə yaxın müddətdir ki, Azərbaycanın 20 faiz torpağı - Dağlıq Qarabağ bölgəsi və ətrafındakı yeddi rayon erməni işğalı altındadır, bir milyondan çox azərbaycanlı doğma torpaqlarından didərgin düşmüşdür. Məhz bu səbəbdən qeyd olunan hadisə adi sərhəd toqquşması kimi deyil, Ermənistanın işğalçı siyasətinin davamı olaraq qəbul edilməlidir.

Bu gün hərbçilərlə yanaşı uşaq, qadın və yaşlı insanların hədəf seçilərək öldürülməsi Xocalı soyqırımını həyata keçirənlərin hələ də hazırkı Ermənistan rəhbərliyində təmsil olunduğunu nümayiş etdirdi.

Hər zaman olduğu kimi, bu gün də Ermənistan rəhbərliyi öz ikiüzlü və riyakar siyasətinə sadiq qalaraq həm öz ictimaiyyətini, həm də dünya birliyini aldatmağa çalışır. Ölkələrində hökm sürən sosial-iqtisadi problemlərin fonunda Azərbaycanla münaqişəni alovlandırmaqla müəyyən məqsədlərə çatmaq istəyirlər. Ölkəmizin hərbi qüdrəti, qəhrəman övladlarımızın qətiyyəti və şücaəti sayəsində Ermənistanın məkrli və çirkin təxribatının qarşısı qətiyyətlə alınmış və bundan sonra da alınacaqdır.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərinə uyğun olaraq, ölkəmizin ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı çərçivəsində həll olunması ilə bağlı Türk Şurasının 2020-ci il 14 iyul tarixli bəyanatına görə Sizə həm öz adımdan, həm də Azərbaycan xalqı adından təşəkkür edirəm.

Sizə möhkəm cansağlığı, qardaş Qazaxıstan xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 iyul 2020-ci il*

# Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi cənab Bağdad Amreyevə

Hörmətli cənab Baş katib.

Azərbaycan və Ermənistanın dövlət sərhədində baş vermiş hadisələr zamanı ordumuzun hərbçiləri və mülki vətəndaşımızın həlak olması ilə bağlı göndərdiyiniz başsağlığına və Türk Şurasının məsələ ilə bağlı obyektiv mövqeyinə görə Sizə təşəkkür edirəm.

Məlum olduğu kimi, cari ilin 12 iyul tarixində Ermənistan silahlı qüvvələri cəbhənin Tovuz rayonu istiqamətində artilleriya qurğularından istifadə edərək atəşkəs rejimini kobud şəkildə pozmuş, qəfil və xain hücum həyata keçirmişdir.

Azərbaycan Ordusunun əks-hücumu və cavab zərbələri nəticəsində Ermənistanın məkrli və çirkin hərbi təxribatının qarşısı alınmış və bundan sonra da qətiyyətlə alınacaqdır.

Bu hadisələr bir daha Ermənistanın hərbi-siyasi rəhbərliyinin riyakar, ölkənin isə təcavüzkar olduğunu nümayiş etdirdi. Bu gün hərbçilərlə yanaşı uşaq, qadın və yaşlı insanların hədəf seçilməsi Xocalı soyqırımını həyata keçirənlərin hələ də hazırkı Ermənistan rəhbərliyində təmsil olunduğunun bariz nümunəsidir.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərinə uyğun olaraq, ölkəmizin ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı çərçivəsində həll olunması ilə bağlı Türk Şurasının çağırışını və ədalətli mövqeyini alqışlayırıq.

Sizə möhkəm cansağlığı və işlərinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 iyul 2020-ci il*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizə şəxsən öz adımdan, İraq hökuməti və xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Bu fürsətdən istifadə edərək, iki dost ölkə və xalq arasında əməkdaşlıq və dərin dostluq əlaqələri olduğunu vurğulayır, zati-alinizə möhkəm cansağlığı, Azərbaycan hökumətinə və xalqına tərəqqi və rifah arzulayıram.

*Dərin hörmətlə,*

***Mustafa AL-KAZIMİ,***
***İraq Respublikasının Baş Naziri***

# Yaponiya XİN Ermənistan-Azərbaycan sərhədindəki qarşıdurma ilə əlaqədar narahatlığını ifadə edib

**İyulun 15-də Yaponiya Xarici İşlər Nazirliyi Ermənistan-Azərbaycan sərhədində qarşıdurma ilə əlaqədar bəyanat yayıb.**

AZƏRTAC xəbər verir ki, bu barədə Yaponiya Xarici İşlər Nazirliyindən agentliyin bu ölkədəki müxbir məntəqəsinə göndərilən məlumatda bildirilib.

Bəyanatın mətnində deyilir ki, Yaponiya Ermənistan-Azərbaycan sərhədində bu günlərdə baş verən qarşıdurma və insanların həlak olması ilə əlaqədar narahatlığını ifadə edir. Bütün münaqişə tərəflərini hərbi əməliyyatları dayandırmağa və maksimum təmkin nümayiş etdirməyə çağırır.

Sənəddə qeyd edilir ki, Ermənistan və Azərbaycan arasında münaqişənin yekun həlli Qafqaz regionunda sülh və sabitlik üçün mühüm əhəmiyyət kəsb edir.

Bununla yanaşı, Yaponiya ATƏT-in Minsk qrupunun həmsədrlərinin iki ölkə arasında münaqişənin həlli istiqamətində səylərini dəstəkləyir və problemin beynəlxalq hüququn prinsipləri əsasında sülh yolu ilə həllini gözləyir.

# Azərbaycan-Ukrayna Parlamentlərarası dostluq qrupu Ermənistanın hərbi təxribatını pisləyən bəyanat yayıb

Azərbaycan-Ukrayna Parlamentlərarası dostluq qrupunun deputatları Ermənistan silahlı qüvvələrinin Azərbaycanla sərhədinin Tovuz rayonu istiqamətində törətdiyi təxribatı pisləyən bəyanat yayaraq Ali Rada rəhbərliyinə və daimi komitələrə təqdim edib. AZƏRTAC xəbər verir ki, sənəddə Azərbaycanın öz suverenliyini və ərazi bütövlüyünü onun beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində müdafiə etdiyi bəyan olunur.

Bəyanatda Azərbaycan-Ermənistan sərhədində vəziyyətin gərginləşməsindən dərin narahatlıq ifadə edilir və tərəflər münaqişənin beynəlxalq hüququn qəbul olunmuş prinsip və normaları çərçivəsində həlli yollarını axtarmaqda davam etməyə çağırılır.

# Azərbaycan Respublikası Milli Məclisi Aparatının məlumatı

**Ötən gün axşam Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində gedən döyüşlərə dəstək məqsədilə keçirilən yürüşdə Şəhidlər xiyabanı və Azərbaycan Respublikasının Milli Məclisi qarşısına toplaşan yürüş iştirakçılarının bir qismi gecə saatlarında qeyri-qanuni olaraq parlamentin inzibati binasına daxil olub.**

Milli Məclisin birinci mərtəbəsinə toplaşan yürüş iştirakçıları bir sıra dağıntılar törədib və parlamentin mülkiyyətinə və inventarına ziyan vurub. Asayişi qoruyan polis əməkdaşları yürüş iştirakçılarını binanı tərk etməyə çağırıb və onlar Milli Məclisin binasından çıxarılıb.

Yürüş iştirakçıları polis tərəfindən Milli Məclisin inzibati binasından çıxarıldıqdan sonra Milli Məclisin Sədri Sahibə Qafarova yaranmış vəziyyətlə yerində tanış olub.

Azərbaycan Respublikasının Milli Məclisi olaraq xalqımıza, dövlətimizə, ordumuza dəstək yürüşünə ehtiramımızı və həssas yanaşdığımızı ifadə edirik. Orduya dəstək yürüşünü həyata keçirən vətəndaşlarımızın bir amal uğrunda birləşdiyi halda bəzi təxribatçıların dağıdıcılığa və ziyan vurmağa istiqamətlənən addımlarını qəti şəkildə pisləyirik. Bu çətin günlərdə dövlətin ali qanunverici orqanının binasına qanunsuz olaraq daxil olmaq və orada dağıntılar törətmək şəhidlərin müqəddəs ruhuna hörmətsizlikdir və qətiyyən yolverilməzdir.

Bu gün Ermənistan-Azərbaycan sərhədinin Tovuz rayonu istiqamətində döyüşlər getdiyi bir vaxtda, hamının bir nəfər kimi birlik nümayiş etdirdiyi bir zamanda xüsusi həssaslıq göstərilməsinin və ehtiyatlı davranmağın vacibliyini diqqətə çatdırırıq.

Azərbaycan Respublikası Milli Məclisi olaraq bildiririk ki, xalqımız, dövlətimiz, ölkəmizin ərazi bütövlüyü uğrunda müsəlləh olan ordumuzun, döyüşlərdə şəhid olan hərbçilərimizin və mülki əhalinin ruhu qarşısında məsuliyyət daşıyırıq.

***

Ötən gün axşam Azərbaycan Respublikasının Milli Məclisi qarşısına toplaşan yürüş iştirakçılarının bir qismi gecə saatlarında qeyri-qanuni olaraq parlamentin inzibati binasına daxil olub. Milli Məclisin birinci mərtəbəsinə toplaşan yürüş iştirakçıları bir sıra dağıntılar törədib, parlamentin əmlakına və inventarına ziyan vurublar.

Dağıntılar zamanı Azərbaycan Respublikasının Milli Məclisinə, ümumilikdə, 22150 AZN məbləğində maddi ziyan dəyib.

# Avropa Azərbaycanlıları Konqresi erməni silahlı qüvvələrinin təxribatı ilə bağlı bəyanat yayıb

**"Ermənistan silahlı qüvvələri atəşkəs rejimini kobud şəkildə pozaraq, artilleriya qurğularından istifadə etməklə Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində Azərbaycan silahlı qüvvələrinin mövqelərini atəşə tutub. Ermənistanın törətdiyi bu təxribat Avropa Azərbaycanlıları Konqresinin üzvlərini, Avropada yaşayan azərbaycanlılar icmasını sarsıdıb".**

AZƏRTAC xəbər verir ki, bu fikirlər Ermənistanın hərbi təxribat ilə bağlı Avropa Azərbaycanlıları Konqresinin (AAK) yaydığı bəyanatda yer alıb. Bəyanatda deyilir: Azərbaycanın dinc əhalisinə və mülki obyektlərinə yönəlmiş artilleriya zərbələri bir daha göstərir ki, Ermənistan dövləti təcavüzkar siyasəti ilə beynəlxalq hüquq normalarına məhəl qoymur, beynəlxalq humanitar hüququn və insan haqlarının, xüsusilə 1949-cu il Cenevrə konvensiyaları və ona 1 saylı Əlavə, həmçinin Uşaqların hüquqlarına dair və İnsan hüquqlarının müdafiəsi və fundamental azadlıqlara dair Konvensiyanı ciddi şəkildə pozmaqda davam edir.

Bəyanatda dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara, ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinə, Birləşmiş Millətlər Təşkilatına müraciət edilərək, təcavüzkara qarşı konkret addımlar atmağa, beynəlxalq hüquq normalarına uyğun sərt sanksiyalar tətbiq etməyə çağırış olunub.

Qeyd edilib ki, Ermənistan ordusu dinc sakinləri qətlə yetirməklə müharibə zamanı mülki əhalinin müdafiəsi haqqında Cenevrə Konvensiyasını kobud şəkildə pozur, dünyanın bu konvensiyaya imza atmış aparıcı ölkələri, o cümlədən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesində vasitəçilik missiyasını üzərinə götürmüş ATƏT-in Minsk qrupunun həmsədrləri - ABŞ, Fransa və Rusiya susmaqda davam edirlər. Beynəlxalq ictimaiyyətin erməni vəhşiliyinə göz yumması təcavüzkarın əl-qolunu daha da açır, törətdiyi cinayətlərin cəzasız qalması Ermənistan ordusunun Azərbaycanın daha çox dinc sakininin qətlə yetirməsinə səbəb olur.

"Bu ağır və çətin günlərdə sonsuz kədər və hiddətimizi ifadə edərək, həlak olanların ailələrinə, yaxınlarına, bütün Azərbaycan xalqına dərin hüznlə başsağlığı veririk. Bəyan edirik ki, Azərbaycan dövlətinin torpaqlarımızın işğaldan azad olunması, təcavüzkarın cəzalandırılması istiqamətində atdığı bütün addımları dəstəkləyirik. Əminik ki, Azərbaycan dövləti bu qanlı cinayəti törədənlərin layiqli cəzalarını alması üçün bütün zəruri tədbirləri görəcək", - deyə sənəddə vurğulanıb.

Bəyanatda dünyanın aparıcı, sivil, sülhpərvər dövlətləri, BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı kimi beynəlxalq təşkilatları dinc sakinlərin, qocaların, qadınların, körpə uşaqların qətlə yetirilməməsi üçün biganəlikdən əl çəkməyə, təcavüzkar Ermənistanın silahlı qüvvələrinin işğal olunmuş torpaqlardan çıxması üçün qəti addımlar atmağa çağırış edilib. Həmçinin bildirilib ki, regionda sülhün, sabitliyin, əmin-amanlığın təmin olunmasının yeganə yolu status-kvonun dəyişdirilməsi, Azərbaycan torpaqlarının işğaldan azad olunmasıdır.

# "Polis haqqında", "Avtomobil yolları haqqında", "Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında", "Dövlət qulluğu haqqında", "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında", "Psixiatriya yardımı haqqında", "Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qısaldılmış iş vaxtı haqqında", "Narkoloji xidmət və nəzarət haqqında", "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Dövlət rüsumu haqqında", "İcra haqqında", "Gənclər siyasəti haqqında", "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" və "Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin icbari sığortası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** "Polis haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 11, maddə 611; 2001, № 11, maddə 699, № 12, maddə 731; 2002, № 3, maddə 118, № 6, maddə 328; 2003, № 1, maddə 22, № 8, maddə 424; 2004, № 2, maddə 57, № 3, maddə 133; 2006, № 2, maddələr 74, 75, № 11, maddə 927; 2007, № 8, maddə 756; 2008, № 4, maddə 251, № 7, maddə 602, № 8, maddə 696, № 10, maddə 883; 2009, № 6, maddələr 399, 401; 2010, № 2, maddə 74, № 3, maddə 171; 2014, № 2, maddə 87, № 11, maddə 1360; 2015, № 5, maddə 486, № 11, maddə 1277, № 12, maddə 1444; 2016, № 2 (I kitab), maddələr 197, 216, № 3, maddə 400, № 5, maddə 838; 2017, № 10, maddə 1770; 2018, № 1, maddə 15, № 7 (I kitab), maddə 1426) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 23-cü maddənin I hissəsinin 7-ci bəndində "əlillərə" sözü "əlilliyi olan şəxslərə" sözləri ilə əvəz edilsin;

1.2. 27-ci maddənin birinci hissəsinin 2-ci bəndinə "əlilliyi," sözündən sonra "o cümlədən" sözləri əlavə edilsin və həmin bənddə "qüsurları" sözü "pozuntuları" sözü ilə əvəz edilsin.

**Maddə 2.** "Avtomobil yolları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 125; 2001, № 12, maddələr 731, 736; 2004, № 11, maddə 901; 2006, № 6, maddə 478; 2007, № 5, maddə 436, № 10, maddə 938; 2008, № 5, maddə 348, № 7, maddə 602; 2012, № 6, maddə 506; 2013, № 6, maddələr 599, 624; 2014, № 4, maddə 341, № 7, maddə 775; 2016, № 2 (I kitab), maddə 200, № 12, maddələr 1994, 1995; 2017, № 5, maddə 720; № 12 (I kitab), maddə 2229; 2018, № 1, maddə 20, № 11, maddə 2223; 2019, № 1, maddə 11, № 6, maddə 989, № 7, maddə 1183) 2-ci maddəsinin üçüncü hissəsində "əlillərin, sağlamlıq imkanları məhdud uşaqların" sözləri "əlilliyi olan şəxslərin, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların" sözləri ilə əvəz edilsin.

**Maddə 3.** "Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 7, maddə 484; 2001, № 12, maddə 736; 2002, № 6, maddə 328; 2005, № 12, maddə 1093; 2008, №7, maddə 602; 2016, № 4, maddə 649; 2017, № 7, maddə 1283; 2018, № 3, maddə 372) 4-cü maddəsinin birinci hissəsinin beşinci abzasında "əlillərin və ya sağlamlıq imkanları məhdud uşaqların" sözləri "əlilliyi olan şəxslərin, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların" sözləri ilə və altıncı abzasında "əlillər və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslər" sözləri "əlilliyi olan şəxslər, o cümlədən sağlamlıq imkanları  məhdud 18 yaşınadək uşaqlar" sözləri ilə əvəz edilsin.

**Maddə 4.** "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 1, № 3, maddə 131; 2002, № 12, maddə 693; 2003, № 1, maddə 16; 2004, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, № 11, maddə 884; 2005, № 6, maddələr 463, 475, № 10, maddə 874; 2006, № 5, maddə 386, № 6, maddə 479, № 8, maddə 657, № 11, maddə 927, № 12, maddələr 1005, 1014; 2007, № 2, maddə 83, № 5, maddələr 434, 436, № 7, maddə 711, № 10, maddə 934, № 11, maddələr 1049, 1074, 1078, № 12, maddələr 1213, 1219; 2008, № 3, maddə 153, № 5, maddələr 326, 341, № 6, maddələr 471, 481, № 7, maddə 602, № 8, maddə 699, № 10, maddə 881; 2009, № 2, maddə 54, № 5, maddə 311, № 6, maddə 403, № 10, maddə 771, № 11, maddə 878, № 12, maddə 964; 2010, № 4, maddə 276; 2011, № 2, maddə 71, № 3, maddə 165, № 6, maddə 463; 2012, № 5, maddə 413, № 10, maddə 945, № 11, maddə 1049; 2015, № 1, maddə 9, № 5,  maddə 488, № 10, maddə 1100; 2016, № 8, maddə 1365, № 11, maddələr 1760, 1782, 1785; 2017, № 5, maddə 726, № 6, maddə 1054, № 7, maddə 1267, № 8, maddə 1513, № 11, maddə 1974, № 12 (I kitab), maddə 2192; 2018, № 2, maddələr 158, 159, № 3, maddə 392, № 5, maddələr 864, 880, № 6, maddə 1191, № 7 (I kitab), maddələr 1383, 1428; 2019, № 1, maddə 8) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 19.0.14-cü maddəyə "əlilliyi," sözündən sonra "o cümlədən" sözləri əlavə edilsin;

4.2. 23.3-cü maddədə "və ya" sözləri ", o cümlədən" sözləri ilə əvəz edilsin.

**Maddə 5.** "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikası Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 442; 2008, № 7, maddə 602; 2011, № 2, maddə 71; 2015, № 2, maddə 83; 2017, № 7, maddə 1258; 2019, № 5, maddə 797) aşağıdakı dəyişikliklər edilsin:

5.1. 5-ci maddə üzrə:

5.1.1. 5.0.1-ci maddədə "tibbi-sosial ekspert komissiyasında" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda)" sözləri ilə əvəz edilsin;

5.1.2. 5.0.3-cü maddədə "təhsilin müvafiq tədris proqramları üzrə" sözləri "təhsil proqramları və fərdi tədris planı əsasında" sözləri ilə əvəz edilsin;

5.2. 6.1.3-cü maddədə "fərdi tədris proqramları" sözləri "xüsusi təhsil proqramları və fərdi tədris planı" sözləri ilə əvəz edilsin;

5.3. 10-cu maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"Sağlamlıq imkanları məhdud şəxslərin stasionar müəssisələrdə olduqları dövrdə təhsili "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 19-cu maddəsinə uyğun olaraq təşkil edilir.";

5.4. 11.1-ci və 16-cı maddələrdə "tibbi-sosial ekspert komissiyasının" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun)" sözləri ilə əvəz edilsin;

5.5. 13.3-cü maddədə "Tədris" sözü "Təhsil" sözü ilə əvəz edilsin;

5.6. 15-ci maddə üzrə:

5.6.1. 15.2-ci maddədə "fərdi təhsil proqramları üzrə" sözləri "xüsusi təhsil proqramları və fərdi tədris planı əsasında" sözləri ilə əvəz edilsin;

5.6.2. 15.3-cü maddədə "fərdi və qrup təlim proqramlarına" sözləri "xüsusi təhsil proqramlarına və fərdi tədris planına" sözləri ilə əvəz edilsin;

5.7. 21-ci maddə üzrə:

5.7.1. adından "və tibbi-sosial ekspert komissiyası" sözləri çıxarılsın;

5.7.2. 21.3.4-cü maddədə "təlim" sözü "tədris" sözü ilə əvəz edilsin;

5.7.3. 21.7-ci maddədə "tibbi-sosial ekspert komissiyası" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

5.7.4. 21.8-ci maddədə "və tibbi-sosial ekspert komissiyası barədə Əsasnamələr" sözləri "barədə Əsasnamə" sözləri ilə əvəz edilsin;

5.8. 22.1-ci və 22.2-ci maddələrdə "tibbi-sosial ekspert komissiyası" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

5.9. 23.2-ci maddədə "sağlamlıq imkanları məhdud şəxslərin sağlamlığının mühafizəsinə, onların çatışmazlıqlarının korreksiyasına, sosial adaptasiyasına, tibbi-sosial reabilitasiyasına, əlilliyin, uşaqların sağlamlıq imkanları məhdudluğunun profilaktikasına yönəldilmiş birgə" sözləri "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq" sözləri ilə əvəz edilsin.

**Maddə 6.** "Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 569; 2011, № 11, maddə 990; 2012, № 5, maddə 407; 2016, № 4, maddə 659) aşağıdakı dəyişikliklər edilsin:

6.1. 9.1-ci maddənin ikinci cümləsində "tibbi-sosial ekspert komissiyası" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

6.2. 15.0.3-cü maddədə ikinci halda "və ya" sözləri ", o cümlədən" sözləri ilə əvəz edilsin;

6.3. 23.1.4-cü maddədə "uşaqlar üçün xüsusi proqram üzrə" sözləri "18 yaşınadək uşaqlar üçün xüsusi təhsil proqramları və fərdi tədris planı əsasında" sözləri ilə əvəz edilsin.

**Maddə 7.** "Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qısaldılmış iş vaxtı haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 575; 2008, № 7, maddə 602; 2017, № 1, maddə 17) 2-ci maddəsində "II qrup əlillərə," sözləri "II dərəcə əlilliyi olan şəxslərə, o cümlədən" sözləri ilə, "şəxslərə" sözü "uşaqlara" sözü ilə əvəz edilsin.

**Maddə 8.** "Narkoloji xidmət və nəzarət haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 577; 2002, № 5, maddə 240; 2003, № 12 (I kitab), maddə 697; 2007, № 6, maddə 560, № 10, maddə 938; 2008, № 7, maddə 602; 2012, № 4, maddə 281; 2014, № 11, maddə 1372; 2015, № 11, maddə 1272; 2018, № 5, maddə 885; № 11, maddə 1684) 16.5-ci, 18.0.9-cu və 22.1-ci maddələrində "və ya" sözləri ", o cümlədən" sözləri ilə əvəz edilsin.

**Maddə 9.** "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 452, № 12, maddə 731; 2002, № 12, maddə 706; 2005, № 10, maddə 902; 2006, № 11, maddə 927; 2007, № 1, maddələr 1, 4, № 2, maddə 82, № 6, maddə 570, № 8, maddə 756, № 11, maddələr 1078, 1081; 2008, № 3, maddə 155, № 4, maddə 250, № 8, maddə 696; 2009, № 6, maddə 399, № 11, maddələr 877, 878; 2010, № 3, maddə 171, №11, maddə 944; 2011, № 2, maddə 71, № 11, maddə 988; 2012, № 11, maddə 1039; 2014, № 3, maddə 238; 2016, № 2 (I kitab), maddə 193, № 6, maddələr 982, 1018; 2017, № 7 (I kitab), maddə 2243; 2018, № 3, maddə 397, № 12, maddə 2473) 20.13-cü maddəsinin ikinci hissəsinin birinci cümləsində "əlil olması" sözləri "əlilliyinin müəyyən edilməsi" sözləri ilə əvəz edilsin.

**Maddə 10.** "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740; 2002, № 12, maddə 706; 2003, № 1, maddə 23, № 8, maddə 428, № 12 (I kitab), maddələr 676, 698; 2005, № 1, maddə 1, № 6, maddə 462, № 8, maddə 684, № 10, maddələr 873, 905, № 12, maddə 1083; 2006, № 3, maddələr 223, 225, № 6, maddə 481, № 12, maddələr 1015, 1029; 2007, № 2, maddə 80, № 12, maddə 1203; 2008, № 3, maddə 158, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1047; 2009, № 1, maddə 5, № 2, maddə 56, № 3, maddə 160, № 7, maddə 519, № 12, maddə 947; 2010, № 4, maddə 276, № 6, maddə 485, № 10, maddə 840, № 11, maddə 939; 2011, № 1, maddə 12, № 4, maddələr 245, 264, № 11, maddə 985, № 12, maddə 1100; 2012, № 1, maddə 4, № 6, maddələr 508, 518, № 7, maddə 646, № 10, maddə 947, № 12, maddələr 1216, 1227, 1229; 2013, № 3, maddə 213, № 5, maddə 474, № 11, maddələr 1269, 1279, 1299, 1301, 1308, № 12, maddələr 1485, 1504; 2014, № 1, maddə 6, № 5, maddə 468, № 6, maddələr 603, 605, № 7, maddələr 774, 780, № 11, maddələr 1345, 1370; 2015, № 12,  maddə 1432; 2016, № 1, maddələr 15, 36, № 4, maddə 630, № 5, maddə 849, № 6, maddə 1014, № 10, maddə 1605, № 11, maddələr 1753, 1776, 1780, 1790, № 12, maddələr 2006, 2051; 2017, № 3, maddələr 337, 341, № 5, maddə 742, № 6, maddə 1028, № 7, maddə 1308, № 8, maddə 1506, № 12 (I kitab), maddə 2265; 2018, № 3, maddə 405, № 4, maddələr 639, 647, № 6, maddələr 1186, 1194, № 7 (I kitab), maddələr 1415, 1444, № 8, maddə 1675, № 12 (I kitab), maddə 2489; 2019, № 1, maddə 45, № 4, maddələr 571, 596, № 5, maddə 797, № 7, maddələr 1176, 1181, 1190, 1192, № 8, maddələr 1360, 1363, 1371, № 11, maddələr 1681, 1694) 11.1.3-cü maddəsində "birinci qrup işləməyən əlillər," sözləri "birinci dərəcə əlilliyi olan işləməyən şəxslər, o cümlədən" sözləri ilə və "şəxslər" sözü "uşaqlar" sözü ilə əvəz edilsin.

**Maddə 11.** "İcra haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 3, maddə 114; 2003, № 6, maddə 277; 2004, № 8, maddə 598, № 11, maddə 901, № 12, maddə 973; 2007, № 1, maddə 3, № 6, maddə 562, № 11, maddə 1053; 2008, № 6, maddə 462, № 7, maddə 602; 2009, № 12, maddə 952; 2010, № 2, maddə 75, № 7, maddə 591; 2011, № 6, maddə 482, № 7, maddə 618; 2012, № 11, maddə 1052; 2013, № 6, maddə 613, № 7, maddə 787, № 12, maddə 1494; 2015, № 12, maddə 1434; 2016, № 12, maddə 2050; 2017, № 2, maddə 156, № 6, maddə 1056, № 8, maddə 1511; 2018, № 2, maddə 151, № 5, maddələr 853, 867, № 7 (I kitab), maddə 1424, № 8, maddə 1674, № 12 (I kitab), maddə 2528; 2019, № 1, maddə 21, № 2, maddə 203, № 6, maddə 999) 68.1.3-cü maddəsində "birinci qrup əlillərə və" sözləri "birinci dərəcə əlilliyi olan şəxslərə, o cümlədən" sözləri ilə əvəz edilsin və "uşaqlara" sözündən əvvəl "18 yaşınadək" sözləri əlavə edilsin.

**Maddə 12.** "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 231; 2007, № 8, maddə 746; 2010, № 3, maddə 171; 2019, № 4, maddə 582, № 8, maddə 1382, № 11, maddə 1684) 1.0.6-cı maddəsində "əlil və" sözləri "əlilliyi olan, o cümlədən" sözləri ilə əvəz edilsin.

**Maddə 13.** "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 2, maddə 54; 2008, № 7, maddə 602; 2016, № 4, maddə 648) 5.1-ci maddəsində "və ya" sözləri ", o cümlədən" sözləri ilə əvəz edilsin.

**Maddə 14.** "Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin icbari sığortası haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 7, maddə 506; 2006, № 3, maddə 223; 2007, № 6, maddə 560; 2008, № 6, maddə 462, № 11, maddə 960; 2014, № 4, maddə 336; 2015, № 4, maddə 351; 2019, № 1, maddə 36) aşağıdakı dəyişikliklər edilsin:

14.1. 8-ci maddə üzrə:

14.1.1. 8.1.2-ci, 8.1.3-cü və 8.1.4-cü maddələrdə "qrup" sözü "dərəcə" sözü ilə əvəz edilsin;

14.1.2. 8.1.5-ci maddədə "qrupu təyin olunmadan" sözləri "dərəcəsi müəyyən edilmədən" sözləri ilə əvəz edilsin;

14.2. 11.1.2.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"11.1.2.1. "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 3.1-ci maddəsinə uyğun olaraq qəbul edilmiş qərarın surəti;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 may 2020-ci il*

# "Polis haqqında", "Avtomobil yolları haqqında", "Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında", "Dövlət qulluğu haqqında", "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında", "Psixiatriya yardımı haqqında", "Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qısaldılmış iş vaxtı haqqında", "Narkoloji xidmət və nəzarət haqqında", "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Dövlət rüsumu haqqında", "İcra haqqında", "Gənclər siyasəti haqqında", "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" və "Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin icbari sığortası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 19 may tarixli 110-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2001-ci il 19 iyul tarixli 540 nömrəli, "Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2001-ci il 3 sentyabr tarixli 574 nömrəli və "Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin icbari sığortası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2004-cü il 19 iyul tarixli 88 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Polis haqqında", "Avtomobil yolları haqqında", "Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında", "Dövlət qulluğu haqqında", "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında", "Psixiatriya yardımı haqqında", "Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qısaldılmış iş vaxtı haqqında", "Narkoloji xidmət və nəzarət haqqında", "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Dövlət rüsumu haqqında", "İcra haqqında", "Gənclər siyasəti haqqında", "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" və "Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin icbari sığortası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 19 may tarixli 110-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikası Qanununun 5.0.1-ci, 11.1-ci, 16-cı, 21.7-ci, 22.1-ci və 22.2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 5.0.1-ci, 11.1-ci, 16-cı, 21.7-ci, 22.1-ci və 22.2-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;

1.3. "Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikası Qanununun 9.1-ci maddəsinin ikinci cümləsində (ikinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.4. həmin Qanunun 9.1-ci maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur.

2. "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyul tarixli 540 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 477; 2012, № 12, maddə 1270; 2017, № 7, maddə 1330; 2018, № 10, maddə 2019) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1-ci bənd 2.1-1-ci bənd hesab olunsun və həmin bənddə "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikası Qanununun" sözləri "həmin Qanunun" sözləri ilə əvəz edilsin;

2.2. aşağıdakı məzmunda 2.1-ci bənd əlavə edilsin:

"2.1. "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikası Qanununun 5.0.1-ci, 11.1-ci, 16-cı, 21.7-ci, 22.1-ci və 22.2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;";

2.3. 2.2-ci bənddən "10.2-ci," sözləri çıxarılsın;

2.4. 2.3-cü bənddən "10.1-ci," sözləri çıxarılsın;

2.5. 2.5-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.6-cı bənd əlavə edilsin:

"2.6. həmin Qanunun 5.0.1-ci, 11.1-ci, 16-cı, 21.7-ci, 22.1-ci və 22.2-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur.".

3. "Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 574 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 589; 2008, № 9, maddə 798) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. ikinci - beşinci abzaslar müvafiq olaraq üçüncü - altıncı abzaslar hesab olunsun və aşağıdakı məzmunda ikinci abzas əlavə edilsin:

"Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikası Qanununun 9.1-ci maddəsinin ikinci cümləsində (ikinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;";

3.2. üçüncü abzasda "Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikası Qanununun 9.1-ci və 9.2-ci maddələrində " sözləri "həmin Qanunun 9.1-ci maddəsinin ikinci cümləsində (birinci halda) və 9.2-ci maddəsində" sözləri ilə əvəz edilsin;

3.3. altıncı abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda yeddinci abzas əlavə edilsin:

"həmin Qanunun 9.1-ci maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur.".

4. "Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin icbari sığortası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 19 iyul tarixli 88 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 7, maddə 527) 2.2-ci bəndi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 iyul 2020-ci il*

# "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 7-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 405; 2001, № 11, maddələr 689, 690, № 12, maddə 736; 2002, № 5, maddə 242; 2003, № 1, maddələr 11, 16, № 6, maddə 256; 2004, № 1, maddə 10, № 4, maddə 202, № 5, maddə 314, № 6, maddə 397; 2005, № 2, maddə 62; 2006, № 2, maddə 67, № 11, maddə 923, № 12, maddə 1005; 2007, № 11, maddələr 1053, 1082; 2008, № 5, maddə 354; 2009, № 6, maddə 410; 2010, № 3, maddə 173, № 4, maddələr 275, 276; 2011, № 2, maddə 71, № 12, maddə 1074; 2012, № 6, maddə 523; 2014, № 8, maddə 956, № 11, maddə 1376; 2015, № 2, maddələr 77, 88, № 5, maddə 485; 2017, № 1, maddə 3, № 5, maddə 707; 2018, № 1, maddə 28, № 11, maddələr 2196, 2218; 2019, № 8, maddə 1370) 48-ci maddəsinin 1-ci hissəsinin ikinci cümləsində "15 gündən" sözləri "5 iş günündən" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 iyun 2020-ci il*




# Ermənistan və onun havadarları deyilənlərdən nəticə çıxarmalıdırlar

*Əvvəli 1-ci səh.*

Gah Rusiyaya yalmanır, gah Qərbə yaltaqlanır...

Özündən olsa "hiyləgər siyasət" aparır.

Artıq hər şey onun əleyhinə işləyir: atdığı yanlış addımlardan tutmuş koronavirus pandemiyası və dalana dirənmiş iqtisadiyyata qədər.

Lakin yenə də erməni həyasızlığından əl çəkmir: "Qarabağ Ermənistandır nöqtə" deməklə "ümumxalq məhəbbəti" qazanmağa çalışır.

Şuşada "andiçmə" mərasimi keçirir.

İşğal ərazilərində məskunlaşdırma aparır.

Əslində, bütün bunlar münaqişənin həllini sülh danışıqları müstəvisindən çıxararaq müharibəyə aparır!

Azərbaycan Prezidenti Paşinyanın iştirak etdiyi məclislərdə:

■ Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunda;

■ Aşqabadda MDB Dövlət Başçıları Şurasının məhdud tərkibli iclasında;

■ Münxen Təhlükəsizlik Konfransında çıxış edərək onun və bütövlükdə Ermənistanın faşist və işğalçı simasını ifşa etdi!

*Axırının çatdığını yaxşı anlayan Paşinyan özünü xilas etmək üçün "yeni hiyləgər plan"a əl ataraq iyulun 12-də Azərbaycanın Tovuz bölgəsinə hücum etdi.*

Məqsədi KTMT-ni - Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını öz tərəfindən münaqişəyə cəlb etməkdir.

Ağılsızlığın bir əlaməti də özünü hamıdan ağıllı saymaqdır...

❖❖❖

**Prezident İlham Əliyevin Təhlükəsizlik Şurasının iclasındakı sərt və qətiyyətli çıxışı hamının ürəyindən oldu.**

Ali Baş Komandan Ermənistanın təxribatından, ordumuzun ona verdiyi cavabdan ətraflı danışdı, bir daha Azərbaycanın qətiyyətli mövqeyini ortaya qoydu:

*"Bu çirkin və məkrli siyasət Ermənistanı uçuruma aparacaq. Bütün məsuliyyət Ermənistanın rəhbərliyi üzərinə düşür. Azərbaycan öz ərazi bütövlüyünü bundan sonra da qoruyacaq, öz sərhədlərini qoruyacaq".*

*"Azərbaycan heç vaxt işğal edilmiş torpaqların bu vəziyyətdə qalması ilə barışmayacaq, işğalla barışmayacaq və əlindən gələni edəcək ki, öz ərazi bütövlüyünü bərpa etsin".*

*"Əgər Ermənistan öz ərazisindən Azərbaycan kəndlərinə atəş açırsa, təbii ki, biz adekvat cavab verəcəyik və veririk".*

*"Düşmənə adekvat cavab verilib. Hərbçilərimizin qisası alınıb, bundan sonra da alınacaqdır. Hərbçilərimizin, şəhidlərimizin qanı yerdə qalmayıb və qalmayacaq".*

Azərbaycan xalqı şəhid olmuş balalarını böyük hörmət və ehtiramla son mənzilə yola saldı!

Xalq dövlət başçısı, Ali Baş Komandanın ətrafında daha sıx birləşdiyini bir daha nümayiş etdirdi!

Azərbaycan Ordusu yenə də öz gücünü və qüdrətini nümayiş etdirdi!

Azərbaycan gəncləri dəstək yürüşü keçirərək torpaqların işğaldan azad edilməsi uğrunda döyüşə hər an atılmağa hazır olduğunu söylədi!

**12 iyul döyüşləri Aprel savaşı və Günnüt əməliyyatında olduğu kimi, Ali Baş Komandana ümumxalq məhəbbətinin növbəti təsdiqinə çevrildi!**

**İlham Əliyevin rəhbərliyi ilə iqtisadi cəhətdən güclü, hərbi cəhətdən qüvvətli olan və düşünülmüş siyasət yürüdən Azərbaycan tezliklə işğaldakı torpaqlarını da azad edəcəkdir!**

**Bəxtiyar SADIQOV**

VƏTƏN SƏNƏ OĞUL DEYİR

# Şəhid zabitlərimizlə vida mərasimi keçirilib

Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində gedən şiddətli döyüşlər zamanı iyulun 14-də müdafiənin ön xəttində olarkən qəhrəmancasına şəhid olan general-mayor Polad Həşimov və polkovnik İlqar Mirzəyev ilə vida mərasimi keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, İkinci Fəxri xiyabanda keçirilən vida mərasimində Müdafiə naziri, general-polkovnik Zakir Həsənov, Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin Sadıkov, Prezident Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdir müavini, general-leytenant Yaşar Əliyev, Prezident Administrasiyasının Silahlı Qüvvələrlə iş sektorunun müdiri, general-leytenant Elşad Babayev, Müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin Komandanı, general-leytenant Ramiz Tahirov, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, ictimaiyyətin nümayəndələri, mərhum zabitlərimizin xidmət yoldaşları şəhidlərimizin ailə üzvlərinə və yaxınlarına başsağlığı veriblər.

Mərasimdə çıxış edən polkovnik Abdulla Qurbani general-mayor Polad Həşimovun və polkovnik İlqar Mirzəyevin həyat və döyüş yolları barədə məlumat verib.



Hərbi orkestrin ifasında Azərbaycan Respublikasının Dövlət himninin sədaları altında şəhidlərimiz əsgəri ənənələrə uyğun olaraq yaylım atəşləri altında son mənzilə yola salınıb.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev mərasim zamanı telefon vasitəsilə şəhid hərbi qulluqçularımızın ailə üzvlərinə dərin hüznlə başsağlığı verib.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhidlərimizin ailə üzvlərinə və mərasimin bütün iştirakçılarına şəhidlərimizin qanının yerdə qalmadığını və bundan sonra da qalmayacağını bildirib.

Müdafiə naziri şəhidlərimizin tabutu üzərindəki üçrəngli Azərbaycan bayrağını əbədi xatirə qalması üçün onların ailələrinə təqdim edib. General-mayor Polad Həşimovun qardaşı İlham Həşimov və polkovnik İlqar Mirzəyevin oğlu Elvin Mirzəyev Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə vida mərasiminin yüksək səviyyədə təşkil olunduğuna görə dərin minnətdarlıqlarını bildiriblər.

Elvin Mirzəyev atasının yolunu davam etdirərək zabit kimi Azərbaycan Ordusu sıralarına qatılacağına, atasının və bütün şəhidlərimizin qisasını alacağına söz verib.

# Masallı gəncləri şəhid mayor Anar Novruzovun məzarını ziyarət ediblər



İyulun 15-də Masallı gənclərindən bir qrupu rayonda tətbiq edilən sərtləşdirilmiş karantin rejiminin tələblərinə riayət etməklə Ərkivan qəsəbəsində dəfn edilən mayor Anar Novruzovun məzarını ziyarət ediblər. AZƏRTAC xəbər verir ki, rayonun gəncləri erməni təxribatının qurbanı olan Azərbaycan Ordusunun zabitinin məzarı önünə gül dəstələri düzərək ona hörmət və ehtiramlarını bildiriblər.

Qeyd edək ki, iyulun 13-dən 14-nə keçən gecə və səhər saatlarında Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində gedən şiddətli döyüşlər zamanı düşmənin hücumunun qarşısını alarkən Azərbaycan Ordusunun mayoru Anar Novruzov qəhrəmancasına şəhid olub. O, iyulun 14-də Masallı rayonunun Ərkivan qəsəbəsində torpağa tapşırılıb. 44 yaşı olan zabitin iki övladı var.

# Azərbaycan Ordusu düşmənin mövqelərinə ağır zərbələr vurub



Tovuz rayonu istiqamətində mövqelərimizi və yaşayış məntəqələrimizi atəşə tutan düşmən bölmələrinin digər uzunmüddətli atəş nöqtəsi də bölmələrimiz tərəfindən yerlə-yeksan edilib.

Bu barədə Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat veriblər.

***

Ermənistan silahlı qüvvələrinin bölmələrinin cəbhənin Tovuz rayonu istiqamətindəki mövqelərimizi və yaşayış məntəqələrimizi atəşə tutduqdan sonra Naxçıvan Muxtar Respublikasının sərhədyanı bölgələrində düşmənin aktivləşməsi və ara-sıra atəşkəs rejiminin pozulması halları müşahidə olunur.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən bildiriblər ki, düşmən bölmələri iyulun 14-də saat 22:15-dən saat 23:55-dək və iyulun 15-də saat 01:20-dən başlayaraq səhər saatlarınadək iriçaplı müxtəlif silahlardan istifadə etməklə Şərur, Babək və Ordubad rayonları istiqamətində atəşkəs rejimini pozub. Düşmən cavab atəşi ilə susdurulub. Ermənistan silahlı qüvvələrinin bölmələrini Naxçıvan istiqamətində atəşləri dayandırmasına vadar etmək və cəza tədbirləri məqsədilə komanda müşahidə məntəqəsinə hərəkət edən hərbi nəqliyyat vasitəsi bölmələrimizin sərrast atışı ilə məhv edilib.



Əməliyyat şəraiti qoşunlarımızın tam nəzarətindədir.

***

Düşmənə qarşı görülən cəza tədbirləri nəticəsində Ermənistan silahlı qüvvələrinin bölmələrindən birinin səhra idarəetmə məntəqəsi bölmələrimizin dəqiq atəşi ilə məhv edilib.

Bu barədə Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat veriblər.

***

İyulun 14-də Tovuz rayonu istiqamətində gedən döyüşlər zamanı Ermənistan silahlı qüvvələrinin daha bir hərbi obyekti - bölüyün dayaq məntəqəsi bölmələrimizin dəqiq zərbəsi ilə darmadağın edilib.

Bu barədə Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat veriblər.

***

Cəbhədəki vəziyyətlə bağlı sosial şəbəkələrdə və mobil əlavələr vasitəsilə həqiqətə uyğun olmayan, əsassız məlumatlar yayırlar. Bildiririk ki, hazırda Tovuz rayonu istiqamətində nisbi sakitlikdir. Bir daha bütün media nümayəndələrini və sosial şəbəkə istifadəçilərini heç bir əsası olmayan təxribat xarakterli məlumatları yaymamağa, yalnız Müdafiə Nazirliyinin rəsmi məlumatlarına istinad etməyə çağırırıq.

Bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat veriblər.

***AZƏRTAC***



# Azərbaycanı anarxiyaya sürükləmək mümkün deyil

*Əvvəli 1-ci səh.*

Son illərdə həyata keçirilən genişmiqyaslı hərbi modernləşmə tədbirlərinin, ən müasir silah və texnikanın ordumuzun arsenalına daxil edilməsinin nəticəsidir ki, Azərbaycan Silahlı Qüvvələrinin potensialı istənilən şəraitdə, istənilən zaman kəsiyində uğurlu döyüş əməliyyatını aparmağa imkan verir. Tovuz istiqamətində düşmənin qəflətən etdiyi hücumun qarşısının dərhal alınması da bunu təsdiq edir. Görünən odur ki, düşmən bu xain planını həyata keçirmək üçün əvvəldən ciddi hazırlaşıb. Lakin elə hücumun ilk anlarından ordumuzun sarsıdıcı cavabı ilə bu plan alt-üst edildi və Ermənistan ordusu geri qaçmağa məcbur oldu.

Tovuz istiqamətində baş verən hərbi toqquşmanın təsdiq etdiyi başqa bir reallıq Azərbaycan Ordusunun şəxsi heyətinin yüksək döyüş əzmində olması, generaldan əsgərədək hər bir hərbi qulluqçunun mübarizliyi, yüksək vətənpərvərliyidir. Elə buna görədir ki, qəhrəman vətən övladları torpaq uğrunda canlarını fəda etdilər, şəhidlik zirvəsinə ucaldılar. Ermənistan ordusuna qarşı həyata keçirilən hərbi əməliyyatlar həm də onu göstərdi ki, Azərbaycan Ordusunun generalları, yüksək rütbəli hərbçiləri əsgərlərlə birlikdə döyüş meydanlarındadır. Bir daha sübut olundu ki, Azərbaycan Ordusunun generalı tabeliyində olan hərbçilərdən özünü fərqləndirmir və qarşıda duran tapşırığı yerinə yetirmək, doğma torpağını müdafiə etmək üçün öz canını hər an qurban verməyə hazırdır.

Azərbaycan Ordusunun Ermənistanın hücumunun qarşısını almaq üçün həyata keçirdiyi hərbi əməliyyat həm də bütövlükdə cəmiyyətimizdəki yüksək vətənpərvərlik ab-havasını nümayiş etdirdi. Bunu Azərbaycan Ordusuna dəstək məqsədilə keçirilmiş aksiyalar da təsdiqləyir. Aksiya iştirakçılarının vətənpərvərliyi, onların səfərbərlik elan olunmaq istəyi, ordu sıralarında qulluq etmək niyyəti qürurverici haldır.

## Orduya dəstək aksiyasından çirkin məqsədlər üçün istifadə edildi

Ordumuza dəstək hər bir vətəndaşın borcudur və bu məqsədlə müxtəlif tədbirlərin, aksiyaların keçirilməsi vətənpərvərlik hissindən irəli gəlir. Könüllü olaraq cəbhə bölgəsinə gedərək döyüşmək və lazımi kömək göstərmək istəyən vətəndaş tərəfindən dövlət orqanlarına da çoxsaylı müraciətlərin olunması bunun təsdiqidir. Belə tədbirlər göstərir ki, Azərbaycan xalqı torpaqlarının işğalı faktı ilə heç vaxt barışmayacaq və bu mübarizədə ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin yürütdüyü siyasəti dəstəkləyir.

Lakin təəssüflə qeyd etməliyik ki, Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində gedən döyüşlərdə ordumuza dəstək məqsədilə iyulun 14-ü axşam saatlarında Bakıda keçirilən yürüşə bir qrup təxribatçı tərəfindən sonradan siyasi məzmun verməyə, onu nəzarətdən çıxarmağa, neqativ emosiyaların formalaşdırılmasına cəhdlər edildi. Belə ki, Şəhidlər xiyabanının və Milli Məclisin qarşısına toplaşanların arasından bir qrup gecə saatlarında parlamentin inzibati binasına daxil oldu. Milli Məclisin birinci mərtəbəsinə, foyesinə daxil olan təxribatçılar inzibati binada dağıntılar törədib, inventara ziyan vurdular. Polis əməkdaşlarının vaxtında müdaxiləsi nəticəsində bu hərəkətin qarşısı alındı və aksiya iştirakçıları parlamentin binasından çıxarıldılar.

Eyni zamanda təxribat və iğtişaş yaratmaq istəyən qrup asayişi təmin edən polislərin istifadə etdikləri avtomobillərə ciddi ziyan vuraraq, onları yararsız hala saldı. Baş Prokurorluğun və Daxili İşlər Nazirliyinin Mətbuat xidmətlərinin bununla bağlı məlumatında deyilir: "Təəssüflər olsun ki, dinc və vətənpərvər ruhda keçən bu aksiya zamanı bir qrup təxribatçı ictimai qaydanın kobud surətdə pozulmasına səbəb olan hərəkətlərə yol vermiş, aksiyanın təhlükəsizliyini təmin edən polis əməkdaşlarına müqavimət göstərmiş və zor tətbiq etmiş, nəticədə bir neçə polis əməkdaşına müxtəlif dərəcəli bədən xəsarətləri yetirilmiş, xidməti avtomobillərə ciddi ziyan vurulmuşdur".

## Təxribatçı əməllərin hüquqi qiyməti veriləcək

Sərhəd zonasında hərbi əməliyyatların hələ də səngiməmədiyi, gərginliyin davam etdiyi bir vaxtda bir qrup şəxsin Bakının küçələrində iğtişaş yaratmaq cəhdləri, sosial şəbəkələrdə yalan informasiyaların yayılması, Milli Məclisin binasına girərək vandallıq törətməsi, polislərə qarşı zor tətbiq olunması vətəndaşlıq mövqeyinə və qanunlara ziddir, ən əsası, şəhidlərin xatirəsinə hörmətsizlikdir. Azərbaycan Respublikası Milli Məclisi Aparatının məlumatında baş verənlər pislənilir: "Azərbaycan Respublikasının Milli Məclisi olaraq xalqımıza, dövlətimizə, Ordumuza dəstək yürüşünə ehtiramımızı və həssas yanaşdığımızı ifadə edirik. Orduya dəstək yürüşünü həyata keçirən vətəndaşlarımızın bir amal uğrunda birləşdiyi halda bəzi təxribatçıların dağıdıcılığa və ziyan vurmağa istiqamətlənən addımlarını qəti şəkildə pisləyirik. Bu çətin günlərdə dövlətin ali qanunverici orqanının binasına qanunsuz olaraq daxil olmaq və orada dağıntılar törətmək şəhidlərin müqəddəs ruhuna hörmətsizlikdir və qətiyyən yolverilməzdir".

Daxili işlər orqanları tərəfindən dünənki iğtişaş cəhdinin, təxribatçı əməllərin qarşısı dərhal alındı. Azərbaycan hüquqi dövlətdir və bu kimi hallara da hüquqi müstəvidə qiymət veriləcək. Asayişi pozanlar, dövlət əmlakına ziyan vuranlar, iğtişaş yaratmaq istəyənlər layiqli cavablarını alacaqlar.

Bir məsələni unutmaq lazım deyil ki, bu kimi hallar dövlətə, cəmiyyətə ziyandan başqa heç nə gətirmir. 1993-cü ilin ağrı-acılı günləri hamımızın xatirindədir. Həmin dövrün ən ciddi problemlərindən biri anarxiya mühitinin hökm sürməsi idi. Əgər Ulu Öndər Heydər Əliyev hakimiyyətə gəlməsəydi, həmin dövrdə Azərbaycanın müstəqilliyi yenidən itirilə və hətta ölkəmiz parçalana bilərdi.

Ümumiyyətlə isə, Bakıda baş verənlər göstərdi ki, bəzi siyasi qrupların və şəxslərin Azərbaycanı 1990-cı illərin əvvəllərinə qaytarmaq cəhdləri əbəsdir. Xalqımız bundan sonra da belə bədxah niyyətlərə qarşı sipər olacaq. Digər tərəfdən bu gün Azərbaycan dövləti çox güclüdür və ölkəmizi xaosa, anarxiyaya sürükləmək mümkün deyil. Ən əsası isə cəmiyyətimizdə möhkəm milli həmrəylik var və Azərbaycan xalqı öz rəhbərinin ətrafında sıx birləşib. Ona görə ölkəmizlə bağlı bütün təxribatçı planlar iflasa məhkumdur.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Düşmənin artilleriya atəşi nəticəsində Qazaxın Xanlıqlar kənd sakinlərinə vurulan ziyanla bağlı istintaq aparılır

İyulun 12-dən başlayaraq Ermənistanın silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində mövqeləri ələ keçirmək məqsədilə atəşkəs rejimini kobud şəkildə pozaraq müxtəlif növ artilleriya qurğularından istifadə etməklə mövqelərimizi atəşə tutublar.

Ermənistan terrorçu və təcavüzkar siyasətini növbəti dəfə nümayiş etdirməklə özünün silahlı aqressiyası nəticəsində mülki əhalinin sıx yaşadığı əraziləri atəşə tutmaqla dinc əhaliyə qarşı müxtəlif cinayətlər törədib. Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iyulun 14-də saat 15 radələrində Qazax rayonunun Bala Cəfərli kəndi ilə üzbəüz mövqedə yerləşən Ermənistan silahlı qüvvələrinin bölmələrinə məxsus reaktiv qurğudan buraxılmış mərminin atılaraq partlaması səbəbindən həmin mərminin müxtəlif hissələri Xanlıqlar kənd sakinləri Səlminə Əliyeva, Məhbub Orucova, Əziz Şirinov, İlham Mehtiyev, Razim Musayev və Kamil Cahanova məxsus evlərin dam örtüklərinə, həmçinin həyətyanı sahələrinə səpələnib və nəticədə zərərçəkmiş şəxslərin əmlakları qəsdən zədələnməklə sonunculara xeyli miqdarda ziyan vurulub.

Dərhal prokurorluq və polis əməkdaşları tərəfindən hadisə yerlərinə baxış keçirilməklə maddi sübutlar toplanılıb, dəymiş ziyanın məbləğini müəyyənləşdirmək məqsədilə mütəxəssislər cəlb olunub və digər zəruri istintaq hərəkətləri həyata keçirilib.

Faktla bağlı Qazax Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 186.2.2-ci (yandırmaqla, partlatmaqla və ya başqa ümumi təhlükəli üsulla özgənin əmlakını qəsdən məhv etmə və ya zədələmə zərərçəkmiş şəxsə xeyli miqdarda ziyan vurulmaqla törədildikdə və ya ağır nəticələrə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb.

Hazırda iş üzrə zəruri və intensiv istintaq tədbirləri davam etdirilir.

# Fransanın Azərbaycandakı səfiri Xarici İşlər Nazirliyinə dəvət edilib

İyulun 15-də Fransa Respublikasının Azərbaycan Respublikasındakı səfiri Zakari Qros Xarici İşlər Nazirliyinə dəvət edilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Xarici İşlər nazirinin müavini Xələf Xələfov Ermənistan silahlı qüvvələrinin iyul ayının 12-də artilleriya və ağır silahlardan istifadə etməklə Ermənistan-Azərbaycan sərhədində Tovuz rayonu istiqamətində hücumlara başladığını və onun nəticəsində 1 general da daxil olmaqla 11 Azərbaycan hərbçisinin və 1 mülki şəxsin həlak olduğunu diqqətə çatdırıb. Hücumları dəf etmək və atəş nöqtələrini ləğv etmək məqsədilə Azərbaycan silahlı qüvvələrinin həyata keçirdiyi tədbirlər nəticəsində çoxsaylı itkilər verən Ermənistan silahlı qüvvələrinin geri oturdulduğunu bildirib.

Nazir müavini qeyd edib ki, bu təcavüz aktını törətməkdə məqsəd Azərbaycan ərazilərində yeni mövqeləri ələ keçirməklə işğalın əhatəsini genişləndirərək sərhəd zonasında yaşayan mülki əhalini məcburi köçkün vəziyyətinə salmaqdır.

X.Xələfov bu təxribatçı əməlin təcavüzkar Ermənistanın rəhbərliyinin son zamanlar bölgədə gərginliyin artmasına xidmət edən fəaliyyət və bəyanatlarının davamı kimi nəzərdən keçirilməli olduğunu vurğulayıb. O, Ermənistan rəhbərliyinin bu məkrli niyyətinin, eyni zamanda, region ölkələrini və üzv olduğu hərbi-siyasi blokları Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi orbitinə cəlb etməklə digər dövlətləri təcavüzkar ölkə kimi üzərinə düşən beynəlxalq məsuliyyətə bulaşdırmaqdan ibarət olduğunu bildirib. Nazir müavini Ermənistan hakimiyyətinin bu avantürist təxribatının alınmadığından narahat olan Fransadakı, xüsusilə Parisdəki erməni havadarlarının Azərbaycana qarşı düşmənçiliklərini gizlədə bilmədiklərini qeyd edib. Belə ki, təşkil edilmiş radikal qrupların iyul ayının 13-dən 14-nə keçən gecə (Fransanın milli bayramı günü, saat 2-3 radələrində) Azərbaycan səfirliyinə və Mədəniyyət Mərkəzinə hücumlar təşkil edib və səfirliyimizin binasına qarşı vandal aktı törədiblər.

X.Xələfov baş vermiş insidentlə bağlı Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Fransa tərəfinə qəti etiraz etdiyini, bu vandalizm aktının araşdırılmasını, törədənlərin hərəkətinə hüquqi qiymət verilməsini tələb etdiyini diqqətə çatdırıb. O, Fransa Hökuməti tərəfindən Azərbaycanın Parisdəki diplomatik missiyasının binalarının mühafizəsinin təmin edilməsi məqsədilə zəruri tədbirlərin görülməsini istəyib.

X.Xələfov Azərbaycan tərəfinin Fransadan Minsk qrupunun həmsədri olaraq münaqişənin həlli istiqamətində real addımlar atılmasını, eləcə də Fransanın seçkili orqanlarının bəzi nümayəndələrinin Azərbaycanın işğal edilmiş ərazilərində qondarma "qurumu" təşviq edən hər hansı fəaliyyətinin qarşısının alınması üçün bütün zəruri tədbirləri görməsini gözlədiyimizi bildirib.

Nazir müavini baş verənlərin bir daha ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqların mahiyyətini şübhə altına aldığını və Minsk qrupunun rolunu və fəaliyyətini sual altına qoyduğunu vurğulayıb. O, Azərbaycan ictimaiyyətində Minsk qrupunun fəaliyyəti ilə bağlı ciddi narazılıqların getdikcə artmaqda olduğunu Minsk qrupu həmsədrlərinin Ermənistana işğalçı siyasətinə son qoymasına və beynəlxalq hüququn norma və prinsiplərinə riayət etməsi üçün açıq çağırışlar etmək əvəzinə, hər dəfə ümumi bəyanatla kifayətləndiyini qeyd edib.

X.Xələfov münaqişənin həllinin süni surətdə uzadılmasının regional sabitlik və təhlükəsizlik üçün yeni risklər və çağırışlara münbit şərait yaradaraq daha geniş regional münaqişələrə yol açacağını vurğulayıb.

O, Ermənistan respublikasının bu cinayətkar addımları atmaqla 30 ildən bəri davam edən və Azərbaycan torpaqlarının 20 faizdən çoxunu işğal altında saxlayan təcavüzkar siyasətinin davam etdirilməsində israrlı olduğunu nümayiş etdirdiyini bildirib.

X.Xələfov hadisələrin bu məcrada inkişafına Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllində vasitəçilik missiyasını həyata keçirən beynəlxalq təşkilat və nüfuzlu dövlətlərin təcavüzkar Ermənistana loyal və yumşaq münasibət bəsləməsinin şərait yaratdığını vurğulayıb.

O, vəziyyətin gərginləşməsinə xidmət edən bu kimi təhrikedici əməllərə görə bütün məsuliyyətin Ermənistanın üzərinə düşdüyünü bildirib. Bugünkü Ermənistan respublikası hakimiyyətinin siyasətinin sülh danışıqlarının hər vəchlə pozmaq, onların mahiyyətini saxtalaşdırmaq, işğal olunmuş Azərbaycan ərazilərinin azad edilməsindən boyun qaçırmaqdan ibarət olduğunu diqqətə çatdırıb. Bu proseslərin dünya birliyi və Minsk qrupu həmsədrlərinin gözü qarşısında baş verdiyini və adekvat tədbirlərin görülməməsinin daim Azərbaycan xalqını məyus etdiyini söyləyib.

X.Xələfov Azərbaycanın hüquqlarının on illərdən bəri ardıcıl olaraq pozulması və onun haqq işinə biganəliyin Azərbaycan xalqının və onun qətiyyətli rəhbərliyinin səbir kasasını doldurduğunu, Azərbaycan xalqının və dövlətinin yaşamaq və inkişaf hüququnun təcavüzkar tərəfindən daim tapdalanmasına yol verilməyəcəyini vurğulayıb.

Yaranmış vəziyyətin Azərbaycanın BMT Nizamnaməsində təsbit olunmuş özünü müdafiə hüququna əsaslanaraq təcavüzün dayandırılması, işğal olunmuş ərazilərinin azad edilməsi üçün təxirə salınmadan tədbirlərin həyata keçirməsini tələb etdiyini bildirib.

Fransanın Azərbaycandakı səfiri ölkəsinin iyulun 12-dən başlayaraq Azərbaycan-Ermənistan sərhədində baş verənləri diqqətlə izlədiyini və insan tələfatına səbəb olmuş bu hadisələrdən dərin təəssüf və narahatlıq keçirdiklərini bildirib, Azərbaycan tərəfinə başsağlığı verib.

Səfir nazir müavininin səsləndirdiyi Azərbaycan dövlətinin və xalqının narahatlıqlarını anladığını, ölkəsinin ATƏT-in Minsk qrupunun həmsədri qismində Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli üçün səylərini davam etdirəcəyini əmin edib. O, Azərbaycan tərəfinin Ermənistan-Azərbaycan münaqişəsi, eləcə də Parisdə Azərbaycan səfirliyinə qarşı törədilmiş vandal aktı ilə bağlı narahatlığı və gözləntiləri ilə əlaqədar mesajları aydın şəkildə Parisə çatdıracağını vəd edib.

# <u>Vaqif DƏRGAHLI:</u> "Düşmənin hərbi texnikalarına və döyüş vasitələrinə sarsıdıcı zərbələr endirilir"

İyulun 12-dən başlayaraq düşmən Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində vəziyyəti gərginləşdirərək mövqelərimizə və yaşayış məntəqələrimizə hücum etməyə cəhd göstərib. Azərbaycan Ordusunun bölmələri tərəfindən həyata keçirilən əks-tədbirlər nəticəsində düşmənin fəaliyyətinin qarşısı alınıb və o, geri oturdulub.

AZƏRTAC xəbər verir ki, bunu Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəisi, polkovnik Vaqif Dərgahlı iyulun 14-də keçirdiyi brifinqdə deyib.

V.Dərgahlı qeyd edib ki, iyulun 13-ü gecədən başlayaraq və dünən səhər saatlarından Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində şiddətli döyüş davam edir. Bölmələrimizin cavab tədbirləri nəticəsində böyük itkilər verən düşmən geri çəkilməyə məcbur edilib. Düşmənin aktiv fəaliyyətinin qarşısının alınması məqsədilə görülən cəza tədbirləri nəticəsində ona məxsus müxtəlif təyinatlı hərbi texnika, döyüş vasitələri, komanda məntəqəsi, müdafiənin dərinliyində olan ehtiyatları və yüzlərlə canlı qüvvəsi məhv edilib. Düşmən tərəf mülki əhalini və yaşayış məntəqələrimizi də atəşə tutur. Bilirsiniz ki, həmişə vəziyyət gərginləşdikdə düşmən tərəfi dərhal yaşayış məntəqələrimizi atəşə tutmağa başlayır. Bu gün də yaşayış məntəqələrimizin atəşə tutulması davam edib. Ancaq Azərbaycan hərbçilərinə Ermənistanın mülki əhalisinə deyil, düşmən ordusunun bölmələrinin döyüş mövqelərində olan hərbi texnikalarına və döyüş vasitələrinə zərbə endirilməsi ilə bağlı əmr verilib.

Döyüşlər zamanı Azərbaycan Ordusunun generalının və yüksək rütbəli bir neçə zabitinin şəhid olduğunu vurğulayan Vaqif Dərgahlı deyib ki, bu hal ordumuzda generallarla əsgərlərin bir cərgədə, ön sırada düşmənə qarşı vuruşduğunu əyani şəkildə təsdiq etdi. Bir daha sübut olundu ki, Azərbaycan Ordusunun generalı tabeliyində olan hərbçilərdən özünü fərqləndirmir, qarşıda duran tapşırığı yerinə yetirmək, doğma torpağını müdafiə etmək üçün öz canını hər an qurban verməyə hazırdır.

"Düşmənə qarşı həyata keçirilən cavab tədbirləri davam edir, əməliyyat şəraiti bölmələrimizin tam nəzarəti altındadır. Xalqımızı əmin edirik ki, Azərbaycan Ordusunun şəxsi heyəti Ali Baş Komandanın bütün əmrlərini həyata keçirməyə hazırdır və buna qadirdir. Xalqımız əmin ola bilər ki, Azərbaycan Ordusu şəhidlərimizin qanını yerdə qoymayacaq və onların qisası tezliklə alınacaqdır", - deyə polkovnik Vaqif Dərgahlı qeyd edib.

***

Ermənistan KİV-nin guya Azərbaycan Ordusunun bölmələri tərəfindən cəbhənin Tovuz istiqamətində Ermənistan silahlı qüvvələrinə qarşı "Qrad" yaylım atəşli reaktiv sistemlərdən istifadə etməsi barədə yaydığı məlumat dezinformasiyadır.

Bunu Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəisi, polkovnik Vaqif Dərgahlı deyib.

V.Dərgahlı bildirib ki, bölmələrimiz tərəfindən bu silah növü tətbiq edilməyib. Əgər Ermənistan tərəfində bu silah növünün tətbiq edilməsi barədə hər hansı bir sübut varsa, onu təqdim etsin.

# Ölkəsindəki özbaşınalıqlardan təngə gələn Ermənistan vətəndaşı Naxçıvana keçib

*Ermənistan vətəndaşı 30 yaşlı Narek Sardaryan işğalçı ölkənin mövqelərində yaranmış nəzarətsizlikdən istifadə edərək Naxçıvan Muxtar Respublikasının ərazisinə keçib. Hərbçilərimiz tərəfindən saxlanılan Sardaryan Naxçıvanla sərhəddə heyvandarlıqla məşğul olduğunu, öz ölkəsində olan zorakılıq, məmur özbaşınalığı və ədalətsizliklərdən bezərək sərhədi keçmək üçün fürsət axtardığını və ölkəmizə sığındığını bildirib. AZƏRTAC Narek Sardaryanın etiraflarını təqdim edir:*



- Mən, Sardaryan Narek Suren oğlu 1990-cı il oktyabrın 18-də doğulmuşam, Syunik rayonunun Aşağı Xndzoresk kənd sakiniyəm, 2014-cü ildə ailə həyatı qurmuşam, 2 övladım var, heyvandarlıq və əkinçiliklə məşğul oluram.

***- Sərhədi nə üçün keçmişdiniz, məqsədiniz nə idi?***

- Sərhədi əvvəllər də keçmək istəmişəm, amma imkanım olmayıb, Naxçıvanla sərhəddə heyvandarlıqla məşğul olanda bu imkanı əldə etdim. Çünki Ermənistanda zorakılıqlar, ədalətsizliklər var, mən çox məmurlara, hakimiyyət nümayəndələrinə müraciət etmişəm, lakin kömək etməyiblər. Ona görə Azərbaycan sərhədini keçmişəm. Azərbaycan tərəfdən kömək istəyirəm. Sərhəddə əsgərlər mənə yaxşı münasibət göstərdilər, atəş açmadılar.

***- Sərhədi necə keçdiniz?***

- Heyvanları otara-otara Azərbaycan postuna doğru yaxınlaşdım, hərbçilər məni vurmasın deyə ağ paltarımı çıxarıb havada yellədim və hərbçilər məni saxladılar.

***- Ermənistanda sizə qarşı hansı haqsızlıqlar olub?***

- Mənə qarşı çox haqsızlıqlar olub. Kənd icra nümayəndəsi torpaq vergisi ilə yanaşı, hər heyvan başına 20 min dram pul istəyir. Əslində, 2 min dram verməliyik, bizdən rüşvət olaraq zorla artıq pul alırlar. Heyvan satmaq istədikdə sahə müvəkkili Andranik gələrək onun üçün haqq istəyir. Əks təqdirdə şər ataraq məni həbs edəcəyi ilə hədələyir.

***- Naxçıvanla sərhəddə yerləşən Qorayk kəndinin otlaq sahələrinə heyvanları nə üçün gətirmişdiniz?***

- Gorusda otlaq sahəsi yox idi, Qoraykda isə 200 hektar otlaq sahəsi üçün məndən 1000 dollar rüşvət aldılar. Sisyan icra orqanına da otlaq sahələrindən istifadə üçün 1000 dollar pul vermişəm.

***- Ermənistandakı vəziyyət barədə nə deyə bilərsiniz?***

- Ermənistanda vəziyyət çox pisdir, demək olar ki, heç bir iş yoxdur, rüşvətxorluq və ədalətsizlik baş alıb gedir. Polisdə rüşvətxorluq çoxdur, əhalinin sosial-iqtisadi vəziyyəti çox ağırdır. Syunik vilayəti ərazisindəki otlaq sahələrində Gorusun yol polisinin rəisi Sevak və hərbi komissar Armen səlahiyyətlərindən istifadə edib bütün əlverişli torpaqları zəbt ediblər və bizlərə orada heyvandarlıqla məşğul olmağa imkan vermirlər, həmin əraziyə digər yerli sakinləri buraxmırlar.

***- Ermənistan ordusunda ümumi vəziyyət necədir?***

- Ermənistan ordusunda vəziyyət çox pisdir, heç kim bir-birini qəbul etmir, intizamsızlıq var, bir-birlərinə tabe olmurlar, narkotikdən geniş istifadə edilir. Orduda hərbçilərin narkotik yetişdirib satmasına göz yumulur. Ümumiyyətlə, orada polis narkotikdən istifadə edənlərə qarşı heç bir tədbir görmür. Ayrı-ayrı ərazilərdə tiryək və narkotik yetişdirilir, polis zəifdir, mübarizə apara bilmir.

***- Sizin xidmət keçdiyiniz hərbi hissələrdə hansı qanunsuzluqlar mövcud idi?***

- Mən Sərhəd Qoşunlarının Vanadzordakı 5060 və Zəngilan rayonunun Kaşatağ bölgəsindəki 5070 saylı hərbi hissələrində xidmət keçmişəm. 2019-cu ildə Qubadlı rayonunda səfərbərlik toplantısında iştirak etmişəm. Ermənistan ordusunda hərc-mərclik, intizamsızlıq və rüşvətxorluq baş alıb gedir. Səfərbərlik toplantısında 700 nəfərin iştirakı nəzərdə tutulsa da, heç 200 nəfər iştirak etmirdi.

***- Siz həyatınızın bundan sonrakı hissəsini necə görürsünüz?***

- Xahiş edirəm ki, burada mənə vətəndaşlıq verilsin, Ermənistana geri qaytarılmayım, oradan bezmişəm, orada insanları çox incidirlər. Olmasa belə xahişim budur ki, məni üçüncü bir dövlətə təhvil versinlər.

# Baş Prokurorluq və Daxili İşlər Nazirliyi ötən gecə paytaxtda keçirilən yürüşlə bağlı birgə məlumat yayıb

Məlum olduğu kimi, iyulun 12-də Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində hərbi təxribat törədib, iriçaplı pulemyotlardan, snayper tüfənglərindən, artilleriya qurğularından istifadə etməklə mövqelərimizi, eləcə də dinc əhalini və mülki obyektləri atəşə tutublar.

Azərbaycan Ordusunun qəhrəman zabit və əsgərləri bu təxribatın qarşısını qətiyyətlə alıb, cavab atəşi ilə düşmənin dayaq məntəqələri, atəş nöqtələri, müdafiəsinin dərinliyindəki ehtiyatlar, çox sayda döyüş texnikası və canlı qüvvəsi məhv edilib. Hazırda döyüşlərin baş verdiyi ərazidə əməliyyat şəraiti Azərbaycan Silahlı Qüvvələrinin tam nəzarəti altındadır.

Azərbaycan Respublikası Baş Prokurorluğunun və Daxili İşlər Nazirliyinin Mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, Ermənistanın bu hərbi təxribatı qarşısında Azərbaycan xalqı öz birliyini, qəti iradəsini və düşmənə qarşı barışmaz mövqeyini bir daha göstərib, qəhrəman şəhidlərimiz böyük izdihamla dəfn edilib, ölkəmizin müxtəlif şəhər və rayonlarında Azərbaycan Silahlı Qüvvələrinə dəstək yürüşləri keçirilib.

İyulun 14-də Bakıda keçirilmiş yürüş və toplantı Azərbaycan xalqının öz Dövlətinə, Ordusuna və Ali Baş Komandanına bir daha tam dəstəyini nümayiş etdirib. Təcavüzkar Ermənistan anlamalıdır ki, Azərbaycan xalqının səbri sonsuz deyil və o, heç zaman ərazilərinin işğalı ilə barışmayacaq. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin bildirdiyi kimi, həlak olan hərbçilərimizin qanı yerdə qalmayıb və qalmayacaq.

Təəssüf ki, dinc və vətənpərvər ruhda keçən bu aksiya zamanı bir qrup təxribatçı ictimai qaydanın kobud surətdə pozulmasına səbəb olan hərəkətlərə yol verib, aksiyanın təhlükəsizliyini təmin edən polis əməkdaşlarına müqavimət göstərib və zor tətbiq edib. Nəticədə bir neçə polis əməkdaşına müxtəlif dərəcəli bədən xəsarətləri yetirilib, xidməti avtomobillərə ciddi ziyan vurulub.

Polis əməkdaşları tərəfindən dəfələrlə edilmiş xəbərdarlıqlara məhəl qoyulmadığından, eləcə də vəziyyətin daha da gərginləşməsinin qarşısının alınması üçün görülmüş operativ tədbirlərlə ictimai asayiş bərpa edilib.

Fakt üzrə cinayət işi başlanaraq istintaq-əməliyyat tədbirləri həyata keçirilir.

Azərbaycan Respublikasının Baş Prokurorluğu və Daxili İşlər Nazirliyi düşmənlə təmas xəttində ağır döyüşlərin getdiyi mövcud həssas dönəmdə ölkədə ictimai qaydanın və asayişin pozulması hallarının yolverilməzliyini xüsusi olaraq qeyd edir. Eyni zamanda hazırda COVID-19 pandemiyası ilə mübarizənin getdiyi bir vaxtda şəhər və rayonlarda kütləvi toplantıların keçirilməsinin ağır nəticələrə səbəb ola biləcəyini xatırladaraq, vətəndaşları təmkinli olmağa, şəhidlərimizin əziz xatirəsini mövcud karantin qaydalarının tələblərini nəzərə alaraq yad etməyə çağırır.

# Azərbaycanda koronavirusa daha 559 yoluxma faktı qeydə alınıb, 545 nəfər sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 559 yoluxma faktı qeydə alınıb, 545 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 7 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 25 min 672 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 16 min 695 nəfər müalicə olunaraq sağalıb, 326 nəfər vəfat edib. Aktiv xəstə sayı 8651 nəfərdir.

Ötən müddət ərzində 592 min 778 test aparılıb. Bugünkü test sayı isə 8312-dir.




# 1043 nəfər hərəkət iştirakçısı inzibati məsuliyyətə cəlb edilib

Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi iyulun 14-də xüsusi karantin rejiminin pozulmasına görə inzibati məsuliyyətə cəlb edilmiş hərəkət iştirakçılarının sayı və görülən tədbirlər barədə məlumatı açıqlayıb.

İdarədən AZƏRTAC-a bildiriblər ki, koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə Bakı, Cəlilabad, Gəncə, Lənkəran, Masallı, Mingəçevir, Sumqayıt, Yevlax şəhərlərində və Abşeron, Bərdə, Xaçmaz, Goranboy, Göygöl, Samux, Siyəzən və Şəki rayonları ərazisində tətbiq edilmiş sərtləşdirilmiş xüsusi karantin rejiminin pozulmasına görə iyulun 14-ü saat 00:00-dan iyulun 15-i saat 00:00-dək olan müddət ərzində nəqliyyat vasitələri ilə hərəkətdə olan 894 nəfər Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 211.1-ci, sərnişindaşımada istifadə olunan taksi və avtobuslarda tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə edilmədiyinə görə 147 nəfər həmin məcəllənin 211.2-ci, eyni əməllərin il ərzində təkrar törədilməsinə görə isə məcəllənin 211.3-cü maddəsi ilə 2 nəfər olmaqla ümumilikdə 1043 hərəkət iştirakçısı inzibati məsuliyyətə cəlb edilib.

Qeyd olunan müddət ərzində Bakı-Quba yolunun 52-ci kilometrliyində yerləşən karantin keçid postundan 50-si rayon, 90-ı paytaxt istiqamətinə olmaqla 140, Bakı-Şamaxı-Yevlax yolunun 31-ci kilometrliyində yerləşən postdan 20-si rayon, 50-si paytaxt istiqamətinə olmaqla 70, Bakı-Qazax-Gürcüstan yolunun 65-ci kilometrliyində yerləşən keçid postundan 85-i rayon, 50-si paytaxt istiqamətinə olmaqla 135 avtomobil geri qaytarılıb. Ümumilikdə 345 nəqliyyat vasitəsilə müvafiq icazə olmadan postlardan keçmək cəhdinin qarşısı alınıb.

# "Yenə itki, yenə ruh ağrısı və təəssüf"

## Böyük təşviş içində olan ermənilər sosial şəbəkələrdə Paşinyandan hesab sorurlar

**Bu günlərdə sosial şəbəkələrin ermənidilli seqmentini Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində erməni silahlı qüvvələrinin törətdiyi növbəti hərbi təxribat nəticəsində işğalçı ölkənin ordusunda itkilərin sayının artması ətrafında müzakirələr zəbt edib. Sosial şəbəkələrdə yayılan xəbərlərdən məlum olur ki, son üç gün ərzində məhv edilən Ermənistan hərbi qulluqçularının sayı dəfələrlə çoxdur, xeyli yaralıları da var.**

Bir sözlə, cəbhədəki son hadisələr ermənilərdə böyük bir xof, ümidsizlik yaradıb. Sosial mediada paylaşılan statusları və yazılan şərhləri oxucuların diqqətinə çatdırırıq.

### "Müharibə başlasa, Azərbaycanı dayandıran olmayacaq"

Radik Sarafyan adlı "Facebook" istifadəçisi yazır ki, çox qorxulu vəziyyətlə qarşılaşıblar: "Son günlərdə düşmən tərəfi itkilər versə də, bizdə onlardan daha çoxdur. Gizlədilir. Səbəbsiz uşaqlarımız ölümə göndərilir. Paşinyana çox inanırdıq, ümidimizi puç etməkdə davam edir. Şəxsən hər vasitəyə əl atıb uşağımı hərbi xidmətdən yayındıracağam".

Xarput Mxıtaryan adlı istifadəçi "Odnoklassniki"də paylaşılan xəbərə rəy bildirərək yazıb ki, səsləndirilən düz fikirlər niyə bəzilərini narahat edir? Profilində tarix müəllimi qeyd edilən istifadəçi qeyd edir ki, biz yalan danışmırıq. Öz vətəndaş mövqeyimizi nümayiş etdiririk: "Tarixçi kimi onu demək istəyirəm ki, Ermənistanda bu gün ən çox narahatlıq yaradan məqamlardan biri də Qarabağ münaqişəsi ilə bağlıdır. Son günlərdə atışmalar göstərdi ki, müharibə başlasa problemlər çox olacaq. Dünyanın başı koronavirusa qarışıb və məni narahat edən budur ki, indi savaş başlasa, Azərbaycanı dayandıran olmayacaq".

### "Bizi tam məhvolma gözləyir"

Muşeq Kropyan adlı istifadəçi isə "Facebook"da müharibənin yenidən başlana biləcəyi ilə bağlı paylaşılan xəbərə rəy yazıb: "Mənim əmilərim Qarabağda gedən döyüşlərdə ölüb. Mən insanların ölməsini istəmirəm. Azərbaycan mətbuatından, sosial şəbəkələrindən gördüyümüz qədəri ilə onlar hərbi sahədə böyük işlər görüb. Biz nə etmişik? Hakimiyyət savaşlarının qurbanı olmuşuq. Bu gün də Paşinyanın atdığı addımlardan belə məlum olur ki, onun rəhbərliyi altında bizi parlaq gələcək yox, tam məhvolma gözləyir".

Hasmik Virabyan adlı "Twitter" istifadəçisi isə Ermənistan rəhbərlərinin hər sahədə İlham Əliyevə uduzduğunu bu günlərdə gedən döyüşlərdə ölən erməni əsgərlərin dəfnindən foto paylaşaraq yazıb: "Bir neçə gündən sonra 22 yaşını qeyd edəcəkdi dostum. Sən də hakimiyyətin növbəti qurbanı oldun. Paşinyan nə qədər özünü pozitiv əhvalda göstərməyə çalışsa da, nə qədər yalan desə də, həqiqət budur: aprel döyüşlərində olduğu kimi, bu dəfə də biz uduzduq. Azərbaycan biraz da irəliləsə, Qarabağdan da qaçacağıq".

### "Dəhşətli atışmalardan sonra yaranan qorxu hələ canımızdan çıxmayıb"

"Vkontakte" sosial şəbəkə istifadəçilərindən Şaqen Martirosyan adlı bir nəfərin şərhi isə hələ də xüsusilə diqqət çəkir: "Düşmən ölkə mediasında Bakıdakı yürüşü gördüm, şoka düşdüm. Biz ermənilər torpaq uğrunda, müharibəyə getmək uğrunda yürüş keçirə bilərikmi? İnanmıram. Dörd il əvvəl aprel döyüşlərində Ermənistanın rəsmi dövlət qurumlarından informasiya verirdilər ki, guya hərbi baxımdan Azərbaycanı üstələyirik. Ancaq dördgünlük müharibə vaxtı da, bu günlərdə də biz bunun tam əksini gördük. Fərq çox böyükdür. Nəyə görə boş yerə ölümə getməliyik".

Vazgen Şaqinyan adlı birisi isə "Twitter"də yazıb: "Qardaşım Arturla "Whatsapp" vasitəsilə günorta saatlarında danışdım. Tanrıya şükürlər olsun yaxşıdır. Amma mənə dedi ki, "Vazgen, dəhşətli atışmalardan sonra yaranan qorxu hələ də canımızdan çıxmayıb". Müharibə bizə sərf etməz. Texnikada çox geriyik. Bəli, dostlar! Azərbaycan ordusunu gücləndirmək üçün lazımi addımlar atır, ərazilərin qaytarılması ilə bağlı işlər görür. Bəs baş nazirimiz nə edir?"

Vardvan Arturyan adlı müharibə iştirakçısı isə "İnstagram"da Ermənistan müdafiə nazirinin çıxışının paylaşıldığı xəbərə çox maraqlı bir rəy yazıb: "Diplomatik sferada Azərbaycan Prezidentinə uduzuruq, heç nə demirik. Lakin cəbhədəki döyüşlərdəki məğlubiyyət bir müharibə veteranı olaraq bizləri ciddi narahat edir. Niyə həlak olanların sayını dəqiq açıqlamırsınız?"

### "Paşinyana deyin Əliyevə zəng etsin"

Ruzanna Maksimyan adlı istifadəçi isə "Facebook"da cəbhədə gedən döyüşlər barədə müdafiə nazirliyinin paylaşdığı xəbərə münasibət bildirib: "Siz həqiqətən bizi ələ salırsınız? Azərbaycan sərhədyanı kəndlərimizi bombardman edir, siz də deyirsiniz ki, bizim artıq 2 itkimiz var. Baş nazirin səhifəsinə daxil olanda nələr görürsən? Populist çıxışlarla dolu paylaşımlar".

Radik Sarafyan adlı istifadəçinin isə "Facebook"da canlı yayımda Paşinyana ünvanladığı sual çoxlu bəyənmə toplayıb: "Baş nazir, bu çətin anda siz sərhəddəki vəziyyət haqqında danışmaq istəmirsiniz? Sizin səssizliyinizi başa düşmürəm, bizim Berd şəhərimizə məhz davamlı atəş açılır, siz isə susursunuz, bu nə deməkdir? Paşinyana deyin Əliyevə zəng etsin".

Qurqen Avaqyan adlı istifadəçinin "Twitter"də paylaşımı isə daha çox "retweet" olunub: "Dünən bir video yayılmışdı ki, azərbaycanlılar bizim postlarımızı götürüblər, bizim əsgərlərimizin meyitlərini çəkiblər, indi nəyə inanaq, bilmirik. Yenə itki, yenə ruh ağrısı və təəssüf. Paşinyan, istefa!"

Bütün bunlar əsl həqiqətlərin nədən ibarət olduğunun artıq erməni cəmiyyəti tərəfindən də dərk olunduğunu aydın nümayiş etdirir və belə vəziyyət Azərbaycanın informasiya müharibəsində möhtəşəm qalibiyyətinin real təzahürüdür.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi təhsil müəssisələri üçün “Yumşaq inventar, yataq ləvazimatları və xüsusi geyimlərin alınması” xərc maddəsi üzrə malların satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir:

LOT-1. “Yumşaq inventar, yataq ləvazimatları və xüsusi geyimlərin alınması” xərc maddəsi üzrə malların satın alınması

Tenderdə iştirak etmək istəyənlər hər LOT üzrə 300 (üç yüz) manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Y.Bakuvi küçəsi, 18 nömrəli ünvandan (əlaqələndirici şəxs - Samir Məmmədov, tel: (+99412) 465 73 48 (daxili 141)) ala bilərlər:

**Təşkilat: Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi**

**Bankın adı: “Azərbaycan Beynəlxalq Bankı” ASC-nin Sənaye filialı**

**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. IBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (rəsmi blanklarda və möhürlə təsdiq olunmuş qaydada) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır;*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri **24.08.2020-ci il saat 16:00-dək,** tender təklifi və tender təklifinin bank təminatını **01.09.2020-ci il saat 16:00-dək** yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri **02.09.2020-ci il saat 16:00-da** Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi təhsil müəssisələri üçün “Dəftərxana və təsərrüfat xərcləri” xərc maddəsi üzrə malların satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir:

LOT-1. “Dəftərxana və təsərrüfat xərcləri” xərc maddəsi üzrə malların satın alınması

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə 300 (üç yüz) manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Y.Bakuvi küçəsi, 18 nömrəli ünvandan (əlaqələndirici şəxs - Samir Məmmədov, tel: (+99412) 465 73 48 (daxili 141)) ala bilərlər:

**Təşkilat: Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi**

**Bankın adı: “Azərbaycan Beynəlxalq Bankı” ASC-nin Sənaye filialı**

**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. IBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (rəsmi blanklarda və möhürlə təsdiq olunmuş qaydada) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır;*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri **24.08.2020-ci il saat 16:00-dək,** tender təklifi və tender təklifinin bank təminatını **01.09.2020-ci il saat 16:00-dək** yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri **02.09.2020-ci il saat 15:00-da** Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi təhsil müəssisələri üçün “Digər malların alınması” xərc maddəsi üzrə malların satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir:

LOT - 1. “Digər malların alınması” xərc maddəsi üzrə malların satın alınması

Tenderdə iştirak etmək istəyənlər hər LOT üzrə 300 (üç yüz) manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Y.Bakuvi küçəsi, 18 nömrəli ünvandan (əlaqələndirici şəxs - Samir Məmmədov, tel: (+99412) 465 73 48 (daxili 141)) ala bilərlər:

**Təşkilat: Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi**

**Bankın adı: “Azərbaycan Beynəlxalq Bankı” ASC-nin Sənaye filialı**

**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. IBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (rəsmi blanklarda və möhürlə təsdiq olunmuş qaydada) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır;*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri **24.08.2020-ci il saat 16:00-dək,** tender təklifi və tender təklifinin bank təminatını **01.09.2020-ci il saat 16:00-dək** yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri **02.09.2020-ci il saat 17:00-da** Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## DEADLİNE EXTENTİON
## REQUEST FOR EXPRESSIONS OF INTEREST
## CONSULTING SERVICES - INDIVIDUAL CONSULTANTS' SELECTION

**Azerbaijan Republic**
**Agricultural Competitiveness Improvement Project**
**Loan No./Credit No./ Grant No.: P122812, Ln 8286Az**

**Assignment title: Support to establishment of Agricultural Insurance Information System (AIIS)**

The Government of Azerbaijan and the World Bank is implementing “Agricultural Competitiveness Improvement Project” (ACIP) in Azerbaijan. The overall objective of the Project is to facilitate the access of agricultural producers to markets by strengthening sanitary and phyto-sanitary services, enhancing selected value chains and providing financial services to agribusiness enterprises.

The Project is managed by the Agro Credits and Development Agency (ACDA), which is the Ministry of Agriculture's agency for overseeing international agricultural development projects, primarily through the Project Management Unit (PMU) established within ACDA.

The ACIP (Client) provides support to development of agricultural insurance system in Azerbaijan. ACIP support to the agricultural insurance system will be focused on (i) supporting the AIF with designing the Agrarian Insurance Mechanisms (AIM) and ensuring access of the staff engaged in designing of the AIM to the international best practices.

**Job description and Expected Outcomes**

**Agricultural Insurance Information System (AIIS)**

The AIIS will be established with the objective to automize conclusion of insurance contracts, handling of insurance claims, conduct insurance risk assessment and process of appointment of independent agrarian insurance experts. The process of setting up the AIIS will be done under the direct guidance and support of consultants provided by Turkish State Agrarian Insurance Company - TARSIM.

The AIIS will include the following 11 modules:

- “electronic cabinet” module;
- information/awareness” module for submission of information notice and registration of notifications sent;
- “integration with other systems” module; implementation of integration processes with other information systems and resources via EIS through the module “Integration with other systems”;
- “insurance” module for entering the information required to conclude an insurance agreement, automatic drawing up of insurance and reinsurance contracts, making changes to these agreements;
- “assessment and damage control” module for analysis of data, risk assessment, damage control and quantification, determination of insurance premiums, insurance payments and expenses;
- “expert” module for entering risk analysis and insurance event information, appointment of experts for risk analysis and insurance event, implementation of expert processes, expert assessment;
- “finance and payment” module for conducting electronic payments and calculations;
- “reports” module;
- “administration” module;
- “complaint” module to enter the track information on legal issues;
- “process processing” module for managing processes (collecting, processing, storing information)

The objective of the assignment is to support the Agrarian Insurance Fund (The Client) with setting up the Agrarian Insurance Information System. A team of 10 individual consultants will be formed with primary goal of establishing the AIIS. The assignment will be implemented under direct guidance and supervision of TARSIM specialists. The group will consist of team leader and the following specialists:

- Team Leader -1 expert
- Business analysts - 3 experts
- Java Developer - 3 experts
- Full-stack (Web) Developer - 1 expert
- DB Developer - 1 expert
- Android Developer - 1 expert

The assignment is expected to be started from August/September 2020 for next 12 months. Timing and working arrangement are full-time engagement.

**Qualification and Experience requirements for the Consultant**

- **Team Leader -1 expert**
  - Higher education in IT, Business Administration, Management, Automation and similar field;
  - Minimum 10 years' experience in the analogical field and at least 5 years' experience in management;
  - Participation in the implementation of large-scale local and international projects/Knowledge of COBIT and ITIL standards;
- **Business analysts - 3 experts**
  - Higher education in IT, Business Administration, Management, Automation and similar field
  - Minimum 7 years' experience in IT field, minimum 4 years' experience in similar position

Participation in large-scale projects/Participation in international projects, international certificates and experience in insurance will be preferred.

- **Java Developers - 3 experts**
  - Higher education in IT (or similar) systems;
  - Minimum 5 years' experience in similar field;
  - Ability to work in the following areas:

Java 8 / Java EE / Java SE; RESTful and SOAP; SQL and PL / SQL; (Spring MVC, Spring Boot desirable desirable); Web servers (Apache Tomcat); GIT system;

- **Full-stack (Web) Developer - 1 expert**
  - Higher education (information technology preferred)
  - Minimum 3 years of similar experience, ability to work in the following areas: Knowledge of PHP, HTML, CSS, JavaScript; Writing Linux and shell scripts; Cloud technologies: Amazon, Rackspace, etc.
  - Backgrounds: Gearman, Redis
  - Search: Elasticsearch, Sphinx, Solr
  - Cache: Vernick, Memcached, APC / OpCache
  - Monitoring: Nagios
  - Database: MySQL, MongoDB, PostgreSQL, SQL / JSON (Cassandra,)
  - Web Services: (SOAP, RESTful)
- **DB Developer - 1 expert**
  - Higher education in IT (or similar)
  - Minimum 5 years' experience in similar field
  - Experience with database (Oracle, Postgre SQL); Knowledge of SQL, PL / SQL, MS SQL Server and Oracle;
  - Preferred with International Certificates (Oracle Database Certified Associate, Oracle PL / SQL Developer Certified Associate)
- **Android Developer - 1 expert**
  - Higher education (information technology preferred)
  - Minimum 3 years' experience in this field;
  - Ability to write accurate and readable code;
  - Knowledge of Java 8, RxAndroid, Dagger 2, Retrofit 2, GreenDao 3, SQLite, ButterKnife, Glide, Play Services, MVP Design Pattern

**General requirements for all positions:** Modern knowledge and skills in the field of development of methodological and teaching materials

- Experience in Training/Education is desirable
- Ability to work in a team and leadership skills
- Ability to communicate
- Possibility of regular trips to the regions
- Foreign language skills are desirable (English, Turkish, Russian)
- Experience in insurance is advantageous
- Office programs knowledge

The Agricultural Competitiveness Improvement Project now invites eligible individual consultants to indicate their interest in providing the services. Interested Consultants should provide information demonstrating that they have the required qualifications.

The attention of interested Consultants is drawn to paragraph 1.9 of the World Bank's *Guidelines: Selection and Employment of Consultants under İBRD Loans and İDA Credits & Grants] by World Bank Borrowers, January 2011 edition, revised July 2014* (“Consultant Guidelines”), setting forth the World Bank's policy on conflict of interests.

A Consultant will be selected in accordance with the Individual Consultancy method set out in the Consultant Guidelines.

Expressions of interest must be delivered in a written form to the address below (in person, or by mail, or by fax, or by e-mail) by July 21, 2020.

**Agency for Agro Credit and Development under the Ministry of Agriculture of the Republic of Azerbaijan/Agricultural Competitiveness Improvement Project**

**Attn: Mr. Anar Azimov**
**Project Director**
**AZ1108, Ziya Bunyadov avenue 1965, Chinar Park Business Center, BZa.azimov@akia.gov;azanarazim@gmail.com;**
**gunelsafaraliyeva@gmail.com; nargiz.acip@gmail.com;**
**n.isgandarova@akia.gov.az, firdovsi.aghashirinov@asf.gov.az**
**Web: www.akia.gov.az**

Further information can be obtained at the address above during office hours 09:00 - 18:00

## B İ L D İ R İ Ş

“Bakı Metropoliteni” QSC tərəfindən 24 iyul 2020-ci il saat 15:00-da keçirilməsi nəzərdə tutulmuş “Avtomobil, maşın və mexanizmlər üçün sürtkü yağlarının satın alınması” üzrə açıq tenderin vaxtı 18 avqust 2020-ci il saat 15:00-a dəyişdirilmişdir. Bununla əlaqədar iddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 07 avqust 2020-ci il saat 15:00-a qədər, tender təklifi və bank təminatını isə 17 avqust 2020-ci il saat 15:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədova əzizi

**SEVİL XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəhbərliyi və kollektivi Xarici İşlər Nazirliyinin Dövlət Protokolu İdarəsinin rəisi, səfir Pərvin Mirzəzadəyə anası

**LAMİYƏ MİRZƏZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

“AzerGold” QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Dövlət Protokolu İdarəsinin rəisi Pərvin Mirzəzadəyə anası

**LAMİYƏ MİRZƏZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Slavyan Universitetinin rektoru, professor Nurlana Əliyeva, Həmkarlar İttifaqı Komitəsi, professor-müəllim heyəti və Tələbə Gənclər Təşkilatı BSU-nun Filologiya və Xarici dil müəllimliyi fakültəsinin 4-cü kurs tələbəsi Elvin Mirzəyevə və ailə üzvlərinə atası polkovnik

**İLQAR MİRZƏYEVİN**

şəhid olmasından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Slavyan Universitetinin rektoru, Həmkarlar İttifaqı Komitəsi və professor-müəllim heyəti ADA Universitetinin rektoru Hafiz Paşayevə əzizi

**RƏNA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 6693
Sifariş 1698
Qiyməti 40 qəpik